**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD **UNİVERSİTETİ**

**Ramin Qurbanov**

# TÜRK XALQLARININ TARİXİ

**Dərs vəsaiti**

**I hissə**

Azərbaycan Respublikası təhsil nazirinin 09.07.2010-cu il tarixli 1069 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

**Bakı – 2010**

Elmi redaktor: t.e.d., prof. B.M.Abdullayev

Rəyçilər: t.e.d., prof. O.B.Sultanov
t.e.d., prof.S.A. Məmmədov

Ramin Qurbanov.Türk xalqlarının tarixi. Ali məktəblərin Azərbaycan bölmələri üçün dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010. – 162 səh.

Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynəlxalq münasibətlər» ixtisası üzrə təhsil alan tələbələri üçün nəzərdə tutulmuş dərs vəsaiti türk xalqlarının qədim və orta əsrlər dövrünün tarixinə həsr olunmuşdur. Dərs vəsaitində türk xalqlarıninn qədim və orta əsrlərdə sosial-siyasi həyatı, dini görüşləri, mədəniyyəti, dövlətçilik ənənələri işıqlandırılmışdır.
Dərs vəsaitinin məzmunu «Türk xalqlarının tarixi» fənninin proqramına uyğundur. «Azərbaycan tarixi» fənni beynəlxalq münasibətlər ixtisasında ayrıca fənn kimi tədris olunduğundan dərs vəsaitində Azərbaycan türklərinin tarixinə yer verilməmişdir.

© Ramin Qurbanov - 2010
© "İqtisad Universiteti" – 2010

## MÜNDƏRİCAT

**«TÜRK XALQLARININ TARİXİ» KURSUNA GİRİŞ**
1.Türk xalqlarının tarixi kursu, onun tədrisinin əhəmiyyəti, məqsəd və vəzifələri……...........................................................6
2.Türk xalqlarının tarixinə aid yazılı mənbələr və tarixşünaslıq..............................................................................................9
3.Türk xalqlarının tarixini əks etdirən arxeoloji abidələr........13
4.Türklərin ilk yaşayış məskənləri və dini etiqadları…............15

**QƏDİM DÖVRDƏ TÜRK TAYFA İTTİFAQLARI VƏ DÖVLƏT QURUMLARI**
1.Saklar və massagetlər……………………..………….........18
2.Sakların Əhəməni və Makedoniya işğalına qarşı mübarizəsi............................................................................................21
3.Usunlar……………………………………………….........24
4.Sarmatlar……………………...………………………........25

**BÖYÜK HUN İMPERİYASI**
1.Şərqi Hun dövlətinin yaranması……………......…….........28
2.Hun dövlətinin ərazisinin genişlənməsi. Mete xan…............30
3.Hun imperiyasının parçalanması. Hunların qərbə axını.......34

**QƏRBİ HUN İMPERİYASI**
1.Hunların Krım və Dunayətrafı ərazilərə yürüşü. Qərbi Hun dövlətinin yaranması..............………………………………...37
2.Qərbi Hun imperiyası Atillanın hakimiyyəti dövründə........39
3.Atillanın ölümü və imperiyanın dağılması…………….........42

**AĞ HUN İMPERİYASI**
1.Ağ Hun dövlətinin yaranması……………………………........44
2.Ağ Hunların qonşularla münasibətləri. İmperiyanın süqutu................................................................................45

**GÖYTÜRK İMPERİYASI**
1.I Göytürk xaqanlığının yaranması. Xaqanlığın daxili və xarici siyasət..........................................................49
2.I Göytürk xaqanlığının parçalanması. Şərq və Qərb xaqanlığı.......................................................................51
3.II Göytürk xaqanlığının yaranması.........................................53
4.II Göytürk xaqanlığının süqutu. İctimai və sosial həyat.......55

**UYĞUR XAQANLIĞI**
1.Uyğur xaqanlığının yaranması...............................................58
2.Uyğur xaqanlığının süqutu. Uyğurların dini etiqadları.........60

**AVAR XAQANLIĞI**
1.Avar xaqanlığının yaranması. Bizans imperiyası ilə münasibətlər.......................................................................63
2.Avar xaqanlığının süqutu......................................................64

**BULQAR DÖVLƏTİ**
1.Bulqar dövlətinin yaranması.................................................66
2.Dunay Bulqar dövləti.............................................................67
3.Volqa bulqarları......................................................................69

**XƏZƏR XAQANLIĞI**
1.Xəzər xaqanlığının yaranması...............................................71
2.Xəzər-Ərəb müharibələri. Xəzər xaqanlığının süqutu..........72

**X–XII ƏSRLƏRDƏ QƏRBİ TÜRKÜSTANDA TÜRK DÖVLƏTLƏRİ**
1.Qaraxanlı dövlətinin yaranması............................................75
2.Qəznəvilər dövlətinin yaranması..........................................77
3.Xarəzmşahlar dövlətinin yaranması......................................79

**OĞUZ DÖVLƏTİ**
1.Oğuz köçləri. Oğuz dövlətinin yaranması…………...........83
2.Səlcuq imperiyasının yaranması………………..............85
3.Azərbaycan Səlcuq oğuzlarının hakimiyyəti dövründə........88
4.Səlcuq imperiyasının süqutu. İctimai və iqtisadi münasibətlər.....................................................................91

**OSMANLI İMPERİYASI**
1.Osmanlı dövlətinin yaranması……………………........94
2.Osmanlı imperiyasının yaranması……………………........97
3.Osmanlı dövləti II Mehmetin hakimiyyəti dövründə..........104
4.Osmanlı imperiyası XVI əsr–XVII əsrin birinci yarısında.109

**MONQOL İMPERİYASI VƏ TÜRK XALQLARI**
1.Monqol dövlətinin yaranması. Monqolların Orta Asiyaya yürüşləri……………………………............................114
2.Monqol qoşunlarının Cənubi Qafqaza hücumu…………..117
3.Türk xalqları monqolların hakimiyyəti dövründə………...119
4.Qızıl Orda dövləti…………………………………...…121
5.Krım xanlığı……………………………………........126
6.Kazan xanlığı……………………………………….131
7.Həştərxan  xanlığı…………………………………...133
8.Sibir xanlığı……………………………………………134

**XIV–XVI ƏSRLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK DÖVLƏTLƏRİ**
1.Teymurun işğalları. Teymur imperiyasının yaranması.......138
2.Türk xalqları Teymurilərin hakimiyyəti dövründə……….141
3.Özbək xanlığı………………………………..........145
4.Qazax xanlığı………………………….....……...148
5.Baburlu dövləti…………………………....……...151

**ƏDƏBİYYAT SİYAHISI**……………………………156

# «TÜRK XALQLARININ TARİXİ» KURSUNA GİRİŞ

## 1. Türk xalqlarının tarixi kursu, onun tədrisinin əhəmiyyəti, məqsəd və vəzifələri

Tarix türkləri müxtəlif adlarla tanıyır: hunlar, uyğurlar, karluklar, avarlar, bulqarlar, xəzərlər, balkarlar, səlcuqlar, qıpçaqlar, xakaslar və başqaları. Avropalılar «türk» adını Mərkəzi Asiyanın bütün köçəri tayfalarını müəyyənləşdirən ad kimi qəbul edirdilər. Ərəblər Soqdianadan şimalda yaşayan bütün döyüşkən köçəriləri türk adlandırmağa başladılar. Sonralar bu termin bir daha dəyişikliyə məruz qaldı və dil ailəsinin adına çevrildi.

Türk dili dünya dilləri arasında türk soyu qədər qədim və türk soyu kimi ayaqda duran bir dildir. Türk dilinin quruluşu, qaydaları, zənginliyi nəzərə alınarsa, bunun çox qədimdən işlənmiş və inkişaf etdirilmiş bir dil olduğu açıq-aydın görünür. Türk sözlərinin başqa dillərdəki qalıqları türk dilinin qədimliyini və çox işlək olduğunu göstərir.

Türklər, bir qayda olaraq, təbiət və xarakterlərinə görə torpağın hakimləridir. Türklər müxtəlif xalqları birgə yaşayışa məcbur etməyə çalışmışlar. Lakin onlara mərkəzləşdirilmiş hakimiyyət altında özünəməxsusluğunu, dilini, dinini qoruyub saxlamaq imkanı verilirdi. Onların əsas məqsədi tabe edilmiş xalqları və tayfaları təşkil etmək, onları döyüşə aparmaq və qəhrəmanlıq salnamələri yazmaq idi. Türklər öz talelərini qədim dünyanın bütün xalqlarının taleləri ilə bağlayırdılar. Doğrudur, bəşər tarixi son dərəcə qeyri-bərabər öyrənilmişdir. Xüsusən, Avrasiya çölünün tarixində çoxlu boşluqlar var. Buna baxmayaraq, belə bir fakti inamla qeyd etmək olar ki, dünyanın mənzərəsini əsaslı şəkildə dəyişdirmiş türk xalqının tarixi qeyri-adi zənginliyə malikdir.

Türklərin qədim Ön Asiya mədəniyyəti ilə olan əlaqələri də aydınlaşmışdır. Ön Asiyada qədim mədəniyyət quran şumerlərin ana yurdlarından ayrılaraq buralara qədər gələn türklər olduqları ortaya çıxır. Tanınmış elm adamı Hommel şumerləri qəti olaraq türk millətinə mənsub sayır. Şumer dilinin tədqiqatçısı fransız Hiliare de Barenton göstərir ki, şumer söz kökləri, bu gün canlı türk dilində eynidir.

Lakin hələ bu günə qədər qədim türk xalqlarının tarixi lazımi səviyyədə tədqiq olunmayıb. Qədim türk xalqlarının lap əvvəllər, eramızdan çox-çox qabaq yaratdıqları mədəniyyət nümunələri bir sıra İran, rus və Avropa tədqiqatçılarının əsərlərində farsların adına çıxılır. İran tarixindən danışan tədqiqatçıların əksəriyyəti bu ərazidə türk xalqlarının məskunlaşmasının üzərindən sükutla keçirlər. Tarixi saxtalaşdıraraq türk xalqlarını fars xalqı kimi qələmə verirlər. Lakin tarixə nəzər salsaq İran dövlətini idarə edənlərin türklər olduğunu görmək o qədər də çətin deyildir. Hər hansı bir xalqın tarixini həmin xalqa münasibətlə bağlı olaraq təhrif etmək olar. Lakin xalqın tarixi yaddaşını təhrif etmək mümkün deyil.

Müasir tarixşünaslıqda türk xalqlarının dövlətçilik tarixi Şərqi Hun dövləti ilə başlanır. Əslində qədim türklərdə dövlətçilik tarixi e.ə. I minilliyin əvvəllərindən başlamışdır. Belə ki, e.ə. IX əsrdə Azərbaycan ərazisində Manna dövlətini, VII əsrdə Kimmer-skit-sak padşahlığını da qədim türklər yaratmışlar. Göründüyü kimi türklərin dövlətçilik ənənələri hunlardan da əvvələ gedib çıxır. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bir sıra ali məktəblərdə «Türk xalqlarının tarixi» adlı yeni kurs tədris olunmağa başladı.

«Türk xalqlarının tarixi» kursunun başlıca vəzifəsi dünyanın bir çox ölkələrində əsrlər boyu yaşayıb-yaradan, dünya elm və mədəniyyət xəzinəsini zənginləşdirən bu xalqın tarixini sistemli şəkildə ümumiləşdirmək və şərh etməkdən

ibarətdir. Eyni zamanda kursun tədrisi gənclərimizin türk xalqlarının bəşər tarixində mövqeyini və rolunu öyrənməsi zərurətindən irəli gəlir. Qədim türklərin, o cümlədən azərbaycanlıların ulu əcdadlarının bəşər tarixində tutduqları mövqe və oynadıqları rol gənclərimizdə milli iftixar hissinin formalaşması üçün əsasdır. **Türk xalqları tarixinin öyrənilməsində və tədris olunmasında məqsəd tələbələrə bu qədim xalqın tarixinə aid məlumat verməkdən ibarətdir.** Bu zərurət onunla əlaqədardır ki, indiyədək türk xalqlarının dünya tarixində yeri və rolu çox səthi öyrənilmiş, müstəmləkəçilik rejiminin tələblərinə uyğun şəkildə tədris olunmuşdur. Azsaylı türk xalqlarının tarixi isə tamamilə unudulmuşdur.

Türk xalqlarının tarixinin öyrənilməməsinin müəyyən obyektiv səbəbləri vardır. Türk xalqlarını bir-birindən təcrid etmək, onların qədim dövlətə, mədəniyyətə malik olduğunu göstərməmək, yeni nəslin dünyagörüşündə bu xalqın qədimliyinin formalaşmasına yol verməmək sovet milli siyasətinin başlıca məqsədi idi. Çünki vaxtilə çox böyük ərazidə yaşayan və əsrlər boyu bu ərazilərdə türk mədəniyyəti və tarixinin qalıqlarını sübut edən xalqın böyüklüyünü, mənəvi zənginliyini qəbul etmək Sovet milli siyasətinə qətiyyən uyğun gəlmirdi.

Başqa xalqların tarixi yaxşı tədqiq olunduğu, dünyaya qədim bir xalq kimi tanıdıldığı halda, türk xalqlarını öz kökündən uzaqlaşdırmaq üçün onların ümumi tarixi arasında qəsdən uçurumlar yaradılır, bir-birindən təcrid olunmuş halda tədqiqata cəlb edilirdi. Beləliklə, türk xalqlarının tarixi Türkiyə istisna olmaqla dünya oxucularının diqqətindən kənarda qalmışdır. Bütün bunlar onu göstərir ki, türk xalqlarının qədim tarixinin öyrənilməsi üçün hələ çox iş görülməlidir.

Eyni zamanda türk xalqlarının tarixinin araşdırılması bir sıra çətinliklərlə bağlıdır. Bu çətinliklər ondan irəli gəlir ki, bir çox türk xalqlarının qədim və erkən orta əsrlər dövründə yazılarının

olmamasıdır. Mövcud tarixi faktların, materialların, xüsusilə ilk mənbələrin pərakəndə bir vəziyyətdə və həm də müxtəlif dillərdə olmasıdır. Bu boşluğu müasir türk xalqlarının yaşadığı ərazilərdə qazıntılar zamanı aşkar edilən arxeoloji tapıntılar müəyyən dərəcədə doldurur.

## 2.Türk xalqlarının tarixinə aid yazılı mənbələr və tarixşünaslıq

Türk xalqlarının qədim və qismən də orta əsrlər tarixinə dair yazılı mənbələrin azlığı, bu mənbələrin böyük bir hissəsinin xarici mənbələrdən ibarət olması ayrı-ayrı dövrlərin araşdırılmasında ciddi problemlər yaradır. Bu problemlərin həllində arxeoloji mənbələr xüsusi əhəmiyyətə malikdir.

Diqqəti ən çox cəlb edən mənbələrdən biri qədim Çin mənbələridir. Hələ ən qədim zamanlardan bəri Orta Asiyada yaşayan türk tayfaları Çinlə qonşu olduğundan onlarla geniş əlaqə saxlamışlar. Buna görə hələ eramızdan əvvəl birinci minillikdən başlayaraq XIV əsrə qədər Çin mənbələri bir çox türk tayfaları barədə geniş məlumatlar verir. Sonrakı dövrlərdə artıq Çin türk xalqlarına qarşı siyasətdən təcrid olunmuşdur. Çin mənbələri uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmış və ilk dəfə rus çinşünası N. Biçurin tərəfindən rus dilinə tərcümə olunmuşdur. Türk xalqlarının tarixinin öyrənilməsində **run, uyğur və ərəb əlifbaları ilə yazılmış mətnlər mühüm yer tutur.** Məlumat azlığına baxmayaraq bu mənbələrdə türk xalqları haqqında məlumatlar daha dəqiq verilir. Qədim türk mətnləri əsasən Monqolustanda, Yenisey çayının sahillərində tapılmışdır. Bu yazıların çoxu qəbir üzərində, qayalarda həkk olunan yazılardan ibarətdir.

V.Bartoldun verdiyi məlumata görə, Orxon-Yenisey run yazıları VI əsrdə yaranmış və böyük türk imperiyasının yaradıcılarına məxsusdur. Bu yazıların oxunması tarixi 1893-cü ildən başlanır. İsveç alimi V. Tomson və rus türkoloqları V.

Radlov, S. Malov bu əlifbanı türk sözləri əsasında açmışdır. Orxon-Yenisey run yazılarının elmi əhəmiyyəti ondadır ki, türkcə ilk yerli yazılı mənbədir. Türk xalqlarının tarixinə aid ən mühüm mənbələrdən biri də Bizans və Latın mənbələridir. Bu məlumatlar V. Latışev tərəfindən rus dilində çap olunmuşdur.

Bizanslı Menandr VI əsr "Tarix" əsərinin müəllifidir. O, Bizansla Qərbi türk xaqanlığı arasındakı münasibətləri verir, türk xaqanları haqqında danışır. Onun əsərində Qərbi türk xaqanlığında yaşayan türklərin adətləri, xüsusilə dini görüşləri haqqında məlumat verilir. Latın müəllifi Ammiam Marselin IV əsr "Tarix" adlı əsərində Cənub-Şərqi Avropa çöllərində hunların həyatı, onların yürüşləri haqqında qiymətli məlumat verilir. O, Roma ordusunda türklərə qarşı mübarizədə iştirak etmiş və gördükləri barədə geniş məlumatı əsərində qeyd etmişdir.

**Türk tayfaları haqqında məlumatlara Herodotun, Strabonun, Plininin, Plutarxın və başqalarının əsərlərində də rast gəlmək olar.** Türk xalqlarının tarixini öyrənmək üçün ərəb mənbələrində də geniş məlumatlar vardır. Orta Asiyanın ərəblər tərəfindən işğalı, Orta Asiya şəhərləri, ticarət yolları barədə ərəb müəlliflərinin əsərlərində məlumat verilir. Bu əsərlərdə türk xalqlarının əvvəlki əsrlərdən başlayaraq tarixi haqqında çoxlu tarixi və coğrafi məlumatlar vardır. Bu mənbələr **V. Bartold və V. Kraçkovski** tərəfindən ətraflı tədqiq olunmuşdur. **İbn Xordadbeh, Təbəri, Müqəddəsi, İbn əl-Əsir, Yaqut Həməvi** kimi ərəb müəlliflərinin əsərlərində türk xalqlarının həyatı, yaşayış tərzi, adət-ənənələri və eyni zamanda ərəblərə qarşı baş vermiş üsyanlar haqqında məlumatlar verilmişdir. Türk xalqlarının tarixinə aid fars mənbələrində də məlumat verilmişdir. X əsr müəllifi **Məhəmməd Nərşahi** Buxaranın tarixinə aid əsər yazmışdır. Bu əsərdə müəllif Orta Asiya xalqları, onların qonşu ölkələrlə münasibətlərinə toxunmuşdur. Qədim türk mənbələri içərisində XI əsr müəllifləri Yusif Balasaqunlunun "Qutatqu bilik"

(xoşbəxt olmaq üçün bilik) və Mahmud Qaşqarlının “Divani-lüğət-ət-türk” ( türk dilləri lüğəti) əsərləri xüsusi yer tutur. Yusif Balasaqunlu Orta Asiyada Balasaqun şəhərində doğulub. O, öz əsərini Qaraxanilər dövlətinin tarixinə həsr etmişdir. Qaraxanilərin hakimiyyəti dövründə Uyğur əlifbası işlədilsə də tezliklə onun yerini Ərəb əlifbası tutmağa başlamışdır.

Mahmud Qaşqarlı Türküstanın Qaşqar şəhərində anadan olmuşdur. Mahmud Qaşqarlı türk xalqlarını iki yerə – Şimal və Cənub qollarına ayırır və onların hər birinə on tayfanın daxil olduğunu qeyd edir. Oğuz türklərini Şimal qoluna şamil edirdi. Mahmud Qaşqarlı da Qaraxanilər dövləti və onun mərkəzi Qaşqar şəhəri haqqında geniş məlumat verir.

Türk xalqlarının tarixinə aid mənbələrdən biri də **Rəşidəddinin** əsərləridir. Onun **«Tarixlərin toplusu»** əsərində Orta Asiyanın türk tayfalarının tarixi, monqolların yürüşləri ətraflı verilir. XIV əsrdə türk xalqlarının tarixi barədə **Nizaməddin Şaminin «Zəfərnamə»** adlı əsərində də dövrün ən mühüm tarixi hadisələrindən ətraflı bəhs edilmişdir.

Rus mənbələri də türk xalqlarının tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu mənbələrdə Krım, Volqaboyu, Xəzəryanı bölgələrdə yaşayan türk xalqları haqqında məlumatlar verilmişdir. 1932-ci ildə Mərkəzi Asiya və Qərbi Sibir xalqları haqqında rus mənbələri külliyat şəklində çap olunmuşdur. Bu külliyatda əsas etibarilə Rusiyanın Mərkəzi Asiya xalqları ilə münasibətlərinin tarixinə aid sənədlər toplanmışdır. 1961-ci ildə Alma-Atada Qazaxıstanın XVI–XVIII əsrlər tarixinə aid sənədlər və materiallar külliyatı nəşr olunmuşdur. Bu dövrdə, yəni XVI–XVII əsrlərdə Sibir xanlığında yaşamış türk tayfaları haqqında məlumatlar rus mənbələrində əksini tapmışdır. Türk xalqlarının tarixinin araşdırılması sahəsində V. Bartoldun, L. Qumilyovun və başqalarının xidmətləri böyükdür. “Qədim türklər” adlı əsərində L. Qumilyov qədim türk dövlətinin yaranması, fəaliyyəti və dini görüşlərini zəngin materiallar əsasında

araşdırmışdır. Türk xalqlarının erkən orta əsrlər tarixi də Lev Qumilyov tərəfindən araşdırılmışdır. Onun əsərlərində Eftalitlər, I və II Türk xaqanlıqları, Türkəş və Uyğur xaqanlıqları haqqında ətraflı bəhs olunur. Bu xaqanlıqların tarixi əsas etibarilə qədim mənbələr və mövcud ədəbiyyat əsasında şərh olunur. Lakin onun əsərlərində türk xalqlarının tarixinin bir sıra məsələləri tam həllini tapmamışdır.

V.Bartold Rusiya imperiyasında yaşayan türk xalqlarının tarixi ilə bağlı geniş məlumatlar verir. V. Bartoldun əsərlərində Qaraxanilər dövləti, oğuzların mənşəyi və onların Qərbə hərəkəti, Monqol imperiyasının yaranması, Qızıl Orda dövləti, Əmir Teymurun müharibələri, Şeybanilər dövləti haqqında məlumatlar ətraflı verilmişdir. V. Bartold eyni zamanda, Rusiya imperiyasında yaşayan türk xalqlarının orta əsrlər tarixi ilə ətraflı məşğul olmuşdur. Türk xalqları tarixinin erkən orta əsrlər dövrünün tədqiqatçılarından biri də M. Artamonovdur. O, xəzərlər haqqında araşdırmalar aparmışdır. Onun “Xəzərlərin tarixi” əsərində hunların qərbə hərəkəti, Qərbi Hun dövlətinin yaranması, Atillanın yürüşləri, Xəzər dövlətinin yaranması haqqında məlumatlar verilmişdir. Ümumiyyətlə rus tarixşünaslığında türk xalqlarının tarixini V. Qriqoryev, V. Radlov, P. Rıçkov və başqaları da tədqiq etmişlər.

Avropa tarixçiləri də türk xalqları haqqında geniş tədqiqatlar aparmışlar. Lakin onların əsərlərində türk xalqlarının tarixi təhrif olunmuşdur. Onların əsərlərində türk tayfalarının bir hissəsi irandillilər kimi qeyd olunmuşdur. Türk xalqlarının tarixi barədə Türkiyə tədqiqatçılarının əsərlərində geniş məlumat verilir. Bu tədqiqatçılardan Enver Könükçü, Ahmet Zəki Validi, Faruk Sümər, Rəfiq Özdək, Bahəddin Ögel, Kemal Anadol və başqalarının xidmətlərini qeyd etmək olar. Onu qeyd etmək lazımdır ki, Türkiyə tədqiqatçıları Şərq və antik mənbələrdə qeyd olunan skit, sak, kimmer, sarmat, alan və başqa qədim etnosları türkdillilər sayırlar. Hunların tarixini Bahəddin Ögel geniş tədqiq etmişdir.

Enver Könükçü isə Orta Asiya ərazisində mövcud olmuş erkən orta əsrlər türk tayfaları haqqında məlumat verir. Kemal Anadol isə Cənub-Şərqi Avropada qədim və erkən orta əsrlərdə mövcud olmuş türk dövlətlərinin tarixini işıqlandırmışdır. XIV–XV əsrlərdə türk xalqlarının tarixi ilə Faruk Sümər məşğul olmuşdur. XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycan tədqiqatçıları da bu sahədə xeyli iş görmüşlər. Azərbaycan tədqiqatçılarından S. Əliyarlını, İ. Məmmədovu, D. Qüdrətovu, Ə. Muxtarovanı, N. Mehdiyevanı, A. Məmmədovu və başqalarını qeyd etmək olar. S. Əliyyarlının "Azərbaycan tarixi" dərsliyində, D. Qüdrətovun "Türk xalqlarının tarixi", Ə. Muxtarovanın "Türk xalqlarının tarixi", N. Mehdiyevanın "Türk xalqlarının tarixi" yeni dövr, İ. Məmmədovun "Hunlar" adlı əsərində türk xalqlarının tarixinin bütün dövrləri barədə məlumatlar vardır. Bu əsərlərdə türk etnosları, onların dövlətçilik ənənələri, sosial-iqtisadi həyatları, dini görüşləri və mədəniyyətləri işıqlandırılmışdır.

### 3. Türk xalqlarının tarixini əks etdirən arxeoloji abidələr

Türk xalqlarının yaşadıqları ərazilərdə arxeoloji qazıntılar XX əsrin 50-ci illərindən başlayaraq geniş vüsət almışdır. Lakin buna qədər, yəni XIX əsrin ortalarından başlayaraq səyyahlar, din xadimləri, hərbi işçilər, həvəskarlar və bəzi tədqiqatçılar türk xalqlarının maddi-mədəniyyət abidələrini öyrənmiş, onları siyahıya götürmüşdür. Bu tədqiqatçılardan bəziləri bu və ya digər abidəni öyrənərkən qarşısına heç bir məqsəd qoymamış, əksinə, onları dağıtmış və öz mənafeləri üçün istifadə etmişlər. Lakin bu sahədə müsbət rol oynayanlar da olmuşdur ki, bu barədə yeri gəldikcə qeyd ediləcəkdir.

Aparılan qazıntılar zamanı sakların, kuşanların, karlukların və hunların tarixinə aid çoxlu əmək alətləri, əşyalar, silahlar, pullar aşkar olunmuşdur. Arxeoloqlar Sırdəryanın aşağı

axarlarında, Aral gölünün şərq bölgələrində eramızın ilk dövrlərinə aid çoxlu qalalar və yaşayış məskənləri aşkar etmişlər. Arxeoloji tapıntılarla müəyyən olunmuşdur ki, bu qalaların tikintisi eramızdan əvvəlki minilliklərdən başlayaraq eramızın IV–V əsrlərinə qədər davam etmişdir. Şərqi Türküstanda İsveç alimi Sven Qedinin, ingilis Berqmanın, Qərbi Türküstanda 1904-cü ildən **başlayaraq R. Pampellinin** başçılığı ilə qazıntılar aparan Amerika arxeoloji ekspedisiyası, **S. Tolstovun** rəhbərliyi ilə fəaliyyət göstərən Xarəzm arxeoloji ekspedisiyası, **A. Okladnikov** və onun həmkarlarının Sibir və Monqolustan ərazilərindəki arxeoloji tədqiqatları xüsusilə mühüm tapıntılarla nəticələnmişdir. Daş dövrünün müxtəlif mərhələlərinə aid çoxlu insan düşərgələri və antropoloji materiallar, Ceytun və Anau erkən əkinçilik məskənləri, Altun-Təpə və Namazqah-Təpə kimi şəhər-tipli yaşayış yerləri, bina qalıqları, təsərrüfat və məişət əşyaları, qaya rəsmləri belə tapıntılardandır. Bu tapıntılar əsasında Türküstanın qədim sakinlərinin müasir türk xalqları ilə etnik və mədəni bağlılığına aid çoxlu faktlar aşkar edilmişdir.

Türk xalqlarının qədim tarixinə aid zəngin maddi-mədəniyyət nümunələri həmçinin Asiya və Avropa tarixində mühüm rol oynamış sarmat və hun abidələrində də tapılmışdır. Qazaxıstan və Altayda erkən orta əsrlərə aid qədim abidələrin bir növü "balbal" adlanan daş heykəllərdir. Eramızın VIII–IX əsrlərinə aid bu heykəllər Altay dağlarından Volqaboyunadək geniş bir ərazidə aşkar olunmuşdur. Tədqiqatçılara görə bu heykəllər döyüşlərdə həlak olan türk igidlərinin qəbirlərinin üzərində ucaldılmışdır. Bütün yuxarıda göstərilənlərdən aydın olur ki, türk xalqları yaşayan ərazilərdə aparılan arxeoloji qazıntılar nəticəsində türk xalqlarının qədim tarix və mədəniyyətinin öyrənilməsi sahəsində mühüm nəticələr əldə edilmişdir. Avropa və Asiyanın muzeylərində hal-hazırda saxlanılan arxeoloji və yazılı mənbələr türklərin ən qədim və zəngin bir mədəniyyətə malik olduğunu sübut edir.

## 4. Türklərin ilk yaşayış məskənləri və dini etiqadları

Türklərin ana yurdu dedikdə, bu gün dünyanın bir çox ölkələrinə yayılmış türk tayfalarının vaxtilə bir ölkədə cəm olaraq yaşadıqları ərazi başa düşülür. Yer üzünün müxtəlif ölkələrinə mədəniyyətlər aparan və oralarda böyük-kiçik bir çox dövlətlər quran türklər bu yerlərə Asiyadan gəlmişlər. Yəni, qədim dövrlərdə türklər **Orta Asiyada, Sayan-Altay dağlarının şimal-qərb** bölgəsində, **Yenisey çayı** ətrafında yaşamışlar. E.ə. II minilliyin ortalarında yaşadıqları geniş ərazi Tanrı dağlarını, qərbdə Ural, cənubda Balxaş gölü, Xəzər dənizi və şimal-şərq çöllərini əhatə edirdi. Bu gün belə türk tayfalarının böyük bir hissəsinin yaşadığı ərazi Orta Asiyadır. Türklərin tarix səhnəsinə çıxışlarından etibarən bu yerlərdə məskunlaşdıqları müşahidə olunmuş və onların tarixi həyatlarının beşiyi buralar qəbul olunmuşdur. Türklərin tarixi dövrlər içərisində müxtəlif istilalar nəticəsində yayılmaları bu ərazilərdən başlamışdır.

Oturaq həyat sürən xalqlardan fərqli olaraq köçəri həyat sürən türk xalqları əvvəllər ev tikmir, tez-tez yurdlarını dəyişir, qışlaqlara və aran yerlərinə köçürdülər. Onlar yüngül, tez sökülüb-tikilməsi üçün gecə çadırlarda yaşayırdılar. Təbiətlə daha sıx təmasda olan köçərilər üçün belə çadırlarda yaşamaq əlverişli idi. Zəngin köçərilərin çadırları, ipək və qiymətli daşlarla bəzədilən sarayları barədə yazılı mənbələrdə çoxlu məlumatlar vardır.

Mənbələrin verdiyi məlumatlara görə türk tayfaları dünyanın bir çox xalqları kimi əvvəlcə **ovçuluqla, sonralar isə heyvandarlıqla** məşğul olmuşlar. Bu atlı tayfalar geniş düzənliklərdə və ərazilərdə yaşayırdılar. Onların ən qədim peşələrindən biri də **dəmirçilik** olmuşdur. Arxeoloqlar Altayda dəmir filizinin istehsalının çox qədimlərdən başlandığını sübut edə bilmişlər.

Yazılı mənbələrə görə türklər dəmirin istehsalını Mərkəzi Asiyada mənimsəyən ilk xalq kimi tarixə daxil olmuşlar. Məhz bunun nəticəsində onlar qonşu xalqlara qarşı mübarizədə öz müstəqilliklərini qazana bilmişlər.

Türk dünyasında baş verən köçlərin tarixi əhəmiyyəti çox böyükdür. Türklərin Orta Asiyadan böyük dəstələr halında yaxın və uzaq ölkələrə getmələri bu günkü elm dünyasında qəbul edilən bir həqiqətdir. Bu köç hadisələrini təbii, iqtisadi və sosial səbəblər olaraq qısaca nəticələndirə bilərik.

Türklərin sayca artması, təsərrüfatlarının genişlənməsi, böyük heyvan sürülərinin yaşadıqları bölgələrə sığmaması, baş verən quraqlıq onların köç etmələrinə şərait yaradırdı. Buna görə həm əhalisi az, həm də torpaqları çox bərəkətli olan qonşu ölkələrə doğru irəlilədilər. Doğrudur, Orta Asiyada baş verən köç hadisələri daha çox sosial və iqtisadi məsələlərlə əlaqəlidir. Köç hadisələrinin siyasi xarakter daşıdığı da məlumdur. Bəzən türklər də başqalarının hücumuna məruz qalır və yurdlarını tərk etmək məcburiyyətində qalırdılar. Çünki başqa bir dövlətin tabeliyində olmaq, asılı yaşamaq onların qəbul edəcəyi bir hal deyildi. Azad və müstəqil olmaq türklərin əsl istəyi idi. Türklər bir ölkəni yurd etdikdən sonra ora bağlı olaraq bir çox əraziləri fəth etmiş, böyük imperatorluqlar qurmuşlar.

Yuxarıda qeyd etdiyimiz səbəblərdən hansı ilə bağlı olursa-olsun, Orta Asiyadan xarici ölkələrə yönələn böyük köçlərdən başqa, kiçik köçlər də olmuşdur. Ümumiyyətlə, köçlər və bunun üçün aparılan yürüşlər türklərdə milli qüruru artırmış, onlara başqa xalqlara hakim olmaq xarakterini də qazandırmışdır.

Türklərin ilk dini etiqadları barədə məlumatları arxeoloji mənbələr vasitəsilə əldə etmək mümkündür. Arxeoloqlar Orta Asiyada, Qafqazda, Kiçik Asiyada, Sibirdə aparılan qazıntılar zamanı türklərin ən qədim dini etiqadları barədə çoxlu məlumatlar əldə etmişlər.

Aparılan elmi araşdırmalardan aydın olur ki, türklər heç bir zaman bütlərə inanmayıblar, öz yaratdıqlarını ilahiləşdirməmiş, cansız bütlərə səcdə etməmişlər. Türklər cansız bütlərə səcdə qılmadıqları kimi, canlı varlıqlar heyvanlar və quşlar üçün də bütlər, bu bütlərə aid məbədlər tikməmişdilər. Qədim türklərin tabuları, yəni inancları başqa idi. Türklər yeri və göyü yaradanın xəyali varlıqlar olmadığını bilir və inanclarını axtarırdılar. Ona görə də İslam dinini könül dolusu qəbul etmiş, onu qorumağa çalışmış və gözəl məbədlərini də bu din üçün tikmişlər. Lakin arxeoloji qazıntılardan və yazılı mənbələrdən aydın olur ki, Orta Asiyanın türk tayfaları içərisində İslama qədər ibtidai-icma dinləri mövcud olmuşdur. Eyni zamanda qədim türklər dağların, nəhəng qayaların, su qovşaqlarının, qılıncların sehrli bir qüvvəyə malik olduqlarına inanırdılar. Onlara görə su, günəş, göy gurlaması və şimşəyin də ruhları vardı. Ruh daşıyan yer və su qüvvələrinə geniş mənada «Yer-Su»lar deyir və bunları uğurlu sayırdılar. Bunlar yurd yerləri olduqları üçün də uğurlu hesab edilirdilər. «Yer-Su»lar inanılan uğurlu varlıqlar, ruhlar idi, amma bunların da bütləri, məbədləri tikilməmişdi. Qədim türklərin bir inamı da atalar kultu idi. Türklər atalarına dərin hörmət bəsləyir, onların şərəfinə böyük abidələr, heykəllər ucaldırdılar. Orxon-Yenisey abidələri və digər məbədlər buna inandırıcı sübutdur. Qədim türklər ölən şəxsləri əşyaları ilə birlikdə dəfn edir və məzarlarının açılması bağışlanmaz cinayət hesab olunurdu. **Türklərin inamlarından biri də «Göy Tanrı» idi.** Qədim türklər yalnız kainatın yaradıcısı olaraq bildikləri və tək varlıq olaraq qəbul etdikləri Göy Tanrıya sığınmışlar. Onlara görə Günəş, Ay, Ulduz əvəzolunmaz varlıqlar idi. Qədim türklərin inamı yeri və göyü yaradan ilahi bir qüvvə idi. Yazılı mənbələrdən aydın olur ki, Mərkəzi Asiyanın türk tayfaları içərisində ibtidai-icma dinləri ilə yanaşı zərdüştlük də vardı. Zərdüşt dini tərəfdarları Mərkəzi Asiyada ərəb işğallarına qədər qalmaqda idilər. Ərəblər onlara İslam dinini qəbul etdirirdilər.

# QƏDİM DÖVRDƏ TÜRK TAYFA İTTİFAQLARI VƏ DÖVLƏT QURUMLARI

## 1. Saklar və massagetlər

E.ə. I minillikdə Mərkəzi Asiyada yaşamış etnoslar antik və Çin mənbələrində Sak, Massaget, Usun adları ilə məlumdur. Sakların adı ilk dəfə Çin mənbələrində çəkilir. Bu adı Çin tarixçiləri «San» və yaxud «San-Vang» kimi işlətmişlər. Yunan və İran mənbələrində Sak adı e.ə. VI əsrdən başlayaraq çəkilir.

İlk mənbələrə görə Saklar Fərqanə vadisində, Sırdəryanın sağ və sol sahillərində məskunlaşmışlar. Bir çox iranşünaslar sakları İranın yerli sakinləri və yaxud çox qədim zamanlardan burada yaşayan tayfalardan biri kimi şərh edirlər. Qafqazın şimal bölgələrinə və oradan Qara dənizin sahillərinə gələrək bu yerlərdə məskunlaşan sakları yunanlar skit, Yaxın Şərqə gələn sakları farslar sak, assurlar isə işquz və yaxud aşquz adlandırırdılar. Sakların adı e.ə. VII-VI əsrlərə aid edilən «Avesta» kitabında da çəkilir. Bu abidədə saklar «tura» adlanır və onların zərdüşt dininə qulluq etdikləri göstərilir. Bəzi tədqiqatçılara görə tur sakların bir qolunun adıdır. Belə baxış var ki, «tur» sözü elə «türk» sözünün qədim formasıdır.

E.ə. 750–700-cü illər arasında sakların bir hissəsi Qara dənizin şimalına doğru hərəkət etdilər və kimmerləri oradan sıxışdırıb çıxartdılar. Skitlər haqqında daha müfəssəl məlumatı Herodot vermişdir. **Herodota görə,** skitlərin Avropa istiqamətində köçünə səbəb şimal-şərqdən edilən təzyiqlər idi. Kimmerlərin bir hissəsi sakların sıxışdırması nəticəsində Dunay ətrafına, qalan hissəsi isə Kiçik Asiyaya doğru hərəkət etdilər.

**Herodotun məlumatına** görə skitlər Avropadan qovduqları kimmerlərin arxasınca Midiyaya soxuldular. Assur mənbələrində göstərilir ki, skitlər Mannanın hüdudlarına gəldilər. Mannalılar fürsətdən istifadə edərək, onlarla ittifaqa girir və Assuriya ilə rəqabətə başlayırlar. Yaxın Şərqə axışıb gəlmiş skitlər bir neçə dəstəyə bölünmüşdülər. Onların bir dəstəsi başda Bartatua olmaqla Kiçik Asiyanın şimal-şərqində, digər dəstə isə İşpakayın rəhbərliyi ilə Mannanın şimal-qərb və qərb torpaqlarında yerləşmişdi. Bartatuanın oğlu Madi midiyalıların hücumuna məruz qalmış Assuriyanın xahişinə əsasən özü Midiyanı zəbt edir. Lakin midiyalılar



işğalçılarla mübarizəyə qalxdılar və onların hökmdarı Kiaksar skitləri qırdı, sağ qalan hissəsi ölkədən qovuldu. Onlar yenidən Şimali Qafqaza köçüb getdilər. Sakların böyük bir hissəsi Qara dənizin şimalında məskunlaşmışlar. Bu barədə yunan mənbələrində xeyli məlumatlar vardır. **Saklar e.ə. IV əsrin ortalarında** Don çayı ilə Dunay çayı arasında öz müstəqil dövlətlərini yarada bilmişlər. Saklar Qara dənizin şimal sahilindəki yunan şəhər dövlətləri ilə ticarət edirdilər. Onların ilk hökmdarı Ateyin olmuşdur. Ateyin öz ərazisini qərbə doğru genişləndirməyə çalışmışdır. O, qərbdə II Filipplə qarşılaşmış, 339-cu ildə baş verən döyüşdə məğlub olmuşdur. Bu məğlubiyyət sakların nüfuzuna böyük təsir etdi. Sakların

ictimai quruluşu və təsərrüfat həyatı haqqında yazılı mənbələr çox azdır. Saklar köçəri xalq olduqlarına görə əsasən qoyun və at saxlayırdılar. Qadınlar, uşaqlar, qocalar arabalarda, kişilər isə at üstündə, hər an döyüşə hazır vəziyyətdə hərəkət edirdilər. Sakların hərəkət vasitəsi ox-kamanla bərabər onların sədaqətli yoldaşı olan çöl atı idi. Bu atlı oxatanların uzaq səfərlərə çıxdıqları arabalardan savayı heç bir daimi məskəni yox idi. Saklar bütün əmlaklarını-bir sözlə, bu gün sak incəsənətinin əsasını təşkil edən nə varsa hamısını bu arabalarda daşıyırdılar. Onlar e.ə. VII əsrdən eramızın II əsrinə qədər Şimali Qafqaz çöllərinin sahibi olmuşlar. Sakların inamları ibtidai dini görüşlər idi.

Mərkəzi Asiyada saklarla yanaşı massagetlər də yaşayırdılar. Massagetlər Sır-Dərya və Amu-Dərya çaylarının arasında, saklar isə onlardan şərqdə məskun idilər. E.ə. VII-V əsrlərdə massagetlər iri tayfa ittifaqları formasında yaşayırdılar. **Herodot massagetlər haqqında yazır ki,** onlar Kaspi dənizinin şərq tərəfində çöllərdə yaşayırdılar, həyat tərzinə və geyimlərinə görə skitlərə oxşayırdılar.



İran tarixində massagetlərin adı çəkilmir, belə ki, qədim iranlılar bu tayfanı da Sak adı ilə tanıtmışlar. Orta Asiya tədqiqatçısı A. Hermanın fikrincə, massagetlərin bir hissəsi Xəzərin şərqindən Aral gölü sahillərinə gəlib çıxmışlar. Massagetlər sakların bir qolu hesab olunur. **Herodot və Strabon** da sakları və massagetləri eyni etnos kimi səciyyələndirmişlər. **Herodot massagetlər haqqında yazır ki,** onlar həm atla, həm də piyada vuruşurlar, ox və nizə ilə

döyüşürlər. Sakların bir qolu olan massagetlər sakların ardınca Dərbənd keçidini keçib, Alban torpaqlarına gəlmişlər. Massagetlərlə bağlı sonrakı araşdırmalar həmin tayfaların Qafqazda uzun müddət yaşadığını göstərir. Eramızın ilk əsrlərinə aid mənbələrdə massagetlərin hələ də orada yaşaması qeyd edilir. **Plini Albaniya** ilə yanaşı massagetlərin ölkəsini xatırladır. **Dion Kassi** albanların massagetlərlə qohum olduğunu bildirir. Massagetlərin yaşadığı torpaqlarda III-VI əsrlərdə Maskut hökmdarlığı var idi. Albaniyanın şimal-şərqində yaşamış və «Alban tarixində» Maskut adlanmış tayfa məhz antik mənbələrdə adı «massaget» kimi yazılmış tayfa ilə mənşəcə eynidir. Massagetlərin ilk orta əsrlərdə daşıdığı adlara uyğun bir sıra toponimlər indi də qalmaqdadır. Sak və massagetlərin etnik qohumluğunu antik müəlliflərdən Strabon, Dion Kassi, Diodor, Solin və başqaları təsdiq edirlər. Bu tayfaların irandilli olması fikrini göstərən dil uyğunluğu yoxdur. Ancaq sak və massagetlərlə bağlı şəxs adlarının hamısı türk dillərində izah olunur, bu tayfalarla bağlı toponimlər Orta Asiya ərazisində və Azərbaycanda indi də qalmaqdadır. Massagetlərin əsas məşğuliyyəti maldarlıq idi. Massagetlər də saklarda olduğu kimi Günəşə sitayiş edirdilər. Eyni zamanda massagetlərdə ibtidai dini inamlar da mövcud olmuşdur.

## 2. Sakların Əhəməni və Makedoniya işğalına qarşı mübarizəsi

E.ə. VI əsrin ortalarında yaranmış Əhəmənilər dövləti ilk vaxtlarından başlayaraq işğalçılıq müharibələrinə başladı. Əhəmənilər dövləti Kiçik Asiyada yunan şəhər dövlətlərini, Babili, Misiri işğal etdikdən sonra şərq istiqamətində hərəkətə başladılar. Xarici siyasətində başqa ölkələrin işğalı əsas yer tutan I Dara ilk növbədə sak tayfalarına qarşı yürüş təşkil edir. Antik müəllif Poliyen yazır ki, I Dara Mərkəzi Asiya saklarına qarşı böyük bir səfərə hazırlaşırdı. Saklar bundan xəbər tutmuş

və müdafiəyə hazırlaşmışdılar. Şirak adlı sak özünü qurban verməklə sakların səfərbər olunmalarına şərait yaratmışdı.

Bisutun kitabəsi bu barədə məlumat verir ki, I Dara «şiş papaq» sakların ölkəsinə qarşı qoşun yeritdi. Sakları məğlub edib, qalanını əsir götürdü. Saklara başqa başçı təyin edib, onları öz ölkəsinə tabe etdi.

Bəzi tədqiqatçılara görə e.ə. 517-ci ildə Əhəmənilər dövləti sak və massagetləri tabe etmiş və onların ərazilərini Əhəmənilər imperiyasına qatmışdı. I Dara işğal olunmuş ölkələri canişinliklərə bölür və hər bir canişinlik müəyyən vergi dairəsinə salınırdı.

E.ə. 512-ci ildə I Dara Qara dənizin şimal çöllərinə skitlərin üzərinə hücum etmişdir. Skitlər döyüşə girməyə cürət etmədilər. Onlar ölkənin dərinliklərinə geri çəkilərək Daranın ordusunu öz arxasınca gəlməyə məcbur etdilər. Skitlər yol boyu bulaq, quyu və otlaqları xaraba qoyub, mal-qaranı qovaraq aparırdılar. Bununla da I Daranın ordusunu ərzaqdan məhrum edirdilər. Skitlər hərdənbir hücuma keçir və fars dəstələrini dağıdırdılar. I Dara müharibənin uğursuz olacağını başa düşərək, geri qayıtmaq qərarına gəldi. Əhəməni ordusu Dunay çayını keçib, Asiyaya qayıtdı. Skitlərə qarşı təşkil olunmuş bu yürüş uğursuz başa çatdı. O vaxtdan skitlər antik mənbələrdə məğlubedilməzlik şöhrəti ilə yad edilmişdir. Əhəmənilərlə müharibə skitlərin birləşməsinə və dövlət qurumu yaratmalarına səbəb olmuşdu. E.ə. 336-cı ildə hakimiyyətə gələn İskəndər Şərq ölkələrinə yürüşə hazırlaşdı. Bir neçə döyüşdə Əhəmənilər ordusu üzərində qələbə qazanan İskəndər e.ə. 330-cu ildə Əhəmənilər imperiyasının varlığına son qoydu. Eyni zamanda Kiçik Asiya, Suriya, Finikiya, Misir də İskəndər tərəfindən işğal edildi. E.ə. 329-cu ildə İskəndər Orta Asiya ərazisinə daxil oldu. Baktiriya işğal olundu. Baktiriya və Soqda əyalətlərinin canişini Bess Amu-Dəryanın sahillərinə qaçmışdır. Yerli hökmdarlar onu tutub İskəndərə təhvil verdilər. Bess öldürülsə də Orta Asiyada İskəndər yerli

əhalinin kəskin müqavimətinə rast gəldi. İskəndərə qarşı mübarizəyə soqdalı Spitamen başçılıq edirdi. İskəndərin göstərişi ilə şəhər və kəndlər dağıdıldı, hərəkata qoşulan əhali qırılırdı. Buna baxmayaraq Spitamenin saklardan ibarət ordusu müqavimət göstərməkdə davam edirdi. Döyüşlərin İskəndərin xeyrinə qurtarmasını görən tayfa başçıları onu öldürdülər. E.ə. 327-ci ildə İskəndər Orta Asiyanın işğalını başa çatdıraraq Hindistana hərbi səfərə yola düşdü.

Qərbi Hindistan işğal olunsa da, Hindistanın başqa bölgələri makedoniyalılara qarşı müqavimət göstərdilər. İskəndərin ordusu müqavimət göstərə bilmədi və geri qayıtmalı oldu. Onun ölümündən sonra yaratdığı imperiya dağıldı. İskəndərin Ptolemey adlı sərkərdəsi Misiri ələ keçirdi və üç əsrə yaxın orada onun nəsli hakimiyyətdə oldu. Onun digər sərkərdəsi **Selevk isə tarixşünaslıqda** onun adı ilə adlanan **Selevkilər dövlətinin əsasını qoydu.** O, Babilistanı, Orta Asiyanı, Suriyanı da öz hakimiyyəti altında birləşdirə bildi. Selevkilər dövlətinin mərkəzi Baktiriyada yerləşirdi. Selevk ölkədə bir çox islahatlar keçirmiş, Orta Asiyada təsərrüfatın inkişafına şərait yaratmışdı. E.ə. 250-ci ildə **Baktriya** Selevkilər dövlətindən ayrıldı. Orta Asiyada Selevkilərin hakimiyyətinə son qoyuldu. Orta Asiyada Selevkilər dövlətinin süquta uğramasında türk tayfaları da mühüm rol oynamışlar. Baktiriya dövlətinin başında əslən yunanmənşəli hökmdarlar dururdular. Lakin onlar yerli əhalinin dilini bilmirdilər, adət-ənənələri ilə tanış deyildilər. Onların yerli əhali üzərində hakimiyyəti hərbi güvvə ilə tənzimləməsi, onların hakimiyyətinin uzun zaman davam etməməsinə səbəb oldu. E.ə. II əsrin ortalarında Baktiriya dövləti süqut etdi. Baktiriya dövlətinin öz pulları var idi. Orta Asiyada aparılan arxeoloji qazıntılar nəticəsində çoxlu belə pullar tapılmışdır. Baktiriya dövləti zamanında qədim yunan mədəniyyəti Orta Asiya xalqları içərisində yayılmışdı. Baktiriya dövlətinə Kuşan tayfa ittifaqı son qoydu. Orta

Asiyada Sak dövrü e.ə. III əsrdə sona çatır. Onları digər türk tayfaları əvəz edir.

## 3. Usunlar

Qədim Çin mənbələrinə görə Usunlar Şərqdə Çin ərazisində yaşamış və sonralar qərbə doğru sıxışdırılmışlar. Rus şərqşünası **N. Aristov** usunları müasir qırğızların əcdadları hesab edirdi. Onların qırğız xalqının formalaşmasındakı rolu müasir tədqiqatçılar tərəfindən də qəbul olunur. Usunlar eramızdan əvvəl III əsrdən başlayaraq eramızın V əsrinədək siyasi səhnədə olmuşlar. Usunların təsərrüfatının əsasını köçəri maldarlıq təşkil edirdi. Köçəri maldarlıq təsərrüfat sahəsi nəsildən-nəsilə keçmiş və müəyyən qaydalara əsaslanırdı. Ona görə əsrlər boyu dəyişilməz qalırdı. **Lev Qumilyov** qeyd edir ki, köçəri maldarlıq təkmilləşdirməyə ehtiyacı olmayan təsərrüfat formasıdır. Əvvəldən mövcud qaydalar, adət-ənənələr min illər boyu davam edir. Bu təsərrüfat sahəsinin başqa xarakterik xüsusiyyəti də vardır. Otlaqlar tayfalar arasında bölüşdürülürdü, ailələr arasında yox. Otlaqlar yalnız maldar tayfaların xüsusi mülkiyyəti idi. Köçəri maldarlıq geniş otlaqlara malik olmaq zərurəti ilə şərtlənmişdir. Bu isə maldar tayfaların hərbi toqquşmalarına səbəb olmuşdur. Usunların dəfn adətləri saklarda olduğu kimi idi. Tədqiqatçılar onları sakların sonrakı nəsilləri kimi qeyd edirlər.

**E.ə. 177-ci ildə hunlar Metenin** başçılığı altında Usunlara hücum edib onları özünə tabe etmişdi. Lakin onlar hunlara yalnız vergi verirdilər. Eramızdan əvvəl II əsrin axırlarında Usunlar Çinlə yaxınlaşdılar. Usunlar Çinlə ittifaqda hunları məğlub etdilər. Eramızdan əvvəl 160-cı ildə usunların sıxışdırdıqları kuşanlar qərbə hərəkət edərək Baktiriya dövlətinə e.ə. II əsrin ortalarında son qoymuşdular. Eramızın V əsrindən sonra usunların adı mənbələrdə çəkilmir. V əsrdən sonra usunların yaşadıqları ərazilərdə başqa türk tayfaları

meydana çıxır. VI əsrin ortalarından bu tayfa birləşmələrinin ərazisi Türk xaqanlığı tərəfindən işğal olundu.

Eramızın 71-ci ilində hunlarla toqquşmuş Usunlar bir-birinə qarşı qarətçilik hərbi səfərləri təşkil etməklə özlərini zəiflətdilər. Türk tayfalarının hunların başçılığı ilə Şərqi Avropaya köçü prosesində usunların tayfa ittifaqı dağıldı və onların da bir hissəsi köçə qatıldı.

## 4. Sarmatlar

E.ə. IV əsrdə Ural dağlarının ətəklərində, Proxorovkada yerli sarmat mədəniyyəti mövcud idi. **Onun xarakterik əlamətlərindən biri nizə hazırlanması idi ki,** bu da şübhəsiz, onu göstərir ki, nizə onların əsas silahı idi.

Proxorovkada qəbirələrdə aparılan qazıntılar nəticəsində sarmatların Rusiyanın Avropa hissəsində mövcud olmalarına dair dəlillər aşkar edilmişdir. Hərçənd ki, **hələ e.ə. V əsrdə Herodot Donun mənsəbindən** şərqdə «savromatların» yaşadığını xatırladır. Ola bilsin ki, bu onların, skitlərin ardınca gələn, ön dəstəsidir. Əsas kütlə isə hələ Volqa ilə Ural arasında köçəri həyat sürürdü. Tədqiqatçıların fikrinə görə sarmatların qərbə hərəkəti Cənubi Uraldan yeni köçəri tayfaların onların ərazilərinə gəlməsi ilə əlaqədar olmuşdur.

Antik müəlliflər sarmatların skitlərdən şərqdə yaşadıqlarını qeyd etdikdə bunu da yazırlar ki, onlar məhz skitlərə hücum edir və ələ keçirdiklərini öldürürdülər.




Belə bir qəddarlığın nədən yarandığını izah etmək olduqca çətindir. E.ə. III əsrin əvvəllərindən etibarən Qara dənizdən şimaldakı çöllərdə artıq Sarmatlar yaşayırdı. Bəzi Sarmat tayfaları müstəqil idi. Bunlara alanları, sirakları, roksolanları göstərmək olar. Sarmatlar beynəlxalq məsələlərdə qədim dünyanın fəal siyasi qüvvəsinə çevrilmişdilər. E.ə. I əsrdə Sarmatlar Romaya qarşı mübarizədə Pont hökmdarı VI Mitridatla müttəfiq idilər. Sarmatların Şərq qrupu Mərkəzi Asiya dövlətləri ilə sıx iqtisadi və siyasi əlaqələr yaratmışlar. Sarmatlar ayrı-ayrı dövlətlərin müttəfiqi rolunda Cənubi Qafqaza bizim eranın I əsrində hərbi yürüşlər etmişlər. Sarmatlar çox qoçaq, döyüşkən bir xalq idi. Mənbələrin məlumatlarına görə, sarmatların qadınları da kişiləri kimi at çapır, döyüşlərdə iştirak edirdilər. Buna görə ailədə qadınlara böyük hörmət var idi. Herodota görə onların adət-ənənələri skitlərinkinə bənzəyirdi. Sarmatların şimali Qara dəniz ətrafı ərazilərdəki siyasi hegemonluğu III əsrdə gotların hücumu nəticəsində zəiflədi, IV əsrdə Sarmat-alan tayfaları hunlar

tərəfindən darmadağın edildi. Sarmatların təsərrüfat həyatı skitlərdə və ümumiyyətlə qədim türk tayfalarında olduğu kimi əsas etibarilə **maldarlıq** idi. Ural ətrafı ərazilərdə arxeoloji qazıntılar zamanı aşkar olunmuş əşyalar göstərmişdir ki, sarmatlarda qoyunçuluq və atçılıq daha çox inkişaf etmişdir. Onlar keçədən düzəldilmiş alaçıqlarda yaşayırdılar.



# BÖYÜK HUN İMPERİYASI.

## 1.Şərqi Hun dövlətinin yaranması.

Çin mənbələrində hunlar qədim türklər üçün xarakterik olan bir obraz kimi təsvir olunur: **«O qədər də uca olmayan, enlikürək, yumru və iri başlı, almacıq sümükləri qabarıq, burunları yastı və enli pərəli, qulaqları uzunsov, qalın qaşları və badamı gözləri var. Onlar yanları kəsik, uzun sərbəst paltar geyinir. Paltarın ortasına qurşaq bağlanır və ucları qabaq tərəfdən sallanır. Başlarına xəz papaq qoyur, ayaqlarına dəri başmaqlar geyirdilər».** Bu libasın bəzi ünsürləri skitlərin geyimini xatırladır. Herodot yazırdı ki, skitlər öldürdükləri adamın başını kəsib götürür, kəllə sümüyündən isə gədəh düzəldirdilər. Eyni adət hunlarda da qeydə alınıb. Hunlar düşməni təqib edərkən onları boş çöllüyə çəkir və özləri üçün təhlükəsiz bir məsafədən ox yağışına tuturdular. Bu hunlardan başlayaraq Çingiz xana qədər bütün çöl adamları üçün əvəzedilməz bir taktika idi.

Bir çox əsrlər ərzində Mərkəzi Asiyanın ucsuz-bucaqsız çölləri üzərində hökmranlıq hunlara məxsus idi. Onlar yalnız burada yaşayan tayfaları və xalqları itaət altında saxlamır, eyni zamanda çinlilərin əsas rəqibləri idilər.

Hun atlısının əsas silahı ox, nizə və qılınc idi. Çin sərkərdələri onlar haqqında belə deyirdilər: **«Düşmənin həlledici hücumundan qabaq Hun atlıları quşlar kimi geri səpələnir, sonra toplanaraq yenidən hücuma keçirlər. Onları qovmaq asandır, əzmək çətindir, məhv etmək qeyri-mümkündür. Onlar bir-birlərinə mehribandırlar və dar ayaqda köməkçidirlər».**

Türk xalqlarının Mərkəzi Asiyada dövlətçilik ənənəsinin tarixi hunlarla başlanır. E.ə. VI–V əsrlərdə Çin ilə həmsərhəd ərazilərdə yaşayan türk tayfaları, o cümlədən hunlar Çinə qarşı mübarizəyə başladılar. Bu mübarizə Çinin bu tayfaları əsarət

altına almaq cəhdlərinə qarşı çevrilmişdi. Hun dövləti e.ə. III əsrin 20-ci illərində yaranmışdı. Bu dövlətin yaranması Tümən xanın adı ilə bağlıdır. Tümən xan e.ə. 220–209-cu illər arasında hakimiyyətdə olmuş, ayrı yaşayan türk tayfalarını öz bayrağı altına toplamış, Çinin bəzi bölgələrini və digər qonşu bölgələri də hakimiyyəti altına almışdır. Çinlilər ardı-arası kəsilməyən Hun hücumlarını dayandırmaq üçün bu gün Çin səddi kimi tanınan minlərlə kilometr uzunluqda böyük qala-divar çəkməyə o zaman başladılar. Tümən xan Çinlə müharibəyə başlayaraq Ordos əyalətini işğal etdi, çünki bu əyalət qədim türk ərazisi idi və Çin onu işğal etmişdi. Çin Tümən xanın hələ kifayət qədər güvvətli olmayan dövlətini hər vasitə ilə məhv etməyə çalışırdı.

Mənbələrin verdiyi məlumatlara görə bu dövlətin ərazisi Avrasiyanın bir hissəsini təşkil edən Böyük Səhra, Çin sərhədlərindən başlayaraq Karpat dağlarına qədər uzanaraq şimalda Sibir, cənubda isə Qobi səhrasının cənub sərhədləri və Tyan-Şanın şimal zirvələrinə qədər, qərbdə isə Xəzər dənizinə qədər uzanırdı. Hunların tarixinin tədqiqinə maraq XVIII əsrin ortalarında başlamışdır. V. Bartold, L. Qumilyov, B. Ögəl, Y. Cəfərov və başqaları hunların tarixini öyrənməyə çalışmışlar.

E.ə. III əsrin sonunda hunların iqtisadi və siyasi vəziyyəti pisləşdi. Belə ki, qərbdən hücuma keçən soqdalılar, geniş ərazilər ələ keçirərək hunlarla toqquşdular. E.ə. 214-cü ildə Çin hunlara qarşı silahlı qüvvə yeridərək hunlara məxsus otlaqları və meşəlikləri ələ keçirə bildi. Onlar bu yerlərdə yaşayış məskənləri salaraq məskunlaşmışdılar. Hunlar geri çəkilməyə məcbur oldular. Çin dövləti şimaldan gələn böyük təhlükələrə qarşı mübarizə aparmışdır. Bu məqsədlə sədlər çəkmiş, müdafiə istehkamları yaratmışlar. Lakin Tümən xanın dövləti bu illərdə cənub və şərq qonşularının aramsız hücumları nəticəsində zəifləmişdi. Tümən xanın başçılığı ilə hunlar daha böyük qüvvə toplamaq üçün hazırlıq işləri görməyə başlamışlar. Döyüşlərdə məğlub olan Tümən xan oğlu Meteni Yuecilərə girov verməli oldu. Bu vaxt Çində üsyanların baş

verməsi hunların vəziyyətini xeyli yüngülləşdirdi. Çin yenidən hunların hücumuna məruz qaldı.

## 2. Hun dövlətinin ərazisinin genişlənməsi. Mete xan

Metenin yuecilərin əlində girov olduğu bir vaxtda Tümən xan onlara qarşı hücuma keçdi. Lakin Mete yuecilərin əlindən qaçdı və atasının yanına dönməyi bacardı. Onda atası onu ovdan dönən zaman öldürməyi planlaşdırdı. Atasının bu planından xəbər tutan Mete ehtiyatlı davrandı və atasını öldürdü. Tümən xan onu vəliəhd kimi görmək istəməsə də **Mete hunların başçısı oldu.**



Metenin hakimiyyəti zamanında Hun dövləti Asiyanın ən böyük imperatorluğu halına gəldi və ən parlaq dövrünü yaşadı. Mete şərq sərhədlərindəki dağlı tayfaları dağıtdı. Çinin şimalındakı türkləri qərbə köçürtdü. Çinə hücum edərək şimal ərazilərini öz ölkəsinə qatdı. Bir çox türk tayfalarını hakimiyyəti altına alaraq ərazisini xeyli genişləndirdi. Çinlilərin işi-gücü özləri üçün böyük bir təhlükə olan bu Hun imperiyasını parçalamaq üçün yollar axtarmaq olmuşdur.

Türk dünyasının tarixində mühüm yeri olan bu türk birliyini yaratdıqdan sonra Mete xan hunları iqtisadi baxımdan gücləndirmək üçün Şərqi Qərbə bağlayan İpək yolu uğrunda mübarizəyə başladı. Nəticədə, qısa bir zamanda Xəzər dənizinə qədər olan ərazini itaəti altına aldı. Türkləri bir bayraq altında birləşdirən Mete xan böyük müvəffəqiyyətlər əldə etdi.

E.ə. 202-ci ildə Çində vətəndaş müharibəsi başladı. Mete xan e.ə. 201-ci ildə Hun dövlətinin güclü ordusu ilə Çinə hücum etdi. Çinlilər sayca hunlardan çox olsalar da, bir nəticə əldə edə bilmədilər. **E.ə. 198-ci ildə Hun–Çin müqaviləsi bağlandı.** Çin vergi verməli oldu. E.ə. 195-ci ildə Çin imperatoru Lyu Van vəfat etdi. Varis kimi oğlu balaca olduğundan, ölkəni onun anası Lyu Xou idarə etməli oldu. E.ə. 192-ci ildə Mete xan Lyu Xouya evlənməyi təklif etdi. Bu, Çini dinc yolla Hun imperiyası ilə birləşdirmək cəhdi demək idi. Çin imperatoru bərk qəzəblənir və o, yaşlı olduğunu əsas gətirərək rədd cavabı verdi.

E.ə. 191-ci ildən 187-ci ilədək Mete xan Qərb vilayətlərini – Yeddisuyu, Şərqi Türküstanı tutmaq üçün mübarizəyə başladı. Bu böyük qələbədən sonra Mete xan qərb vilayətlərini tabe edə bildi.

Çin imperatoru Van-di Hun dövlətinin Xan imperiyasına bərabər olduğunu qəbul etdi. Hunlar üçün bu, böyük uğur idi. İndiyədək heç bir köçəri tayfa başçısı Xan imperatoru ilə bərabər olmaq arzusuna düşməmişdi. E.ə. 177-ci ildə hunlara yueci türk tayfalarını məğlub etmək müyəssər oldu. Bu qələbə

sayəsində hunlar Şərqi Türküstanın bütün tayfalarını Hun dövlətinə birləşdirdilər. E.ə. 176-cı ildə Mete xan Çinə qarşı yeni hərbi səfər təşkil etdi. Çinin Xan sülaləsindən birdəfəlik vergi alındıqdan sonra sülh müqaviləsi bağlandı. Çin hər il Hun dövlətinə əkinçilik məhsulları və ipək parça verməyi öhdəsinə götürdü.

Beləliklə, Metenin ağlı və enerjisi olmasaydı, hunlar öz güclərini qəbilə çəkişmələrinə, pərakəndə qarətlərə, qonşularla məhvedici müharibələrə sərf edərək tükəndirər, nəticədə öz torpaqları işğal altına düşərdi. Mete xan dövlət quruculuğu, iqtisadi, hərbi sahədə o dövr üçün çox vacib, mütərəqqi islahatlar həyata keçirmişdir. Mete xanın hakimiyyəti illərində ayrı-ayrı tayfalar, ən bacarıqlı və böyük nüfuza malik olan tayfa başçıları tərəfindən idarə olunurdu. Tayfa başçıları mütləq hakim hesab olunurdular. Mühüm dövlət işləri tayfa başçıları ilə birlikdə həll olunurdu. Mete xan dövlət daxilində siyasi sabitliyi qorumaq, sui-qəsd hallarının qarşısını almaq məqsədilə dövlət aparatına bacarıqlı, sədaqətli adamların cəlb olunmasına nail olmuşdu.

Mete xan ordunun möhkəmləndirilməsi üçün də bir sıra tədbirlər görmüşdü. Orduda çox ciddi intizam mövcud idi. Onun süvari dəstələri adi bir işarə ilə bir-birini başa düşür, verilən əmrləri dərhal icra edirdilər. Ordunun əsas silahı ox-yaydan ibarət idi. Dövlət idarəçiliyindən fərqli olaraq ordu başçıları qan qohumluğu prinsipi ilə deyil, adamların yalnız qabiliyyətlərinə və bacarıqlarına görə seçilirdilər. Andını pozan, satqınlıq edən, şayiə yayan adamlar edam olunurdular. Mete xanın xarici siyasətində əsas xətt yalnız dövlətin maraqları idi. Mete xanın apardığı islahatlar hunları bir araya gətirdi və onların Asiyanın ən güclü dövlətinə çevrilməsinə kömək etdi. Mete xan e.ə. 174-cü ildə vəfat etdi. Mete xandan qalmış siyasət və hərb sənəti hələ uzun müddət və uğurla türklərə xidmət etdi. Hun imperiyasının yaranması və əzəmətli dövrlərindən biri böyük sərkərdə Mete xanın adı ilə bağlıdır.

Mete xandan sonra hakimiyyət başına oğlu Kiyok gəldi. O, atasının siyasətini davam etdirərək Qərb ölkələrinə və habelə Çin sərhədlərinə böyük diqqət verirdi. Kiyok xan ilk növbədə yuecilərin üzərinə yürüş etmiş, onları məğlub edərək hökmdarını öldürmüşdü. E.ə. 166-cı ildə Kiyok xan Çinə hücum etdi, o, çoxlu əsir və qənimət ələ keçirdi. İmperatorun yay iqamətgahını yandırdı və bütün şərq sərhədlərini qarət edərək ölkəni tərk elədi. Hunların bu yürüşü Çin sarayında böyük vahimə yaratdı. E.ə. 162-ci ildə imperator Van-di sülh istədi. Çin üçün bu rüsvayçı bir sülh idi. Çin hər il Hun imperiyasına «məlum miqdarda düyü, ipək, pambıq parça və digər mallar göndərməyi» öz öhdəsinə götürürdü.

E.ə. 161-ci ildə Kiyok xan vəfat etdi və oğlu Gün Tanhu hakimiyyət başına gəldi. Hunların Çinlə bağladıqları müqavilələrə baxmayaraq, hunlar Çinin sərhədlərinə tez-tez hücum edir, şəhər və kəndləri talayırdılar. Lakin Çin tərəfi hunlara hərbi yolla cavab verməyə cəsarət etmirdi. Gün Tanhu Çin imperatoru ilə danışıqlara başladı. Bu danışıqlar heç bir nəticə vermədi. Beləliklə, e.ə. 158-ci ildə hunlarla çinlilər arasında müharibə başladı. Hunlar Çin ərazisinə daxil oldular. Çin tərəfi bu hücumun qarşısını ala bilmədi**. E.ə. 152-ci ildə tərəflər arasında sülh müqaviləsi bağlandı.** Müqaviləyə əsasən sərhədyanı bazarlar sərbəst alış-veriş üçün açıldı. Hunlar Çinin sərhəd bölgələrində sərbəst şəkildə ticarət edə bilərdilər. Bundan əlavə Çin şahzadəsi böyük hədiyyələrlə Tanhuya ərə verildi. Bununla belə, onların süvari dəstələri Çin ərazilərinə cəsarətli hücumlarını davam etdirirdilər. E.ə. 148-ci ildə hunların Çin üzərinə hücumları başladı. Bütün Çin sərhədi hücum hədəfinə çevrilmişdi. Bu zaman Çin taxtına imperator U-di əyləşdi. Hakimiyyətə gələn kimi o, hunlarla müharibəyə hazırlaşmağa başladı. Əvvəlcə o, hiylə işlətmək, Tanhunun etibarını qazanmış çinli casusun vasitəsilə hunları pusquya salmaq istədi. Lakin hunlar imperatorun hiyləsini başa düşmüşdülər. Onda imperator yuecilərі Çin qoşunları ilə eyni

vaxtda hunlara hücum etməyə razı salmalı idi. Hunlar bundan xəbər tutdular və Çinin şimal əyalətlərinə soxuldular, bütün ətrafı qarət edərək adamları əsir apardılar. **E.ə. 135-ci ildə Çinlə sülh bağlandı.** Lakin bu sülhün ömrü də çox olmadı. E.ə. 126-cı ildə Metenin nəvəsi GünTanhu vəfat etdi. O, babasının yaratdığı dövlətin ləyaqətini əldən vermədi və özündən güclü düşmənlə altıillik müharibəyə tab gətirdi. Sonrakı dövrlərdə Hun dövlətində vəziyyət bir qədər sabitləsə də, Çin onu hər vasitə ilə məhv etməyə çalışırdı.

### 3. Hun imperiyasının parçalanması. Hunların qərbə axını

E.ə. II əsrin sonlarında hunlar içərisində hakimiyyət uğrunda mübarizə başlandı. Hun dövləti daxilində narazılıqların artmasından istifadə edən Çin dövləti hunları qərbə doğru sıxışdırmış və beləliklə Qansu bölgəsi çinlilərin əlinə keçmişdir. E.ə. I əsrin əvvəllərində hunlarla aparılan döyüşlərdə təşəbbüs çinlilərə məxsus idi. Hun dövləti Çinlə sülh bağlamağa çalışırdı. Belə ki, Çinlə aparılan müharibələr, ölkə daxili çəkişmələr, hakimiyyət uğrunda gedən mübarizələr Hun dövlətinin zəifləməsinə səbəb oldu. Anası çinli olan HoxanyəhTanhu çinlilərdən yardım istəməklə kifayətlənməyib onların himayəsini də istədi. Bunu bilən və anası türk olan Çiçi Hoxanyəhə qarşı çıxdı, onun hakimiyyətini tanımadı**. E.ə. 58-ci ildə Hun dövləti iki yerə parçalandı.** Cənub-şərqi hunlar Çinə tabe oldu. Şimal hunları isə Orxon çayı sahillərinə çəkildilər. Bundan istifadə edən Çin dövləti İpək yolu üzərində nəzarəti ələ keçirməyə çalışdı.

Eramızın 49-cu ilinədək Böyük Hun imperiyasına daxil olmuş tayfalar Çinə qarşı hunlarla birlikdə vuruşurdular. Elə ki, hunların bir hissəsi Çinə xidmət etməyə başladı, bu tayfaların hunlara münasibəti dəyişdi. Onlar tədricən Çinlə dostluq əlaqələri qurdular və hunlara qarşı döyüş əməliyyatlarında iştirak etdilər. Bununla belə Bi başda olmaqla cənub hunlarının

işi yaxşı getmirdi, asılılıq statusu isə onlar üçün alçaldıcı bir durum yaradırdı. 50-ci ildə Şimal və Cənub hunları arasında toqquşma baş verdi. Cənub hunları məğlub olaraq geri çəkildilər. Nəticədə Bi Çindən hərbi yardım almağa məcbur oldu ki, bu da xalqın gözündə onun nüfuzunu daha da aşağı saldı.

Çinin düşmənləri şimal hunları Çinə münasibətdə köçərilərin ənənəvi siyasətinə sadiq qalmağa çalışırdılar. 51, 52 və 55-ci illərdə Çinlə sülh müqaviləsi bağlamağa çalışdılar, lakin imperator sarayı sülh təkliflərini sükutla qarşıladı. Hunlar taktikanı dəyişmək məcburiyyətində qaldı. 60-cı illərdə Şimal hunları yenidən Çin üzərinə yürüşlərə başlayır. Yürüşlər öz nəticəsini verdi.

**63-cü ildə Çin tərəfi Şimal hunları ilə rəsmi müqavilə bağlamağa,** o cümlədən sərhədyanı bazarların açılmasına razılaşmalı oldu. Şimal hunlarının başçısının Çin tərəfindən rəsmən qəbul edilməsi onun nüfuzunu xeyli artırdı. Hücumlar və qarətlər davam etməkdə idi. Yalnız 70-ci illərin sonlarında vəziyyət dəyişdi. Bu dövrdə Şimal hunları da zəiflədi, müttəfiqləri onlardan ayrıldı. 83-cü ildə Çin Şimali hunlarla müharibəyə başladı. Müharibə üç il çəkdi. Çin Şimali hunları məğlubiyyətə uğratdı. Şimali hunların məğlubiyyəti hunların bir qismini Çinə köçməyə təşviq etdi. 89-cu ildə Çin ordusu Cənub hunlarla birlikdə Şimal hunları üzərinə hücuma keçdi və Şimal hunlarının ordusu darmadağın edildi. Zəifləmiş Şimal dövlətinə sonuncu zərbəni Çin tərəfi 91-ci ildə vurdu. Hun torpaqlarında syanbilər yerləşməyə başladı. Mərkəzi Asiyada syanbilərin hökmranlığı başlandı. Çox keçmədi hunlar qərb istiqamətində hərəkətə keçdilər. 160-cı ildə ilk dəfə olaraq yunan müəllifi **Dionisi Periyeget Şimali Qafqazda** hunların yaşadığını yazmışdır. Çində Xan sülaləsinin hakimiyyətinin sonlarına yaxın syanbilər tərəfindən sıxışdırılmış Cənub hunları Çinin içərilərinə doğru çəkildilər. Cənubi hunlar Çin imperiyasını yardımçı ordularla təmin edirdi. Bununla da II

əsrin ortalarında Cənub hunları Çinin tərkibində öz dövlətçilik ənənələrini itirdilər və çinlilərlə qarışdılar. Şimali hunların bir hissəsi Yeddisuyu ələ keçirərək orada məskunlaşdılar, qərb istiqamətində hərəkəti davam etdirən hunlar Volqa və Aşağı Don çayı sahillərinə gəlib çıxdılar. Şimali Qafqaza hunlarla birlikdə barsilər, xəzərlər və başqa türk tayfaları da axışıb gəldilər. Mənbələrin verdiyi məlumatlara görə, hunlar Dağıstan ərazisində məskunlaşmış və bu yerləri Barsiliya adlandırmışlar. Sonrakı illərdə hunlar Cənub-Şərqi Avropada məskunlaşmağa başladılar.

# QƏRBİ HUN İMPERİYASI

## 1.Hunların Krım və Dunayətrafı ərazilərə yürüşü. Qərbi Hun dövlətinin yaranması

Şimali Hun dövlətinin dağılmasından sonra hunların bir hissəsi Cənub hunlarına qatılmış, böyük bir hissəsi isə qərbə doğru köç etmişlər. Onlar Xəzər dənizinin şimalına gələrək Volqa çayı ilə Ural ətrafı ərazilərdə yerləşmişlər. Bu hadisələr nəticəsində hunların siyasi həyatlarının mərkəzi Qərbə doğru çəkilmiş olurdu.

IV əsrin 70-ci illərində Şərqi Avropada hunların tarixdə yeni bir dövləti yarandı. Balamirin başçılığı altında Don çayını keçən hunlar yollarının üzərindəki bütün tayfaları öz hakimiyyətləri altına aldılar. İlk növbədə hunlar 370-ci ildə alanları məğlub etdilər. Azov ətrafı əraziləri və Kubanı ələ keçirdilər. 371-ci ildə Krım yarımadasına yürüş etdilər və Şərqi qot tayfasının hərbi qüvvələrini darmadağın etdilər. Şərqi qotların bir hissəsi hunlara tabe oldu, qalanları isə Qərbi qotların yanına qaçdılar. Hunların Krımı işğal etməsi ilə Krım və Qara dənizin şimal sahillərindəki qədim şəhərlər süqut etdi.

Qotlar 375-ci ildə hunlara qarşı çıxmağa təşəbbüs etdilər, lakin Balamirin başçılıq etdiyi Hun ordusu ilə döyüşdə məğlub oldular. Hunlar Şərqi qotların ərazisini işğal etdilər. Hunlar Şərqi qotları qovaraq Dnestr çayının sahillərinə çatdılar. Qərbi qotların başçısı Atanarix Dnestr çayı sahilində güclü düşərgə yaratmışdı. Buna baxmayaraq hunlar Qərbi qotlara qarşı hücuma keçdilər. Qotların bir hissəsi qırıldı, qalanları isə Atanarix başda olmaqla Roma imperiyasına sığındılar.

Qərbi qotlar öz idarəçilik qaydalarını və adətlərini saxladılar. Onlar sərhədlərin qorunması sahəsində hərbi xidmət göstərməli idilər. Lakin Roma hakim dairələri, vədlərinin əksinə olaraq, onları ərzaqla təmin etmədilər. Aclıq, romalıların zorakılığı və zülmü nəticəsində Qərbi qotlar üsyana qalxdılar.

Başqa qədim alman tayfalarından olan dəstələr də onlarla birləşdi. 378-ci ildə qotlar Roma ordusunu məğlub etdilər. 382-ci ildə Roma imperatoru Feodosi üsyanı yatırdı və qotların Roma imperiyası ərazisində məskunlaşmalarına icazə verdi. Qərbi qotların Romaya qarşı hərbi əməliyyatları bir sıra illər ərzində tez-tez ittifaq haqqında sazişlərlə əvəz olunurdu. Hunlar qərbə çəkilən tayfaların birləşib güclənmələrinə, Romanın hunlar üzərində hakimiyyət qurmasına mane olmaq üçün hücumlarını davam etdirirdilər.

400-cü ildə hunlar Dunay ətrafı bölgələrdə məskunlaşdılar. Bu dövrdə Bizansa qarşı üsyan etmiş qotlar məğlub olaraq Dunaya doğru geri çəkildilər. Onlar geri çəkilərkən hunlarla rastlaşaraq tamamilə darmadağın edildilər. Bununla da Cənub-Şərqi Avropanın Volqadan Dunaya qədər olan hissəsi hunlar tərəfindən işğal edilmiş oldu.

**Ulduz xanın dövründə** hunlar Bizansa təzyiqi gücləndirdilər. Ulduz xan 404–409-cu illər ərzində bir neçə dəfə Bizans üzərinə yürüş etdi. 409-cu ildə Bizans tərəfi məğlub oldu və öz nümayəndəsini Ulduz xanın yanına göndərərək sülh istədilər. Ulduz xan onların təklifini qəbul etmədi. 410-cu ildə Ulduz xan öldü və yerinə **Qaradon** keçdi. Qaradon ölkənin şərq vilayətləri ilə daha çox maraqlanırdı. Çünki Hun dövlətinin təhlükəsizliyini təmin etmək üçün ciddi tədbirlər görmək tələb olunurdu.

**415-ci ildə hakimiyyətə gələn Muncuq xan** qardaşları ilə birlikdə ölkəni idarə etməyə başladı. Onun ölümündən sonra oğlu Atilla kiçik olduğundan, xaqanlığı əmisı Rua idarə etməyə başladı. Rua Atillanın tərbiyəsi ilə məşğul olur, onun sərkərdə və dövlət başçısı kimi yetişməsinə çalışırdı. Rua Bizansa daha çox diqqət verməyə başladı. Bizans dövləti hunlara müqavimət göstərə bilmədiklərindən, hunların ərazisinə təxribatçı dəstələr göndərir, Hun dövləti daxilində narazılıq yaratmaq istəyirdi.

Bütün bunları nəzərə alan Rua 422-ci ildə Bizans üzərinə yürüş etdi. Bizans müqavimət göstərməyərək sülh bağlamağa,

hər il hunlara vergi verməyə hazır olduğunu bildirdi. Əldə olunmuş razılığa əsasən Bizans tərəfi hər il 550 librə qızıl ödəməli idi. 430-cu ildə hunlar Ruanın başçılığı ilə Reyn çayını keçərək Qərbi Roma imperiyasına hücum etdilər və çoxlu qənimət ələ keçirərək geri qayıtdılar.

## 2. Qərbi Hun imperiyası Atillanın hakimiyyəti dövründə

Dünya tarixində əhəmiyyətli yerləri olan Hun türkləri Dunay çayını keçərək bir tərəfdən Bizans üzərinə hücum etmiş, digər tərəfdən isə Qərbi Avropada Reyn çayı boyu irəliləmişlər. **434-cü ildə hakimiyyətə gələn Atilla** əsas diqqətini ordunun gücləndirilməsinə yönəltdi. Əsgərlərinin sayını artırdı. Ordunun əsasını Hun süvariləri təşkil edirdilər.



O, əmisi Ruanın bir müddət sağ əli olaraq təcrübə qazandığı üçün dövlətin idarəsini, hunların daxili və xarici siyasətini çox yaxşı öyrənmişdi. Əmisi ilə bütün səfərlərə qatılmış, hakimiyyət altında saxlanan tayfaları yaxından tanımışdı. O, ilk olaraq cənub qonşusu Bizansa qarşı müharibəyə başladı. Atilla Bizans sərhədlərini keçdi və Bizans şəhərlərini işğal etməyə başladı.

Yaranmış çətin vəziyyət qarşısında Bizans imperatoru Atillaya sülh təklif etdi. Sülh təklifi ilə razılaşan Attila geri

çəkildi. 434-cü ildə tərəflər arasında **Konstans sülhü** bağlandı. Sülhün şərtlərinə görə Bizans Atillaya illik vergi verməli, orada qaçaq olaraq yaşayan hunları geri qaytarmalı, yaxud onların hər biri üçün qızıl pul ödəməli idi. Bizans Hun dövləti daxilində yaşayan xalqlarla əlaqə saxlamayacaq və anlaşma bağlamayacaqdı. Tərəflər sərhəddə bərabərhüquqlu ticarət edə bilərdi. Bu müqavilə Atillanın ilk böyük müqavilələrindən sayılır. Atilla bu qələbəni hakimiyyətinin ilk ilində əldə etmişdi. Eyni zamanda bu sülh müqaviləsi hunları çox sevindirdi, çünki Atilla bütün istəklərini Bizans tərəfinə qəbul etdirmişdi. Atillanın dövründə imperiyanın ərazisi şərqdə Volqa çayından qərbdə Reyn çayına, cənubda Balkan yarımadasından şimalda Baltik dənizi sahillərinə qədər uzanırdı.

Atillanın at çapmaqda və ox atmaqda tayı-bərabəri yox idi. Döyüşdə çox qorxmaz olduğuna görə döyüşçüləri onu çox istəyirdilər. Düşmənlərə qarşı çox amansız olan Atilla öz döyüşçüləri ilə çox mülayim davranırdı. Atilla eyni zamanda bacarıqlı dövlət başçısı, diplomat idi.



Müxtəlif dillərdə danışan tayfalar Hun dövlətinə daxil idi və onlar vergi verir, ordularını Atillanın əmrində saxlayırdılar. Atillanın sarayında təmsilçiləri vardı və türk dilini bilməyənlərə göstərişlər öz dillərində verilirdi.

Bizans dövləti hər vasitə ilə hunları zəiflətməyə çalışırdı. Müqavilədə nəzərdə tutulmuş illik vergini azaltmağa başladı və Hun dövlətindən qaçanlara sığınacaq verir, onları himayə edirdi. Buna görə də Atilla 447-ci ildə yenidən Bizans üzərinə yürüş etdi. Dunay çayını keçərək çox böyük nailiyyətlər əldə etdi, yol boyu bütün şəhər və kəndlər dağıdıldı. Hun qoşunları Konstantinopol yaxınlığına qədər irəlilədi. Konstantinopolda xalq çox həyəcan və qorxu içərisində idi. Onlar Hun süvarilərindən çox qorxurdular və imperatordan Atilla ilə sülh bağlamasını istədilər. Bizans imperatoru ölkəni xilas etmək üçün Atillanın yanına elçi göndərdi. O, Atillanın tələb etdiyi bütün şərtlərə əməl edəcəyini bildirdi. Atilla sülh təklifini qəbul etdi.

Sülh şərtlərinə görə Bizans Dunay çayının cənub sahillərini hunlara verməyi, bu yerlərdə ticarət üçün şərait yaratmağı, Dunay çayının cənubuna yaxın ərazilərdə silahlı qüvvə saxlamamağı öz üzərinə götürdü. Eyni zamanda Bizans qaçqınları geri qaytarmağa, hunların tabeliyində olan tayfalar arasında təxribatla məşğul olmamağa razı oldu və illik verginin vaxtlı-vaxtında ödənəcəyini bildirdi. Sülhün şərtləri Bizans dövləti üçün çox ağır idi. Buna görə Bizans dövləti sui-qəsd təşkil edərək Atillanı öldürməyə qərar verdi.

448-ci ildə Konstantinopola gələn Atillanın elçilik heyətinə geri dönərkən Bizans elçilik heyəti də qatıldı və birlikdə yola çıxdılar. Bizans nümayəndə heyətinə Atillanı öldürmək tapşırığı verilmişdi. Atillanın öldürülməsi tapşırığını hiss edən türk elçisi olanları hökmdarına anlatdı. Atilla elçiləri yaxşı qarşıladı və onlara hazırlanmış sui-qəsdi etiraf etdirdi. Bizans sarayı qorxu və həyəcan içində qaldı. Atilla sui-qəsd

iştirakçılarını cəzalandırmadı, əvəzində Bizans tərəfindən əlavə qızıl pul tələb etdi.

Sonrakı illərdə Bizans dövləti ilə münasibətlər sahmana salındı, çünki Atilla bu dəfə Qərbi Roma imperiyasına qarşı müharibəyə hazırlaşırdı. Atillanın ordusu Qalliyaya doğru hərəkət etdi. 451-ci ildə tərəflər arasında Katalaun çölündə döyüş baş verdi. Roma qoşunları geri çəkilməyə məcbur oldular. Atilla geri çəkilən Roma ordusunu təqib etmədi. Atilla öz qüvvələri ilə əvvəlki mövqelərinə qayıtdı və yeni döyüşə hazırlıq məqsədilə ordusuna istirahət verdi. Atilla istəyinə çatmışdı, Qalliyanı işğal etməklə Roma imperiyasını güclü dayağından məhrum etmişdi. Bundan sonra ilk hücumla bütün Romanı tam çökdürəcəyi şübhəsiz idi.

Nəhayət, Atilla 452-ci ilin yazında böyük bir ordu ilə Romaya doğru hərəkət etdi. Atillanın böyük bir ordu ilə Roma istiqamətində hərəkəti avropalıları narahat etdi. Atilla qarşısına çıxan Roma ordusunu dağıtdı və Romanın qarşısında dayandı.

**Tarixçilər papa I Leonun** Atillanı qarşıladığını və ona yalvarıb-yaxardığını yazırlar. Papa I Leon bütün xristianlar adından Romaya girməməyi və şəhəri dağıtmamağı Atilladan xahiş etdi. Atilla papanın diz çöküb yalvarışını qəbul edərək onun xahişlərinə əməl edəcəyini bildirdi. Atilla Bizans kimi Qərbi Roma imperiyasını da illik vergi verməyə məcbur etdi və geri qayıtdı. Bu qələbədən sonra Atillanın şöhrəti artdı. 453-cü ildə dünya tarixində böyük rol oynayan Attila vəfat etdi. Attilanın ölümündən sonra onun imperiyası tədricən zəiflədi.

### 3. Attilanın ölümü və imperiyanın dağılması

Atillanın ölümündən sonra imperiyaya daxil olan xalqlar mərkəzi hakimiyyətdən uzaqlaşmağa, müstəqilliyə can atmağa başladılar. Hun imperiyası Atillanın oğlanları arasında bölündü. Qotlar hunlara qarşı mübarizəyə başladılar. Bu mübarizədə Hun imperiyasından narazı olan bütün qüvvələr

iştirak edirdi. Döyüşlərin birində Atillanın oğlu Ellak Sava çayı sahilində həlak oldu. Bundan sonra hunlar geri çəkildilər. Bizans imperiyası da Hun dövlətinə qarşı siyasətini dəyişdi. Lakin bununla belə Bizans dövləti hunlarla ehtiyatlı davranırdı. 468-ci ildə Atillanın oğlu Dengizik Bizansla ticarət müqaviləsi bağladı. Lakin Bizans dövləti müqavilənin şərtlərinə əməl etmədi. Hun dövləti Bizans dövlətinə qarşı müharibəyə başladı. Bizans dövləti qotların və digər Avropa xalqlarının birləşmiş qüvvələri ilə birlikdə Hun dövlətinin qarşısına çıxdı. 469-cu ildə baş vermiş döyüşdə Dengizik öldürüldü. Hun döyüşçüləri döyüş meydanını tərk edərək geri döndülər.

Qərbi Hun imperiyası süqut etsə də hunların tərkibində olan türk tayfalarının Cənub-Şərqi Avropada yeni dövlətləri yarandı.

Hunların ictimai inkişaf səviyyəsi bu dövr üçün xeyli yüksəlmişdi. İctimai təbəqələşmə güclənmiş, başlıca olaraq ev təsərrüfatında istifadə olunan qullar meydana gəlmişdi. Lakin əsas hissəsi köçəri olaraq qalan hunlar başlıca olaraq mal-qara üçün örüşə və hərbi qənimətə ehtiyac hiss edir və buna görə də öz işğallarını davam etdirirdilər. Bu zaman onlar bütöv kəndləri və şəhərləri məhv edir, əsarət altına alınmış əhalidən vergi alırdılar.

Hunlarda hər bir məsələ yığıncaqlarda həll olunur və qərar qəbul edilirdi. Hunlar özlərinə lazım olan taxıl və başqa məhsulları həm düşmən şəhərlərini almaqla, həm də maldarlıq məhsulları ilə əldə edirdilər. Arxeoloji mənbələr göstərir ki, onların böyük mal-qara sürüləri və at ilxıları var idi. Türk xalqlarının tarixində hunların tarixi mühüm mərhələ təşkil edir. Hunlar türk xalqlarının etnogenez proseslərində mühüm rol oynamışlar. Nəhayət, onların qərbə hərəkəti nəticəsində türk xalqlarının geniş bir ərazidə yayılması təmin olunmuşdur.

# AĞ HUN İMPERİYASI

## 1.Ağ Hun dövlətinin yaranması

Böyük Hun imperiyası dağıldıqdan sonra türklərin bir hissəsi qərbə, bir hissəsi isə cənuba çəkilmişdir. Cənuba çəkilmiş türklər Qərbi Türküstan bölgəsinə gələrək burada Ağ Hun dövlətini qurdular. Ağ Hun dövləti onun hökmdarlarının adları ilə Eftallar və ya Kidarlar dövləti də adlanırdı. Lakin bu dövlətə aid pul üzərində «Xion» kimi oxunan xun sözü vardır ki, bu da dövlətin hunlara mənsubiyyətini göstərir. Fransız arxeoloqu R. Qirşman həmin dövlətə məxsus pul üzərində «Xion çarı Eftal» sözünü oxuduğuna görə, bu tayfa birləşməsinin xion adlandığını, Eftal isə hökmdarlarının adı olduğunu bildirmişdir. Eftalın adını almış bu tayfa **«abdal»** adı ilə Orta Asiya türklərinin etnogenezində iştirak etmişdir.

Yazılı mənbələrdə «Xion» etnonimi ilk dəfə olaraq IV əsrdə qeyd olunur. Ammian Marsellin yazır ki, 356-cı ildə xionların çarı Qrumbat öz oğlu ilə İran sasanilər dövlətinin şahı II Şapurun düşərgəsində müttəfiq kimi iştirak etmişdir.

**Deməli, Ağ Hun dövləti hunların tarixdə məlum üç dövlət qurumundan biridir.** Lakin Şərqi Hun və Qərbi Hun dövlətlərindən fərqli olaraq Ağ Hun dövləti oturaq-əkinçi xalqların məskun olduğu bir ərazidə yaranmışdı. Lakin dövləti köçəri hunlar yaratmışlar. Sonrakı dövrlərdə Hun tayfaları həm maldarlıqla məşğul olur, həm də şəhərlərdə oturaq həyat tərzi keçirirdilər.

Bizanslı Prokopi də «hun-eftallar» ifadəsini işlədir və göstərir ki, eftallar mənşəcə hunlardır. Çin mənbələrinə görə eftallar Altayın cənubunda yaşamışlar, onların Orta Asiyaya gəlməsi hunların köçü prosesində baş vermişdir. Dövlətin ərazisi əyalətlərə bölünmüşdü, əyalətlərə bölünmə e.ə. III əsrdə Böyük Hun imperiyasında da mövcud olmuşdur. Hər bir əyalət daxili idarəetmədə müstəqil idi. Lakin tələb olunan vergini

verirdi. Ağ Hunlar sərhədlərini genişləndirərək Şərqi Türküstana və Əfqanıstana da hakim oldular. Hindistanın şimal və şimal-qərb hissəsi də bu dövlətin tərkibinə qatılmışdır. V əsrin II yarısında dövlətin ərazisinin xeyli genişlənməsi nəticəsində Ağ Hun imperiyası yaranmışdı. Ağ Hun imperiyasının tərkibində müxtəlif inkişaf mərhələlərində olan çoxlu tayfalar yaşayırdılar. Onlar hunlara müqavimət göstərə bilməyərək, hunların idarəçiliyini qəbul etmişlər.

## 2. Ağ Hunların qonşularla münasibətləri. İmperiyanın süqutu.

Ağ Hun dövləti köçəri həyat tərzinin tələblərinə uyğun olaraq işğalçılıq müharibələri aparırdı. Orta Asiyanı işğal etmək istəyən Sasanilər dövlətinə qarşı Ağ Hunlar əvvəlcə kuşanlarla birgə hərəkət etdilər. IV əsrin ortalarında Ağ Hunlar Sasanilərlə birlikdə Romaya qarşı çıxış etdilər. Lakin V əsrin əvvəllərindən başlayaraq Ağ Hunlar Sasanilərə qarşı bir neçə müharibə aparmalı olmuşlar. Sasani şahı I Yezdəgirdin hakimiyyəti illərində Ağ Hunlar ölkənin şimal-şərq hissələrinə yürüşlər etmişlər. Onların bu yürüşləri Xorasanın içərilərinə daxil olmalarına gətirib çıxarmışdı. Sasani şahı Bəhram Gur xeyli qoşun toplamış, Ağ Hunları ölkə ərazisindən çıxarmağa nail olmuşdur. Ağ Hunların Sasanilərə qarşı yürüşləri bir müddət ara vermişdir.

Ağsuvar hakimiyyətə gəldikdən sonra İran Sasanilər dövlətinin daxili işlərinə qarışmağa və öz tələblərini qəbul etdirməyə başladı.




Sasani şahı Firuz Ağ Hunlara hər il vergi verirdi. Sasanilər dövlətinin şimal-şərq bölgəsində bir sıra ərazilər Ağ Hunlara verildi. Sasani şahı Firuzun bu addımları atmasına səbəb Ağ Hunların köməkliyi ilə hakimiyyətə gəlməsi idi. Sonrakı illərdə hər iki tərəfin münasibətlərində soyuqluq yarandı. Firuz Ağ Hunların Orta Asiyada apardıqları müharibələrdən narahat olaraq onlara qarşı müharibəyə başladı. Sasanilərin hücumundan xəbər tutan Ağsuvar onların qarşısını almaq üçün tədbirlər gördü. Döyüş zamanı Ağ Hunlar Sasaniləri mühasirəyə ala bildilər. Sasani qoşunları ağır vəziyyətə düşdü. Ağsuvarın yanına Sasani şahı öz elçilərini göndərdi. Şahın elçiləri sülh bağlanmasını xahiş etdilər. Bununla da hərbi əməliyyatlar dayandırıldı. Lakin bir müddətdən sonra hərbi əməliyyatlar yenidən başladı. Bu dəfə Ağsuvar geri çəkildi.

Sasani qoşunları sürətlə hərəkət edərək hunların əvvəlcədən hazırladığı çuxurlara düşdülər. Sasanilər Ağ Hunların irəli sürdüyü tələblərlə sülh bağlamağa məcbur oldular. Bir müddət tərəflər arasında toqquşmalar baş vermədi. Lakin 484-cü ildə Sasanilər şahı Firuz üçüncü dəfə Ağ Hunların üzərinə yürüş etdi. Şahın bu yürüşü müvəffəqiyyətsiz olmuş, özü isə döyüşdə öldürülmüşdür. Bu hadisədən sonra tərəflər arasında sülh bağlandı.

**Sülhün nəticəsi olaraq** Ağ Hunlar Mərv şəhərini ələ keçirdilər və vergi almalı oldular. Ağ Hunların başçısı Günxan Təkin işğalçılıq müharibələrini genişləndirdi, Əfqanıstan, Şərqi Türküstan, Hindistanın şimalı və İranın şərq əraziləri işğal edildi. Ağ Hunlar bununla kifayətlənməyərək öz ərazilərini daha da genişləndirmək üçün hazırlıq işləri görməyə başladılar.

Sasani şahı Qubad Ağ Hunlarla müttəfiqlik siyasətini davam etdirməyə başladı. VI əsrin əvvəllərində Qubad Ağ Hunlarla ittifaqda Bizansla müharibəyə başladı. Sasani ordusunun tərkibində Ağ Hunların qüvvələri qala və şəhərlərin tutulmasında fəal iştirak edirdilər. Qubadın oğlu Xosrov Ənuşiravan da Ağ Hunlarla ehtiyatlı davranırdı. Onlarla toqquşmaqdan çəkinirdi.

Mihiraqulu xanın hakimiyyəti dövründə Ağ Hunların dövləti yenə də güclü olaraq qalırdı. Sasani şahı Xosrov Ənuşiravanın həyata keçirdiyi islahatlar nəticəsində Sasanilər dövləti də gücləndi. Eyni zamanda Türk xaqanlığının yaranması Ağ Hun imperiyasının həm daxili, həm də xarici vəziyyətini mürəkkəbləşdirdi. Ağ Hunlar həm Türk xaqanlığı, həm də Sasani dövləti tərəfindən sıxışdırılmağa başladılar. Türk xaqanlığı Ağ Hun imperiyasına qarşı müharibəyə hazırlaşmağa başladı. Türk xaqanlığı Sasani dövləti ilə Ağ Hunlara qarşı hərbi ittifaq bağladı. VI əsrin ortalarında, yəni 563-cü ildə Türk xaqanlığının ordusu İstəminin başçılığı altında Ağ Hunlarla müharibəyə başladı. Ağ Hunların başçısı Qatafar Türk xaqanlığı ilə müharibədə məğlub oldu. **567-ci**

**ildə Ağ Hun imperiyasının varlığına son qoyuldu, imperiyanın ərazisi Türk xaqanlığı ilə Sasani dövləti arasında bölündü.**

Mənbələrdən aydın olur ki, başqa köçəri türk tayfalarından fərqli olaraq Ağ Hunlar tez oturaq həyata keçmiş və şəhərlərin tikintisində mühüm rol oynamışlar. Baş verən müharibələr isə şəhərlərin iqtisadi həyatına zərbə vururdu. Çünki şəhərlər dağıdılır və qarət olunurdu. Ağ Hunlar ticarətlə də məşğul olurdular. Qədim İpək yolu onların ərazisindən keçirdi. Bu isə onların qonşu ölkələrlə geniş ticarət əlaqələri yaratmasına səbəb olurdu. Ağ Hun dövlətində müxtəlif xalqlar yaşayırdı. Ona görə də əhalinin dini baxışları da müxtəlif idi. Mənbələrdən aydın olur ki, onların arasında ibtidai dinlərlə yanaşı manilik və məzdəkizm ideyaları da geniş yayılmışdı.

# GÖYTÜRK İMPERİYASI

## 1. I Göytürk xaqanlığının yaranması. Xaqanlığın daxili və xarici siyasəti

Hun adı ilə məlum olan imperiyaların dağılmasından sonra, yeni bir türk imperiyasını göytürklər yaratdılar. Tədqiqatlar göstərir ki, xaqanlığı yaratmış qədim türk tayfaları müasir türk xalqlarının təşəkkülündə iştirak etmişlər. Həm də bu dövlət məhz özünü «Türk» adlandıran etnosun tarixdə ilk dövlətidir. Göytürk xaqanlığının yaranması nəticəsində «Türk» etnonimi xaqanlığın ərazisində yaşayan tayfalara da şamil olunmuşdur. V əsrin əvvəllərində bu türklər jujuanların hakimiyyəti altına düşmüşlər.

Göytürklərin ilk başçılarından biri olan Bumın xan xeyli gücləndiyi üçün jujuanlara tabe olmaq istəmirdi. 546-cı ildə Bumın öz ordusuna uyğur döyüşçülərini də əlavə etdi. Belə ki, həmin dövrdə uyğurlar da Bumının rəqibi olan jujuanların başçısı Anaxuana qarşı döyüşürdülər. Bundan sonra Bumın Anaxuana qızını ona ərə verməyi təklif etdi. Təhqiredici cavab müharibənin başlanması üçün bəhanə oldu. Eyni zamanda Bumın teleutlardan kömək ala bildi. Bumın artıq güclü ordu yarada bilmişdi. **552-ci ildə başlarında Bumın xan olmaqla** jujuanlara qarşı mübarizəyə başlayaraq onların hakimiyyətini aradan qaldırmışlar. Mərkəzi Ötükən şəhəri olmaqla güclü bir dövlət qurmuşlar. Qısa bir zamanda genişlənən Göytürk dövləti müxtəlif türk tayfalarını birləşdirərək imperiyaya çevrilmişdir.

Bumin xandan sonra oğlu Muğan xan da sərhədlərini daha çox genişləndirmiş, imperiyanın sərhədləri qərbdə Azov dənizinədək uzanmışdır. Muğan xanın başlıca siyasəti dövləti möhkəmləndirməyə və onun ərazisini genişləndirməyə yönəlmişdi. Hələ Bumın xanın dövründə qardaşı İstəmini qərbdəki türk tayfaları üzərinə göndərilmiş, bunların idarəsini

ona buraxmışdı. İstəmi xan böyük ordu ilə qərbdə dövlətin ərazisini genişləndirməklə məşğul idi.

Asiyada mərkəzləşmiş türk dövlətinin yaranması Çin, Bizans və İran üçün gözlənilməz hadisə idi. Sasani İranı xaqanlıqla diplomatik əlaqələr qurmaq məcburiyyətində qaldı. Bu məqsədlə Sasani şahı İstəmi xanın qızı ilə nigaha daxil oldu. İranla müqaviləni möhkəmlətmək məqsədilə göytürklər Sasani dövlətinə öz nümayəndələrini göndərdilər. Nümayəndələrin yolu həmin dövrdə Ağ Hunlar tərəfindən tutulmuş Mərkəzi Asiyadan keçirdi. Ağ Hunlar karvanı dağıtdılar və nümayəndələri öldürdülər. Muğan xan Ağ Hunlardan qatillərin dərhal təhvil verilməsini tələb etdi. Sərt rədd cavabı müharibənin başlanmasına səbəb oldu.

Uralətrafı əraziləri işğal etdikdən sonra İstəmi ordusunu Orta Asiyaya tərəf yönəltdi və 563-cü ildə Ağ Hunlarla müharibəyə başladı. Bu müharibədə Sasanilər dövləti göytürklərlə dostluq münasibətləri saxlayır, onlarla ittifaqda Ağ Hunlara qarşı vuruşurdular. İstəmi xan başda Qatafar olmaqla Ağ Hunları bir neçə döyüşdə məğlub edərək, onların ərazisinin bir hissəsini işğal edə bildi. Tərəflər arasında həlledici vuruşma 567-ci ildə Buxara yaxınlığında baş verdi. Bu döyüş Ağ Hunların məğlubiyyəti ilə başa çatdı. Göytürk xaqanlığının ərazisi Sasanilər dövlətinin şimal-şərq hissəsinədək uzandı. Beləliklə, Asiyanın əsas ticarət yolları göytürklərin ixtiyarına keçdi. İstəmi xan bütün siyasi və hərbi sahədəki qələbələrini Göytürk xanı Muğanın adı ilə bağlayırdı.

Beləliklə, xaqanlıq təkcə siyasi mənada deyil, həm də iqtisadi cəhətdən güclü dövlətə çevrildi. Belə ki, xaqanlıq «İpək yolu»nu nəzarətə götürdü.

567–571-ci illərdə İstəminin ordusu Şimali Qafqazı, Qara dənizin şimal sahillərini işğal etdi və bu ərazilərdəki türk tayfalarını xaqanlığa tabe etdi. Bununla da xaqanlıq qərbdə Bizans dövləti ilə qonşu oldu. 572-ci ildə Muğan xanın ölümündən sonra onun yerinə qardaşı Tobo xan keçdi. Çin

dövləti yeni xanı təbrik etmək üçün öz nümayəndələrini qiymətli hədiyyələrlə xanın hüzuruna göndərmişdir. Bu geniş əraziyə malik Göytürk xaqanlığının böyük nüfuza sahib olması idi. Sonrakı illərdə Çinlə münasibətlərdə gərginlik yaşanmış və 578-ci ildə Tobo xan Çinə qarşı müharibəyə başlamışdı. Çin dövləti məğlub olmuş və bu məğlubiyyət Çinin şimal əyalətlərinin bir neçəsinin itirilməsi ilə nəticələnmişdi. İstəmi xan isə 576-cı ildə Bizans torpaqlarına hücum etdi, göytürklər bir sıra qələbələr əldə etdilər. Belə bir dövrdə İstəmi xan öldü. Onun yerinə oğlu Tardu xan keçdi. Bu dövrdə xaqanlığın idarə olunması çətinləşmişdi. Tobo xan ölkəni çətinliklə idarə edirdi. Tobo xanın ölümündən sonra xaqanlığın qərb və şərq hissəsi arasında narazılıqlar yarandı. Daxili ziddiyyətlər və hakimiyyət uğrunda çəkişmələr nəticəsində 588-ci ildə birinci Göytürk xaqanlığı parçalandı. Göytürk xaqanlığı yarandığı vaxtdan ölkə iki hissədən ibarət idi. Lakin bu bölgü rəsmiləşdirildi.

## 2. I Göytürk xaqanlığının parçalanması. Şərq və Qərb xaqanlığı

Göytürk xaqanlığı yarandığı vaxtdan iki hissədən ibarət olsa da, xaqanlığın qərb hissəsi şərqə bağlı idi. 588-ci ildə xaqanlıq rəsmən iki hissəyə parçalandı və aralarındakı bağlılıq pozuldu. Göytürk imperiyası şərq və qərb olmaqla ayrı-ayrı iki dövlət halına gəldi. Şərq xaqanlığının başında İşbara xan dururdu. Onun hakimiyyəti dövründə Şərqi Göytürk xaqanlığı gücləndi, bu Qərb xaqanlığı üçün təhlükə yaratdı. Lakin İstəminin oğlanları, başda Tardu xan olmaqla, Şərq xaqanlığına qarşı mübarizə aparırdılar. Çin dövləti isə öz maraqlarını təmin etmək üçün Qərb xaqanlığını dəstəkləyirdi.

Qərbi Göytürk xaqanlığı Şərq xaqanlığına nisbətən daha böyük ərazini əhatə edirdi. Cənub-Şərqi Avropa, Orta Asiyada Sır-Dərya çayına qədər ərazi bu dövlətə məxsus idi. Tardu xan

türklərin birliyini yaratmağa çalışırdı, lakin xaqanlıqlar arasındakı ziddiyyətlər buna imkan vermədi.

VII əsrin əvvəllərində Şərqi Göytürk xaqanlığının siyasi vəziyyəti xeyli ağırlaşdı. Şərq xaqanlığı tez-tez Çinin hücumlarına məruz qalırdı. Şərqi Göytürk xaqanlığı Çinin asılılığını qəbul etdi. 630-cu ildən etibarən isə Şərqi Göytürk xaqanlığının varlığına son qoyuldu. Ona görə də, Göytürk xaqanlığının ənənələrini Qərbi Göytürk xaqanlığı davam etdirməkdə idi. Bu dövrdə Qərbi Göytürk xaqanlığı hələ öz gücünü qoruyub saxlaya bilirdi. Qərb xaqanlığı öz ərazilərini qərbə doğru genişləndirməkdə davam edirdi.

Bu zaman qərbi türklər üçün iki həll olunmamış məsələ qalırdı: avarların tabe edilməsi və İrandan keçən «İpək yolu»nun ələ keçirilməsi. Bu məsələlərin həlli çox çətin idi. Bu məsələlərdə Bizansla müttəfiqlik lazım gəlirdi. 623-cü ildə Bizans imperiyası Xəzərlərə öz nümayəndəsini göndərməklə İrana qarşı döyüşməsini təklif etdi. Bu təklifə müsbət cavab aldı. Həmin dövrdə Xəzərlər Qərbi türk xaqanlığının müttəfiqi hesab olunurdular. Beləliklə, Qərb türkləri Bizans–İran müharibəsinə cəlb olundular. Türklərsiz çətin ki, İrakli öz yürüşünü uğurla başa vura bilərdi. Lakin Qərb türklərinin burada hökmranlığı uzun çəkmədi. Tayfalararası mübarizə ölkədaxili ziddiyyətləri kəskinləşdirdi. Nəticədə Qərb türklərinin şərq istiqamətində geri çəkilmələri baş verdi. Qərb xaqanlığının Şimali Çin üzərinə olan yürüşü uğurlu oldu. Belə ki, Çin dövləti tərəfindən işğal olunmuş bir çox türk torpaqları azad edildi. Bu da Qərb xaqanlığının nüfuzunu artırdı. Qərbi Göytürk xaqanlığının tərkibində çoxlu türk tayfaları – kanq, karluk, tele, türkeş, çıqıl, yağma və başqaları yaşayırdılar. Bu tayfaların hər birinin başında öz başçıları olurdu. VII əsrin ortalarında Çin dövləti bu bəylər arasında narazılıqlar yaratdı. Daxili çəkişmələr üzündən 659-cu ildə Qərbi Göytürk xaqanlığı da dağıldı. Qərbi Göytürk xaqanlığı dağıldıqdan

sonra hakimiyyət əvvəlcə türkeşlərə, sonra isə karluklara keçmişdir.

Şərqi Göytürkləri bir araya gətirən Kutluq Çin dövlətinə qarşı üsyan təşkil edərək istiqlal mübarizəsinə başladı. Kutluq bu mübarizədə Tonyukukun da yardımı ilə türkləri Çin asılılığından qurtardı. 682-ci ildə Kutluq ikinci Göytürk dövlətini yaratdı.

## 3. II Göytürk xaqanlığının yaranması

İkinci Göytürk xaqanlığını yaradan Kutluq türk tayfaları arasında Eltərəs adı ilə adlanmağa başladı. Eltərəs xan Şimali Çinə bir neçə dəfə hücum etdi. Bu yürüşlər nəticəsində Eltərəs xan Çinin əsarəti altında olan türkləri xilas edə bildi. II Göytürk xaqanlığı qısa bir zamanda ərazisini genişləndirmiş, əvvəlki gücünü qazanmış, hətta öz böyüklüyünü və qüdrətini Çinə bildirəcək dərəcədə güclənmişdi. Eltərəs xan dövləti möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü. O, ilk növbədə ordunun gücləndirilməsinə xüsusi diqqət verdi. Çin üzərinə təşkil olunan yürüşlər zamanı əldə olunan qənimətlərin bir hissəsi ordunun təchiz olunmasına sərf olundu. Eltərəs xan tanınmış alim Tonyukuku vəzir vəzifəsinə təyin etdi. Vəzir ordu quruculuğuna, xarici ölkələrlə aparılan diplomatik danışıqlara başçılıq edirdi. Eltərəs xandan sonra Qapağan və Bilgə xan kimi güclü və bacarıqlı hökmdarlar gəldilər. Qapağan xan qardaşı Eltərəsin siyasətini davam etdirdi. Qapağan xan Çində olan türkləri vətənə qaytarmaq, ordunu möhkəmləndirmək, ölkənin iqtisadiyyatını canlandırmaq istəyirdi. Bir çox türk tayfaları, o cümlədən qırğızlar, türkeşlər müstəqilliyə can atırdılar. Qapağan xan bu köçəri türk tayfalarını vahid hakimiyyət altında birləşdirmək üçün mübarizəyə başladı. Qapağan xanın mübarizəsi uğurla nəticələndi, müstəqilliyə can atan tayfaların iradəsi qırıldı. Orta Asiya türkləri vahid bir bayraq altında birləşdirildi.

Bundan sonra Qapağan xan Çin dövləti ilə mübarizə aparmalı oldu. Belə ki, türklərin xeyli hissəsi düşmən hakimiyyəti altında qalmışdı. İlk növbədə onları xilas etmək lazım idi, Qapağan xan da bu işi həll etməyə çalışırdı. 694-cü ildə türklər Çin sərhədinə hücum etdilər, şəhər və kəndləri dağıdaraq geri qayıtdılar. Eyni zamanda Qapağan xan Çin tərəfinə onun təbəəliyini qəbul etməyi təklif etdi. Bu isə II Göytürk dövlətinin mövcudluğunun Çin tərəfindən qəbul olunması demək idi. Bu hücum zamanı Kutluq ilə gedə bilməyən türklər də xaqanlığa aparılmışdır. Türklərin müvəffəqiyyət qazanması Çinə tabe olan bir sıra tayfaların üsyanına səbəb oldu. Üsyançılara qarşı kömək almaq üçün Çin tərəfi türklərin bütün tələblərini qəbul etmək məcburiyyətində qaldı.

Onun Çin dövləti üzərinə olan ilk yürüşü uğurlu oldu. Çin dövləti zəiflədi. Qapağan xan Qərbə yürüş etmək üçün hazırlıq görməyə başladı. Bu işdə ona Eltərəs xanın oğlanları Bilgə və Gültəkin kömək edirdilər. 716-cı ildə Qapağan xan öldürüldü. Hakimiyyətə Qapağan xanın oğlu İnal keçsə də, ölkədə baş verən çəkişmələrin qarşısını ala bilmədi. Gültəkin və Bilgə qardaşlarının birgə səyi ilə İnal hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyətə Gültəkinin tələbi ilə qardaşı Bilgə keçdi. Tonyukuk yenə vəzir oldu. Tezliklə mərkəzi hakimiyyət xeyli möhkəmləndi. Ölkənin iqtisadi və mədəni həyatında böyük canlanma yarandı. Bilgə xan daxili problemləri müvəffəqiyyətlə həll etdi. Türklərin bir çoxu 716-cı ildə hakimiyyət dəyişikliyi zamanı Qapağan xanın məsləhətçilərinin Bilgə xan tərəfindən öldürülməsinə narazılıq edirdilər. Bilgə xan narazı şəxsləri başçılıqdan məhrum etdi. O, bununla da düşmənindən daha çox fəallıq göstərdi, ordusunu gücləndirdi. Bilgə xanın zamanında ordu komandanı olan Gültəkin böyük qələbələri ilə məşhur oldu. Bilgə xan gənc olmasına baxmayaraq, daxildə və xaricdə apardığı müharibələrdə böyük müvəffəqiyyətlər əldə etdi. Bilgə xan Çin

dövləti ilə yaxşı münasibətlər qurmaq istəyirdi. Bu, Tonyukukun da arzusu idi. Lakin türklər arasında qarışıqlıqlar yaratmaq istəyən çinlilər nəzarət altına alındılar. Çin ordusu 720-ci ildə Qansu bölgəsində darmadağın edildi. 725-ci ildə Çin dövlətinin göndərdiyi elçini Bilgə xan qəbul etdi və Çin dövləti ilə sülh bağlanmasına nail oldu. Bilgə xanın qətiyyətli siyasəti sayəsində bağlanmış sülhə demək olar ki, riayət olundu. Tərəflər arasında münasibətlər sahmana salındı.

731-ci ildə Gültəkin öldü. Bilgə xan bu böyük sərkərdənin şərəfinə böyük bir abidə ucaltdı. Çin dövləti ilə aralarındakı münasibətlərin sahmana salınmasına baxmayaraq, Bilgə xan çinlilər tərəfindən zəhərlənmiş və 734-cü ildə vəfat etmişdi. Bütün ömrünü xalqın birliyinə həsr edən Bilgə xana oğlu tərəfindən Orxon çayı vadisində böyük abidə qoyulmuşdu.

### 4. II Göytürk xaqanlığının süqutu. İctimai və sosial həyat

Bilgə xanın ölümündən çox keçmədi ki, hakimiyyət uğrunda mübarizə baş qaldırdı. Yaranmış vəziyyətdən istifadə edən bir çox türk tayfaları mərkəzi hakimiyyətdən uzaqlaşaraq, müstəqilliyə can atırdılar. Bu tayfalar içərisində uyğurlar və karluklar daha fəal idilər. Baş verən daxili qarışıqlıqlar nəticəsində zəifləyən II Göytürk xaqanlığı 744-cü ildə uyğurlar və karlukların hücumu ilə dağıldı. Bu dövləti əsasən üç xaqan məşhurlaşdırdı. Əvvəlcə Kutluq (682–693) imperiyanın əsasını qoydu, daha sonra Qapağan Xaqan (693–716) dövləti inkişaf etdirdi, nəhayət, Bilgə Xaqan (716–734) – ikinci Göytürk xaqanlığının ən məşhur və görkəmli başçısı oldu. Bilgə Xaqan özünün möhkəm siyasəti ilə İkinci Göytürk xaqanlığına iyirmi illik sülh bəxş etdi. Onun Tonyukukun məsləhəti ilə türk mədəniyyətinin inkişafına yönəlmiş siyasəti həyata keçirildi. Tonyukuk yeni sülh və müharibə fəaliyyəti proqramı işləyib hazırlamışdı ki, burada da düşməni sülhə,

döyüşə məcbur etmək və türk dünyasını vahid xalq kimi birləşdirmək əsas yer tuturdu. Göytürk xaqanlığına Çin dövləti ilə sülh lazım idi ki, bunu da Bilgə Xaqan həll etmişdi. Bütün bunlara baxmayaraq, xaqanlıqda mərkəzdənqaçma meylləri güclənmişdi.

Bilgə Xaqandan sonra hakimiyyətə gəlmiş Tenqri Xaqan və Özmiş Xaqanın dövrlərində xaqanlıq daha da zəifləməyə başladı. Bundan əlavə, 50 ildən artıq xaqanlığın tərkibində olan Uyğur xanı da bu xaqanlıqla müharibəyə başladı. Uyğur rəhbəri 742-ci ildə öz atasından şad titulu alaraq doqquz-oğuz xalqını birləşdirdi. Həmin ildə uyğurlar, basmillər və karluklar eyni vaxtda qiyama başladılar. 744-cü ildə basmillər Özmiş Xaqanı öldürdülər. Beləliklə, təxminən 200 il (552–744) mövcud olmuş Böyük Türk imperiyası dağıldı.

**Monqolustanın şimalında Orxon çayı ətrafında göytürklərə aid bir çox qiymətli kitabələr tapılmışdır.** Orxon kitabələri adı ilə şöhrət qazanan bu abidələr VIII əsrdə göytürklərin Kutluq sülaləsi zamanında meydana gəlmişdir. Bu abidələr Tonyukuk, Gültəkin və Bilgə xanın şərəfinə ucaldılmışdır. Bunlardan başqa Orxon və Yenisey bölgəsində göytürklər dövründə yazılmış daha bir çox yazılı abidələr tapılmışdır. Bu yazılı abidələr XVIII əsrin əvvəllərində Poltava döyüşündə ruslara əsir düşüb Sibirə sürgün edilən bir İsveç zabiti tərəfindən kəşf edilmişdir. O, bu yazıları fin dilində «runa» adlanan yazılara oxşadığına görə «run» yazıları adlandırdı. Bu yazılar elmə **«Türk run yazıları» adı ilə daxil oldu.** Bu abidələri oxumaq üçün bir çox alimlər tədqiqat işləri aparmışlar. 1893-cü ildə danimarkalı alim Vilhelm Tomson bu yazıları oxumağa müvəffəq olmuşdur. Türk run yazıları erkən orta əsrlərdə türk etnoslarının tarixini və mədəniyyətini öyrənmək üçün yeganə yerli mənbədir.

Göytürk xaqanlığına tabe olan tayfaların və xalqların hər biri öz daxili işlərində müstəqil idi. Ancaq onlar mərkəzi hakimiyyətə müəyyən edilmiş miqdarda vergini vaxtlı-vaxtında

verirdilər. Göytürklərin əsas məşğuliyyəti maldarlıq və ovçuluq olmuşdur. Göytürklərə tabe olan tayfalar arasında əkinçilik də geniş yayılmışdı. Göytürklər eyni zamanda dəmirçiliklə də məşğul olurdular, bunu arxeoloji qazıntılar zamanı tapılan dəmir əridən peçlərin qalıqları sübut edir.

Xaqanın əyalətlərə başçılıq edən hakimləri yabqu və şad adlanırdı. Yabqu xaqanın gələcək varisi hesab olunurdu. Şahzadələr təkin titulu daşıyırdılar.

Xaqanlıq bir sıra dövlətlərlə ticarət əlaqələri saxlayırdı. Əsasən də Bizans və Çin ilə xaqanlığın ticarət əlaqələri mövcud idi. Arxeoloji qazıntılar nəticəsində tapılmış maddi-mədəniyyət nümunələrinin qalıqları bu əlaqələrin olduğunu sübut edir. Göytürk xaqanlığının böyük nüfuza malik olması Çin, İran və Bizans kimi dövlətlərin xaqanlıqla hesablaşmalarına səbəb olmuşdu. Bu dövlətlərlə siyasi-ticari əlaqələr də mövcud idi.

Göytürklərdə tayfalar arasında müxtəlif ibtidai dinlərin qalıqları qalmaqda idi. Bu tayfalar arasında buddizm də geniş yayılmışdı. Bu din Tobo xan tərəfindən rəsmən qəbul edilmiş, ölkə ərazisində buddizm məbədləri tikilmişdir. Xan özü buddizm dini mərasimlərində iştirak edirdi. Mənbələr Orta Asiya ərazisində buddizm məbədlərinin olduğunu göstərir. Məbədlərdə buddizm dini üçün səciyyəvi olan əşyalar da tapılmışdır. Göytürklər arasında manilik və məzdəkizm də mövcud olmuşdur. Bu ərazilərə islam dininin gəlməsinə qədər bu dinlərin tərəfdarları çox idi. Göytürklərin adət-ənənələri haqqında Çin, Bizans mənbələrində müəyyən qədər məlumat vardır. Qədim türklərin mədəniyyətində daş heykəllər mühüm yer tutur. Belə abidələr Altayda geniş yayılmışdır. Onların adət-ənənələri sırasında bir neçə cür dəfn adəti yer almışdır. Bunların sırasına kurqan dəfnləri, daş heykəllər və üstündə yazılı daşlar olan qəbirələri aid etmək olar.

# UYĞUR XAQANLIĞI

## 1.Uyğur xaqanlığının yaranması

Uyğurlar Böyük Hun birliyinə daxil olan tayfalar sırasında olmuşlar. Onlar Orxon çayı ətrafında yaşayırdılar. Uyğur etnonimi Çin dilində «Xuayxe» adı ilə işlədilmişdir. Uyğurların tarixini araşdıran alimlərin fikrincə «Xuayxe» və «uyğur» etnonimləri eynidir. **«Uyğur»un mənası müttəfiq, uyuşan** deməkdir. Uyğur dili türk dilinin bir qoludur. Onlar türk run əlifbasından, sonra isə Soqda əlifbasından istifadə etmişlər. Türk run əlifbası ilə uyğurca yazılmış abidələr tapılmışdır. Uyğur dilində ilk yazılı abidə 744-cü ilə, Uyğur xaqanlığının yarandığı vaxta aiddir.

VI əsrdə uyğurlar I Göytürk xaqanlığının tərkibində olmuşlar. Göytürklər çinlilər tərəfindən işğal olunduqdan sonra uyğurlar xeyli gücləndilər. VIII əsrin ortalarına doğru karlukları və basmilləri özlərinə tabe edə bildilər. Bu tayfalarla birlikdə göytürklərə qarşı hərəkətə keçərək 744-cü ildə II Göytürk xaqanlığını ortadan qaldırdılar. Beləcə, şərqdə böyük hakimiyyət Göytürk-Kutluq sülaləsindən uyğurlara keçmiş oldu. **Uyğurların tarixşünaslıqda Uyğur xaqanlığı adlandırılan dövləti yarandı.** Uyğur xaqanlığının mərkəzi Orxon çayı sahilində yerləşən Qarabalqasun şəhəri idi. Xaqanlığın yaradıcısı Kül-Bilgə xan idi. Sonra 745-ci ildə hakimiyyətə tanınmış hökmdarlardan Moyunçur gəldi. Onun hakimiyyətə gəlməsi narazılığa səbəb oldu. Xaqanlıqda ciddi çıxışlar baş verdi. Əhalinin əsas çoxluğu «qara camaat» Moyunçur xana tabe oldular. Bilgə Tutqunun tərəfdarları isə məğlub oldular. Bütövlükdə Moyunçur güzəştlərə meylli idi ki, bununla da o, vətəndaş müharibəsinin uğurlu sonluğuna nail oldu.

Əhalinin bütün təbəqələri Moyunçurun hakimiyyətini tanıdılar. Moyunçur bütün türk tayfalarını öz ətrafında birləşdirə bildi. Lakin 751-ci ildə qırğız və karluk tayfaları birləşərək uyğurlara qarşı çıxdılar. Moyunçur xanın başçılığı ilə Uyğur qüvvələri qırğız və karlukların birləşmiş qüvvələrini darmadağın etdilər. Moyunçurun hakimiyyəti illərində Uyğur xaqanlığının ərazisi xeyli genişlənmiş, cənubda Qobi səhrasına qədər uzanmışdı. VIII əsrin 50-ci illərində Çində üsyan baş vermiş, hakimiyyətdən uzaqlaşdırılan Çin imperatoru uyğurlardan kömək istədi. Moyunçur Çinə hücum edərək hakimiyyətdən salınmış imperatorun hakimiyyətini bərpa etmişdir. Bunun müqabilində Çin imperatoru qızını ona ərə vermişdi. Eyni zamanda əldə olunmuş razılığa görə çinlilər uyğurlara illik vergi – ipək verməli oldu. 755-ci ildə Çin dövləti ilə Uyğur xaqanlığı arasında münasibətlər pozuldu. Çin tərəfi ağır itkilər verərək geri çəkildilər. Bu zaman uyğurlara tabe olmayan bir sıra qonşu tayfalar mübarizə zamanı onlarla birləşdilər. 759-cu ildə Bögü xan hakimiyyətə gəldi. Onun dövründə xaqanlığa tabe olan xalqların mərkəzi hakimiyyətə qarşı mübarizəsi güclənməyə başladı. Bögü xan tayfa başçılarının rəyi ilə hesablaşmalı olurdu. 762-ci ildə tibetlilərin Çinə hücumu ilə əlaqədar Bögü xan Çinə kömək etdi. Belə ki, Bögü xan Çin kimi bir zəngin bazarı itirmək istəmirdi. Uyğurların tibetliləri məğlub etməsi onların nüfuzunu artırdı.

779-cu ildə hakimiyyətə gəlmiş Dolos xanın dövründə Uyğur dövləti tədricən zəifləməyə başladı. Həm xarici siyasət, həm də daxildə tayfa başçılarının mərkəzi hakimiyyətə qarşı mübarizəsi nəticəsində xanlar bir-birini əvəz etməyə başladılar. 795–805-ci illərdə uyğurlar əsasən tibetlilərlə müharibə apararaq onların Çinə daxil olmalarının qarşısını almış oldular. Bundan əlavə həmin illərdə uyğurlar karluklar və qırğızların çıxışlarının qarşısını almışdılar.

## 2.Uyğur xaqanlığının süqutu. Uyğurların dini etiqadları

IX əsrin əvvəllərində Uyğur xaqanlığına tabe olan xalqların uyğurlara qarşı mübarizəsi başladı. Ölkə daxili çəkişmələr, qonşu xalqlar üzərinə olan yürüşlər xaqanlığın zəifləməsinə səbəb oldu. 816-cı ildə tibetlilər xaqanlığa hücum etdilər. Onlar hücum üçün elə bir vaxt seçmişdilər ki, bu vaxt xaqanlıqda qırğız çıxışları baş vermişdi. 817-ci ildə Çinlə münasibətlər pozuldu. Lakin Tibet təhlükəsi qaldığından Çin–Uyğur münasibətləri 821-ci ildə bərpa olundu. IX əsrin 30-cu illərindən başlayaraq Uyğur xaqanlığı xeyli zəiflədi. Bu dövrdə bir sıra xalqlar uyğurlardan ayrıldılar. Qırğızların başlatdıqları üsyan daha güclü oldu. Bu üsyan uzun müddət davam etdi. Uyğurların yuxarı təbəqələrinin müəyyən hissəsi qırğızları dəstəkləyirdilər.

840-cı ildə gedən döyüşlərdə uyğurların bütün silahlı qüvvələri darmadağın edildi. Uyğurların Şərqdə yüz illik hökmranlığı qırğız türklərinin hücumuna uğrayaraq dağıldı. Uyğurlar buradakı hakimiyyətlərini itirdilər. Bundan sonra Uyğurlar Orxon ətrafını tərk edərək Şərqi Türküstana çəkildilər. Onlar buralarda IX əsrin ortalarından etibarən yeni bir dövlət qurdular. Lakin sonralar kidanların və nəhayət Çingiz xanın hakimiyyəti altına keçdilər.

Çingiz xanın istilasından sonra uyğurlar monqolların mədəniyyət müəllimi olmuşlar. Uyğur dili və yazısı uzun zaman Monqol imperiyasının diplomatik dili və yazısı olaraq istifadə olundu. Çingiz xan və oğulları dövründə mühüm rol oynayan uyğurlar imperiya içərisində yüksək mövqelər əldə etmiş və hər tərəfə dağılaraq öz mədəniyyətlərini geniş ərazidə yaymışlar.

Uyğur türkləri çox qədim və zəngin mədəniyyətə malik bir xalqdır. Onlar Şərqi Türküstana gəldikdən sonra, xüsusilə kənd təsərrüfatı, ticarət və sənətə diqqəti artırdılar. Uyğurların özlərinə aid yazıları var idi. İlk zamanlar onlar türk run

yazılarından istifadə edirdilər. Sonra öz yazılarından istifadə etməyə başladılar. Uyğurların yazısı hətta islamdan sonra uzun zaman istifadə edilmişdir. Monqollar arasında bu gün belə istifadə olunur. Uyğurlar arasında şamanizmdən başqa, Mani dini təlimi də yayılmışdı. Mani dini xristianlıq, məzdəkilik və buddizm qarışığından meydana gəlmiş bir din idi. Maniliyin yayılması uyğurların qonşu ölkələrlə münasibətlərinin pozulmasına səbəb oldu. Bu dövrdə Çin və Tibet maniliyin əleyhinə çıxdılar. Uyğurlarda manilik yalnız VIII əsrdə qeydə alınmışdı. Lakin uyğurların bir hissəsi bu dinin təsirindən uzun müddət xilas ola bilmədilər. Orxon çayı vadisində uyğurların çindilli abidəsi yeni dinin tətbiq edilməsi haqqında maraqlı məlumat verir. Bögü xan bu dinin təbliğatçılarını öz yanına çağırmış, ölkədə təbliğat aparmaq üçün onları ali qanun təlimçisinə vermişdir. Bu məqsədlə ölkədə dini islahatlar həyata keçirilmişdir.

Abidənin mətninə müvafiq olaraq, Cüveyni uyğurların müraciətini təsvir edir. O, «onlarda» cadugərlik elminin olmasını qeyd edir, bu sahədə çalışanları isə «kama» adlandırır. O, uyğurların baxışlar sistemini din deyil, yalnız ruhlar–iblislərlə ünsiyyətdə olan praktik fəaliyyət hesab edir. Biz də bunu həmçinin din deyil, cadugərlik adlandırardıq. Kamaların təsiri çox böyük idi, belə ki, onlar xəstələri müalicə edir, falçılıqla məşğul olurdular.

Uyğurlar Çindən buddizm dinini də mənimsəmişdilər. Paytaxtda və başqa şəhərlərdə buddizm dininin məbədləri vardı. Şərqi Türküstanda daha çox buddizm dininin təsiri altında qaldılar.

Uyğur xaqanlığında dövrünə görə yüksək iqtisadi və ictimai münasibətlər mövcud idi. Xaqanlıqda yaşayan əhalinin əsas təsərrüfat məşğuliyyəti maldarlıq idi. Lakin onlarda əkinçilik də inkişaf etmişdi. Əkinçiliyin inkişaf etməsi nəticəsində maldar əhalinin bir hissəsi oturaq həyata keçmişdi. Oturaq həyat tərzi daimi yaşayış məskənlərinin yaranmasına səbəb

olmuşdu. Oturaq həyat tərzi sənətkarlığa və ticarətə təkan vermişdi. Uyğurlar İpək yolu üzərində yerləşdikləri üçün ölkələrarası ticarətdən çox faydalanırdılar. Xalçaçılıq, toxuculuq inkişaf etmişdi və bir çox ölkələrə ixrac edilirdi. Uyğur türkləri yüksək mədəniyyət nümunələri olan böyük şəhərlər qurmuşlar. Bu şəhərləri saray, məbəd kimi tikililərlə zənginləşdirmişlər. Uyğurların mis, dəmir, gümüş, qızıl mədənləri vardı. Uyğurlarda bəzi sənət növləri də yaranmışdı.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, sosial-iqtisadi həyatla bağlı ictimai hadisələr Orta Asiyanın türk xalqlarının erkən orta əsrlər tarixi üçün oxşar cəhətlərlə səciyyələnir. Orta Asiyada qədim dövrdən başlayaraq etnik proseslərdə vaxtaşırı dəyişikliklər baş vermişdir. Bir etnosun hakimiyyəti az sonra başqa etnosun hakimiyyəti ilə əvəz olunmuşdur.

# AVAR XAQANLIĞI

## 1. Avar xaqanlığının yaranması. Bizans imperiyası ilə münasibətlər

Mənbələrin verdiyi məlumatlara görə Qərbi Hun imperiyası dağıldıqdan sonra avarlar güclü bir siyasi qüvvəyə çevrildilər. Mərkəzi Asiyada avarlar Çin mənbələrində jujuanlar kimi qeyd olunur. Bizim eranın əvvəllərində onların bir hissəsi hunlarla birlikdə qərbə köç etmişlər. Qərbə çəkilən bu jujuanlar **«Apar»** adlandı. Türkcə olan bu sözün mənası **«dirənən, qarşı gələn"dir». Qərblilər «Abar» və «Avar» şəklində işlətmişdilər.** Daha çox «Avar» şəklində söylənirdi. Mərkəzi Asiyada qalan jujuanlar isə cənuba doğru çəkilmişlər. Burada bir sıra türk tayfalarını öz ətraflarında birləşdirmişlər. Lakin V əsrdə Ağ Hunlar onların güclənməsinə imkan verməmiş, VI əsrin ortalarında isə onlar Göytürklərə tabe olmuşlar.

Cənub-Şərqi Avropada avarlar qərbə hərəkət edərək, Bizans dövlətinin sərhədlərinə çatmış və orada məskunlaşmışlar. Avarlar Mərkəzi Avropanın Macarıstan bölgəsinə yerləşmiş və 558-ci ildə müstəqil dövlətlərini yaratmışlar. Avarların yerləşdikləri Mərkəzi Avropada hunlardan qalmış bir çox türk tayfaları vardı. Bu türk tayfaları da avarların ətrafında birləşərək böyük bir qüvvə təşkil etmişlər. Bizansı təhdid edərək yerləşə biləcəkləri qədər ərazi və illik vergi istədilər. Bizans dövləti bu tələbləri qəbul etdi.

Mərkəzi Avropada böyük bir güc olan avarlar Dunay bölgəsinə ilk gəlişlərindən ətrafdakı slavyanları da öz hakimiyyətləri altına almışlar. Bizans tərəfi vəd etdiyi illik vergini ödəməkdə gecikdi. Buna görə avarlar Bizansın hakimiyyəti altındakı bir sıra əraziləri işğal etdilər. Qərbdə frankları məğlub etdilər. Avar qüvvələri Bayan xanın başçılığı altında 580-ci ildə yenidən Bizans dövlətinə hücum edərək Bizansın bir neçə sərhəd şəhərlərini işğal etdilər. Bizans

imperiyası avarlara vergi verməyə razı olaraq ölkənin işğal olunmuş ərazilərinin azad olunmasına nail oldu. İqtisadi cəhətdən ağır vəziyyətdə olan Bizans imperiyası vergiləri vaxtında verə bilmirdi. Bundan istifadə edən avarlar Bizans torpaqlarına tez-tez hücumlar edir, şəhər və kəndləri dağıdırdılar. **Avarların VI əsrin 90-cı illərində Bizans imperiyasına qarşı bir neçə dəfə hərbi yürüşləri baş vermişdir.** Bu yürüşlər nəticəsində avarlar ərazi genişlənməsinə də nail olmuşlar. Xaqanlıq Bayan xanın hakimiyyəti illərində xeyli güclənmişdi. Avarların işğal etdiyi ərazilərdə yaşayan müxtəlif slavyan və alman tayfaları Avar xaqanlığına tabe olmuşdular. Bizans imperiyasının Sasanilərlə apardığı müharibənin sonuncu mərhələsində də avarlar Bizans qüvvələrinin şərqə yönəlməsindən istifadə edərək imperiya ərazisinə hücum edirdilər. 626-cı ildə avarlar Balkanları və Frakiyanı aşaraq Konstantinopolu mühasirəyə aldılar. Lakin şəhər əhalisi avarlara qarşı ümumi mübarizəyə qalxdılar. Avar ordusunun mühasirəsi dəniz qüvvələri olmadığı üçün nəticəsiz qaldı. Avarlar şəhəri ala bilməyərək geri çəkildilər. Bu məğlubiyyətdən sonra avarlar Dunayın aşağı bölgələrindən geri çəkilməli oldular. Avar xaqanlığı tədricən zəifləməyə başladı. Xaqanlığın zəifləməsi bir sıra tayfaların onlara qarşı çıxmasına səbəb oldu. Bir çox tayfalar mərkəzi hakimiyyətdən uzaqlaşmağa başladılar. Bizans imperiyası da xaqanlığa illik vergi verməkdən imtina etdi.

## 2.Avar xaqanlığının süqutu

VII əsrin ortalarından başlayaraq avarların Avropada mövqeləri zəiflədi. Zəifləməsinə baxmayaraq Avar xaqanlığı bir müddət varlığını qorudu. Bu vəziyyət IX əsrin əvvəllərinə

qədər davam etmişdir. O zaman avarlar Qərbdə Frank krallığına da qonşu idilər. 805-ci ildə Frank kralı Böyük Karl avarlara qarşı müharibəyə başladı. Daxili qarışıqlıqlarla sarsılmış vəziyyətdə olan avarlar məğlub edilmişlər. Xristianlaşaraq dillərini və dinlərini itirdilər, avropalılar arasında qarışıb əriyib getdilər. Avarlar bir sıra bölgələrə dağıldılar. Cənub-Şərqi Avropada slavyanlar içərisində məskunlaşaraq onlarla qaynayıb-qarışdılar. Avarların Şərqi və Qərbi Avropa xalqlarının, o cümlədən slavyanların siyasi və mədəni həyatına böyük təsiri olmuşdur.

Macarıstan ərazisində erkən orta əsrlərdə avarlara aid çoxlu arxeoloji abidələr aşkar olunmuşdur. Avarlar tərəfindən tikilən sərhəd qalalarının, Çin səddini xatırladan divarların və suvarma kanallarının qalıqları bu gün belə heyranlıq yaradır. Avarların Cənubi Qafqazda yaşamaları da mənbələrdə qeyd olunmuşdur. Onların bu bölgədə yaşamaları eyni zamanda toponimika ilə də təsdiqlənir. Avarlarla bağlı Cənubi Qafqazda Abaran, Abari, Avaran yaşayış məntəqə adları məlumdur. Antik müəlliflərin əsərlərində avarların Azərbaycan ərazisində yaşamaları göstərilir. Bütün bunlar onu göstərir ki, türkdilli avarların müəyyən hissəsi Azərbaycana gələrək yerli əhali ilə qaynayıb qarışmışlar.

# BULQAR DÖVLƏTİ

## 1. Bulqar dövlətinin yaranması

Qafqazda yaşamış tayfalardan biri də bulqarlar olmuşdur. Bulqar türklərinin Qafqazda yerləşməsi haqqında ilk məlumatı IV əsr müəllifi Maar Apas Katina vermişdir. Azərbaycanda Bulqar türklərinin adı ilə bağlı toponimlər mövcuddur. Muğan bölgəsində Bulqar kənd, Bulqargöytəpə, Bulqarçay kimi yer adları bulqarların Azərbaycanda yayılıb yaşadığını göstərir. Azərbaycanda yaşayan bulqarlar V əsrin II yarısından başlayaraq digər türk tayfaları ilə qarışmış, sonralar isə onlar arasında əriyib itmişlər. Eyni zamanda Bizans müəllifləri də Qafqazda yerləşib yaşayan Bulqar türkləri haqqında tutarlı yazılar qoyub getmişlər. Bulqar türklərinin adı «Kitabi-Dədə Qorqud» boylarında da qalmışdır.

Tədqiqatçılara görə bulqarlar Cənub-Şərqi Avropanın hunlardan əvvəl yerli türk tayfaları idilər. Aydın olur ki, bulqarlar Şərqdən gəlmə türk tayfaları olmamışlar. Hunlar bu bölgəni işğal etdikdə bulqarlar da onların hakimiyyəti altında olmuşlar. Daha sonra isə avarların hakimiyyəti altına düşmüşlər. Bizans mənbələrindən məlum olur ki, VI əsrin 90-cı illərində Bizans imperiyası ilə müharibələr aparan avarların tərkibində bulqarlar da var idi. Bulqarlar bir neçə dəfə avarlarla toqquşmuş, lakin məğlub olmuşdular. Konstantinopol məğlubiyyətindən sonra Avar xaqanlığı tədricən zəifləmiş, **bundan istifadə edən Kubrat adlı bir xan 630-cu ildə avarlardan xilas olaraq güclü bir dövlət qurmuşdur.** Bu dövlətin ərazisi Şimali Qafqazın geniş çölləri, Azov dənizi və Kuban çayının sahillərini əhatə edirdi. Kubratın vəfatından sonra xəzərlərin hücumu və oğlanları arasında hakimiyyət uğrunda mübarizə Bulqar dövlətinin parçalanmasına səbəb oldu. Bulqarların bir hissəsi Volqa çayı sahilində məskunlaşdı, digər hissəsi Asparuxun başçılığı ilə Dunay çayı sahillərinə

köçüb getdi və indiki Bolqarıstan ərazisində yerləşdilər. 679-cu ildə Bizans qoşunları üzərində qələbə qazanan bulqarlar Dunay Bulqar dövlətini qurdular. Bu ərazidə yaşayan slavyan tayfaları Asparux xana tabe oldular.

Bulqarların Azov sahili ərazidə qalan hissəsi isə Xəzər dövlətinə tabe olsalar da, çox keçmədən onlar Volqa boyuna gedərək Volqa Bulqar dövlətini yaratdılar. Bulqarların xəzərlərlə qarışmış hissəsi isə əbədi olaraq Şimali Qafqaz çöllərində qaldılar. Şimali Qafqazda indiki qaraçaylar və balkarlar həmin bulqarların nəsilləri hesab olunur. Dunay boylarına gələn bulqarlara Qərb bulqarları, Volqa boyundakı bulqarlara isə Şərq bulqarları deyilir.

## 2. Dunay Bulqar dövləti

Bizans imperiyası əvvəl sasanilərlə, sonra isə ərəblərlə baş vermiş döyüşlərdə xeyli zəifləmişdi. Asparux xan belə bir vəziyyətdən istifadə edərək Dunay çayını keçərək Bizans imperiyasının sərhədlərinə yaxınlaşdı. 679-cu ildə Bizans qoşunları ilə Asparuxun silahlı qüvvələri arasında hərbi əməliyyatlar başladı. Bu döyüşdə qalib gələn Asparux xan 679-cu ildə Cənub-Şərqi Avropada müstəqil Bulqar türk dövlətini yaratdı. 681-ci ildə tərəflər arasında sülh bağlandı. Bağlanan sülhün şərtlərinə görə Bizans imperiyası Bulqar dövlətinin müstəqilliyini tanıyır, hər il Bulqar dövlətinə vergi verməli olurdu. Bulqar dövləti eyni zamanda Bizans imperiyası ilə geniş ticarət əlaqələri də yaratdı. Tərəflər arasında iqtisadi əlaqələr hər iki dövlətin yaxınlaşmasına səbəb oldu. Ərəblərin VIII əsrin əvvəllərində Bizans imperiyasına hücumları zamanı Bizans tərəfi Bulqar dövlətinin köməyindən istifadə edirdi. Ərəblər 717–718-ci illərdə Konstantinopolu mühasirəyə aldıqları zaman Bizans–Bulqar qüvvələri güc birliyi ilə şəhəri qurtardılar. Bu iş birliyi Bulqar dövlətinə böyük iqtisadi imkanlar verdi.

Bizans imperiyası Dunay bulqarlarının güclənməsini istəmir və müxtəlif yollarla Bulqar dövlətinin zəifləməsinə çalışırdı. Dunay Bulqar dövlətində baş verən hakimiyyət çəkişmələrindən istifadə edən Bizans imperiyası VIII əsrin 40–50-ci illərində bir neçə dəfə Dunay bulqarlarına qarşı yürüş təşkil etmişdilər. Tərəflər arasında baş verən müharibələr Dunay Bulqar dövlətinin zəifləməsinə səbəb oldu.

**Krum xanın hakimiyyəti illərində (803–814) Dunay bulqarları yenidən gücləndilər.** Krum xan qonşu Macarıstanın cənub vilayətlərini və Transilvaniyanı tuta bildi. Krum xanın bu qələbələri Bizans imperiyasının narahatlığına səbəb oldu. Bizans imperiyası 811-ci ildə böyük bir qüvvə ilə Bulqar dövlətinə hücum etdi. Bu döyüş Bizans silahlı qüvvələrinin məğlubiyyəti ilə nəticələndi. Krum xan artıq Bizansı tamamilə ortadan qaldırmağa imkan tapmışdı. Krum xanın qoşunları Sofiya və Belqrad şəhərlərini ələ keçirdilər. Bulqar silahlı qüvvələri Ədirnəyə qədər irəliləyə bildi. 814-cü ildə Konstantinopol Dunay bulqarları tərəfindən mühasirəyə alınmışdı. Müharibənin gedişində 13 aprel 814-cü ildə Krum xan öldü və məqsədini həyata keçirə bilmədi. Krum xandan sonra hakimiyyətə gələn Omurtaq xan döyüşü dayandıraraq sülh danışıqlarına başladı. Sülhün şərtlərinə görə Bizans imperiyası Bulqar dövlətinə verdiyi illik vergini bərpa edir və ticarət əlaqələri genişləndirilirdi. Omurtaq xanın hakimiyyəti illərində ölkədə geniş quruculuq işləri aparıldı. Lakin Bizans imperiyası bu dövləti dağıtmaq üçün Frank kralı ilə də əlaqə saxlayırdı. Onlar Bulqar dövlətinin daxilində baş verən xristianlaşma və slavyanlaşma amilindən istifadə edirdilər. Onların təsiri altına düşən Boqoris xan 864-cü ildə xristianlığı rəsmi din kimi qəbul etdi. Bununla da ölkə ərazisində xristianlaşma geniş vüsət aldı. Dunay Bulqar dövləti xeyli zəiflədi. Bundan istifadə edən Bizans imperiyası Dunay bulqarlara qarşı mübarizəyə başladı. Bizans qoşunları Dunay bulqarlarının silahlı qüvvələrinə ağır zərbə vurdular. Dunay

Bulqar dövlətini quranlar yavaş-yavaş slavyanların təsiri altında slavyanlaşaraq türklükdən uzaqlaşdılar.

### 3. Volqa bulqarları

Bulqar dövləti süqut etdikdən sonra bulqarların bir hissəsi Dunay bölgəsinə köçmüş, digər hissəsi isə Orta Volqa boyuna çəkilmişdi. Bulqarların bu əraziyə gəlişi ilə bölgədə türk dili geniş yayılmağa başladı. Volqa boyuna gəldikləri vaxt bulqarlar tayfa birliyində idilər və hər tayfanın öz başçısı var idi. IX əsrdə bir xanlıqda birləşdilər. Möhkəm siyasi təşkilat halında qurduqları dövlət monqol işğalına qədər mövcud oldu. Xəzər dövlətinin zəiflədiyi dövrdə Volqa bulqarlarının ərazisi xeyli genişləndi. Bulqarların Volqa–Ural bölgəsində yaşayan xalqlarla iqtisadi əlaqələri genişləndi. Bulqar türkləri oturaq həyat tərzi keçirirdilər. Əkinə yararlı torpaqlarda bol məhsul yetişdirir, mal-qara saxlayırdılar. Mənbələrdə bulqarlarda müxtəlif sənətkarlıq növləri barədə məlumatlar vardır. Arxeoloji qazıntılar zamanı dəmir və misdən ev əşyalarının nümunələri tapılmışdır. Uraldan ölkəyə çoxlu dəmir, mis gətirilirdi.

**Ölkədə təsərrüfatın, sənətkarlığın və ticarətin genişlənməsi şəhərlərin yaranmasına, iri yaşayış məskənlərinin böyüməsinə səbəb olurdu.** Şəhərlərdə xanlara, iri feodallara məxsus dəbdəbəli evlər, məscidlər, karvansaralar var idi. Ölkənin iri şəhərləri Bulqar, Suvar, Osal idi. Bulqar şəhəri ölkənin mərkəzi idi. Bu şəhərin yerləşdiyi ərazidə ruslar tərəfindən qazıntılar aparılmış və dəyərli tapıntılar əldə olunmuşdur. Bunların bir hissəsi Kazan muzeyində saxlanılır. Şəhərin xarabalıqları indi də qalır. Qazıntılar zamanı pul sikkələri də tapılmışdır ki, bunlar həm Kazan, həm də Peterburqdakı muzeylərdə nümayiş etdirilməkdədir.

Ölkənin iri şəhərlərindən biri də Suvar idi. Bu şəhərin əsası X əsrdə qoyulmuşdur. Arxeoloji qazıntılardan aydın olur ki, bu

şəhər də ölkənin iri ticarət mərkəzlərindən biri olmuşdur. Şəhərdə çoxlu karvansaralar var idi. Ticarət əsasən mübadilə yolu ilə aparılırdı. Bulqar türkləri könüllü olaraq islam dinini qəbul etmişdilər. 921-ci ildə Bulqar xanı Almış Xəzər türklərindən Baştonu Abbasi xəlifəsi əl-Muqtədirin yanına göndərərək müsəlmanlığı onlardan öyrənmək istədiyini, ona bu dini öyrənməkdə kömək edəcək alimlərin göndərilməsini xahiş etmişdi. Xəlifə əl-Muqtədir də ona din xadimlərindən və məscid tikəcək ustalardan ibarət bir heyət göndərmişdi. Bu heyətin tərkibində olmuş İbn Fəzlan Bulqar türkləri haqqında geniş məlumat vermişdir. Almış xan müsəlman olduqdan sonra oğlu Əhməd xanı 944-cü ildə dəyərli hədiyyələrlə xəlifə əl-Muqtədirin yanına göndərmişdi.

XII əsrdən başlayaraq rusların bulqarlar üzərinə müdaxilələri gücləndi. Bu müdaxilələr iqtisadi və ticarət sahəsindəki tələblərlə bağlı idi. Ruslar burada ticarət üstünlükləri əldə etmək istəyirdilər. Eyni zamanda Volqa yolu vasitəsilə maneəsiz Xarəzmə getmələrinə şərait yaradılmasını istəyirdilər. XIII əsrin əvvəllərindən Çingiz xanın yürüşləri ilə əlaqədar olaraq Orta Asiya ilə ticarət əlaqələri kəsildi.

1236-cı ildə Çingiz xanın nəvəsi Batı xanın ordusu Uralı keçib Bulqar dövlətinin ərazisinə daxil oldu. Monqollar Bulqar şəhərlərini qarət etdilər. Bununla da Bulqar dövləti müstəqilliyini itirdi və ərazisi Qızıl Orda dövlətinə qatıldı. Həm monqol işğalları, həm də sonrakı illərdə Toxtamışla Əmir Teymurun müharibələri nəticəsində Volqa boyu ərazilər dağıntılara məruz qaldı.

# XƏZƏR XAQANLIĞI

## 1.Xəzər xaqanlığının yaranması

Şərqi Avropada yaranan türk dövlətlərindən biri də Xəzər xaqanlığı idi. Xəzərlər VI əsrdən VII əsrin 30-cu illərinə qədər Göytürk xaqanlığının tərkibində olmuşlar. **634-cü ildə isə müstəqil Xəzər xaqanlığı yarandı.** Xəzər xaqanlığı aşağı Volqa sahilindən başlayaraq Şimali Qafqazı əhatə edirdi. VIII-IX əsrlərdə Azov dənizi sahilləri, Krım yarımadasının bir hissəsi Xəzər xaqanlığına tabe idi.

Xəzərlərin mərkəzi əvvəl Saməndər, sonra İtil şəhəri olmuşdur. **VII–IX əsrlərdə Şərqi Avropanın ən güclü dövlətlərindən biri Xəzər xaqanlığı idi.** Xəzərlər Dərbənd keçidini keçərək tez-tez Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazisinə hücumlar edirdilər. 662-ci ildə və 665-ci ildə xəzərlərin Azərbaycan ərazisinə hücumları olmuşdur. Alban hökmdarı Cavanşir birinci hücum zamanı xəzərləri məğlub etmiş və geri çəkilmələrinə nail olmuşdur. 665-ci ildə isə xəzərlər Azərbaycan ərazisində xeyli əsir və qənimət ələ keçirmişlər. Cavanşir Xəzər xaqanlığı ilə sülh bağlamalı olur. Alban hökmdarı xəzərlərin asılılığını qəbul edir, onlara hər il vergi verirdi. Sülhə məhəl qoymayan xəzərlər sonralar da Azərbaycana hücum etdilər. Xəzər türkləri Azərbaycanda möhkəmlənməyə çalışsalar da, ərəblərin bu bölgəni işğal etməsi onların planlarının həyata keçməsinə mane olmuşdu. Xəzərlərin çoxlu şəhərləri var idi. Onların içərisində Sarkel, İtil, Saməndər, Bələncər xüsusilə seçilirdi. Bu şəhərlər Bizans, Qərbi Avropa və Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələri saxlayırdılar. Ticarət yolları üzərində yerləşən Xəzər xaqanlığı beynəlxalq ticarətdə mühüm rol oynayırdı. Xəzər xaqanlığı ticarətdən böyük qazanc əldə edirdi. Xəzərlər ticarətdən

aldıqları vergi ilə xəzinələrini doldurmuş, şəhərlərini inkişaf etdirmişlər.

Xəzərlər arasında sənətkarlıq da inkişaf etmişdir. Sənətkarlar müxtəlif əmək alətləri, silah, ev əşyaları, zərgərlik məmulatları hazırlayırdılar. Şəhərlərdə sənətkarlıq və dulusçuluq məmulatı istehsalı ilə məşğul olan sənətkar məhəllələri var idi. Xəzərlər əkinçilik və maldarlıqla da məşğul olurdular. Ərəb mənbələrinin məlumatına görə oturaq həyat sürən əhalinin bir hissəsi isə bağçılıq və bostançılıqla məşğul idi. Şəhərlərin ətrafında geniş bağ sahələri var idi.

Xəzər xaqanlığı Bizansla siyasi və diplomatik əlaqə saxlayırdı. Bunun başlıca səbəbi Sasani dövlətinin, sonra isə Ərəb dövlətinin xəzərlərlə yaxşı münasibətlərinin olmaması idi. Sasanilər dövlətinin zəifləməsi ərəblərin İranın içərilərinə girmələrini asanlaşdırdı. Ərəblər İran torpaqlarını ələ keçirdikdən sonra Qafqaza, o cümlədən xəzərlərin ölkəsinə yönəldilər. Bu hadisə Xəzər-Bizans ittifaqını möhkəmləndirdi. Bu dostluq iki ölkənin hökmdar ailələri arasında qohumluğa səbəb oldu. Xəzər xaqanının qızı Çiçək Bizans sarayına gəlin getdi. Xəzər xaqanlığı bir çox dövlətlərlə iqtisadi və siyasi əlaqələr saxlayırdı. **IX əsrin ortalarından bir çox slavyan tayfaları, Orta Volqa boyunda yaşayan xalqlar Xəzər xaqanlığına tabe olmuş və onlara vergi vermişlər.**

## 2. Xəzər-Ərəb müharibələri. Xəzər xaqanlığının süqutu

Xəzərlər Qafqaz dağlarını aşmaq istəyən ərəblərin qarşısında böyük maneə idilər. Ona görə də Xəzər-Ərəb müharibələri uzun müddət davam etdi.

643-cü ildə xəlifə Ömər Dərbəndə Sürakə ibn Əmiri göndərdi. Sürakənin ölümündən sonra xəlifə Dərbənd yaxınlığındakı sərhəd xəttinə Əbdürrəhman ibn Rəbiəni təyin etdi və xəzərlərə qarşı vuruşmağı tapşırdı. Lakin Bələncər

yaxınlığındakı xəzərlər hücuma keçib ərəbləri məğlub etdi və onların başçısı Əbdürrəhman ibn Rəbiəni öldürdülər.

Sonra Salman ibn Rəbiənin dəstəsi Dərbənddən şimala doğru hərəkət etdi, lakin 653-cü ildə Bələncər yaxınlığında xəzərlərlə rastlaşdı və qanlı vuruşmadan sonra onun dörd min nəfərlik dəstəsi qırıldı, özü isə öldürüldü. Ərəblər Azərbaycanın işğalını başa çatdırıb orada möhkəmləndikdən sonra xəzərlərlə müharibəyə başlamalı oldular.

**VIII əsrdə xəlifə I Validin (705–715) dövründən Xəzər–Ərəb müharibələri mütəşəkkil xarakter aldı.**

709-cu ildə xəlifənin qardaşı Məsləmə ibn Əbdül Malik xəzərlərə qarşı yeni hücuma keçdi. Bu hücum da uğursuz oldu. Xəzərlər ərəbləri Dərbənddən qovdular. Məsəlmə ibn Əbdül Malik 714-cü ildə Dərbənd üzərinə yenidən hücuma keçdi və xaqanlığın ərazisinə daxil oldu. Burada xəzərlər Məsəlmənin ordusu ilə vuruşmağa başladılar və ərəblər geri çəkildilər.

Xəlifə Yəzid ibn Əbdül Malik Cərrahı Azərbaycan və Ermənistana hakim təyin etdi. Cərrahın komandanlığı altında 25 minlik ərəb qoşunu xəzərlərlə döyüşə başladı. 724-cü ildə baş vermiş döyüşdə xəzərlər məğlub edildilər. Cərrah məğlub edilmiş şəhərlərin əhalisini Qəbələyə köçürtdü, burada xəzərlərin məskən saldığı kəndlər var idi.

İbn əl-Əsirin verdiyi məlumata görə, hər bir ərəb atlısı bu döyüşdən sonra qənimət olaraq 300 dinar almışdı. 731-ci ildə xəzərlər Barçikin komandanlığı altında ərəblərə qarşı hücuma keçdilər. Ərəblər Ərdəbilə tərəf geri çəkildilər. Savalan dağı yaxınlığında baş verən vuruşmada ərəblər məğlub edildi, Cərrah öldürüldü. Xəzərlər Ərdəbili aldılar, xeyli əsir apardılar. Xəzərlər Azərbaycanı dağıdıb, Diyarbəkir və Mosula çatdılar. Xəzərlərin belə sürətli hücumu xəlifəni və onun saray əhlini çox çaşdırdı. Xəlifə təhlükənin qarşısını almaq üçün böyük ordu yaratdı.

Ərəblər Van gölü yaxınlığındakı Xilat şəhəri qarşısında xəzərlərlə qarşılaşdılar. Ərəblər xəzərləri təqib etməyə başladılar. Ərəblər xəzərləri Azərbaycandan qovdular.

Bəlazurinin verdiyi məlumata görə, ərəblərin gücündən qorxuya düşən xaqan sülh istədi, Mərvan ibn Məhəmməd isə əsir aldığı xəzərləri Samur ilə Şabran arasındakı ərazidə yerləşdirdi. Xaqan islam dinini qəbul etdi. Abbasilərin hakimiyyətinin ilk illərində xəzərlər xəlifə nümayəndələrini öldürüb, bir müddət müstəqil oldular.

Bizans da xilafətdəki daxili çəkişmələrdən istifadə edərək, Cənubi Qafqazda öz hərbi və diplomatik fəaliyyətini gücləndirdi. Xəlifə Mənsur (754–775) hakimiyyət başına gələn kimi, ərəblər Bizansa qarşı dərhal əks tədbir gördülər. Xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövründə (786–809) xəzərlərin Azərbaycana və onunla qonşu ölkələrə hücumları kəsildi, xəzərlərlə sülh və ittifaq bağlandı.

Xəzər-Ərəb müharibələri Azərbaycan iqtisadiyyatının dağılmasına və insan tələfatına səbəb oldu. Yüz ilə qədər fasilələrlə davam edən Xəzər-Ərəb müharibələri Xəzər xaqanlığının zəifləməsinə səbəb oldu. Xəzər ordusu zəiflədi, ordu zəifləyincə ticarət əlaqələri sarsıldı. Bunun nəticəsi olaraq iqtisadi zəiflik yarandı və sosial qarışıqlıq başladı. Kiyev Rus dövləti tədricən qüvvətləndi. Bu vəziyyətdən istifadə edən slavyanlar gizli, açıq hücumlara keçdilər. Xəzər xaqanlığının ərazisinə hücumlar etdilər. Şəhər və kəndləri yandırıb yaxdılar. Kiyev-Rus dövləti 965-ci ildə qalib gəldi. Xəzərlər Krıma çəkilərək həyatlarını davam etdirməyə çalışdılar. Bir qismi də Qafqazda qaldı. Bu gün onlar Qaraçay türkləri adlanırlar.

# X–XII ƏSRLƏRDƏ QƏRBİ TÜRKÜSTANDA TÜRK DÖVLƏTLƏRİ

## 1. Qaraxanlı dövlətinin yaranması

IX əsrdə Yeddisu tayfaları içərisində əhəmiyyətli yeri karluklar tuturdular. Karluklar bu bölgədə türkeşləri məğlub etdikdən sonra hakim qüvvəyə çevrilmişdilər. Karluk türkləri Sır-Dərya ilə Çu çayları arasında yaşayırdılar. Sonralar cənub və cənub-şərqə endilər. Karluklar Yeddisu bölgəsində mərkəzi Qara-Ordu olmaqla bir dövlət qurdular. Karluk yabqusu əslində Uyğur xaqanlığından asılı idi. Uyğur xaqanlığının süqutundan sonra karluklar özlərini uyğurların davamçısı hesab edirdilər. Belə ki, Karluk başçısı özünü Uyğur xaqanlığının qanuni xələfi elan etdi. Onu Bilgə Kül Qədir xan adlandırırdılar. «Qara xan», «Böyük Xaqan» mənası daşıyırdı.

Yeddisu tayfaları içərisində çiğillər də mühüm yer tuturdular. Onlar Talas bölgəsində yaşayırdılar. Yeddisu bölgəsində döyüşkən yağmalar da yaşayırdılar.

**Bilgə Kül Qədir xan karluklar, çiğillər, yağmalar və türkeşləri vahid dövlət ətrafında birləşdirməyə başladı ki, sonralar bu dövlət Qaraxanlılar adlanmağa başladı. Qaraxanlı dövlətinin əsasını Satuk Buqra xan qoymuşdur.** O, müsəlmanlığı qəbul etmiş, Əbdülkərim adını götürmüşdür. Lakin ölkə ərazisində islam dininin yayılması onun oğlu Musa Bəydaşın vaxtında sürətləndi. Dövlət aparatında və orduda karluklar və çiğillər mühüm yer tuturdular.

Musa Bəydaş atasının başladığı mübarizəni davam etdirdi və şərq istiqamətində ərazilərini genişləndirdi. Qaraxanlı dövləti genişlənməkdə davam edirdi. Hakimiyyətə Qara xan sülaləsindən olanlar gəlir, Əbdülkərim xanın siyasətini yeridirdilər. X əsrin 90-cı illərində qaraxanlılar Mavəraünnəhrə yürüşə başladılar. Samanilər dövlətinin daxilində baş verən

mərkəzdənqaçma meylləri onlara əlverişli şərait yaradırdı. 999-cu ildə Qaraxanlı qüvvələri Samaniləri məğlub etdilər.

Artıq Mavərənnəhr bütünlüklə qaraxanlıların əlinə keçmişdi. Qəznəvilərlə razılığa əsasən Amu-Dərya çayı iki dövlət arasında sərhəd qəbul edildi.

Nəticədə Qaraxanlı dövləti Orta Asiyanın böyük bir dövlətinə çevrildi.

Başqa türk dövlətlərində olduğu kimi, qaraxanlılar da ailənin böyüyünü hakimiyyətə gətirir, ailəyə mənsub digər bəylər də ölkənin müxtəlif bölgələrinin idarəsinə cəlb olunurdu. Bölgələrin idarəsinə cəlb olunanlar hakimiyyətə keçdikdən sonra oturduqları şəhəri paytaxt edirdilər. Buna görə də dövlət paytaxtı müxtəlif vaxtlarda Kaşqar, Balasaqun, Özkənd, Talas, Səmərqənd arasında dəyişmişdir. Bəzən də bəylərin mərkəzlə əlaqəsi zəifləyir, olduqları yerdə müstəqil hərəkət edirdilər. Bu da ailə üzvləri arasında mübahisələrə yol açırdı ki, nəticədə ölkənin parçalanması baş verirdi. XI əsrin ortalarına doğru Qaraxanlı dövləti yalnız idarəçilikdə deyil, siyasi baxımdan da ikiyə bölündü. Beləliklə, vahid dövlət 1042-ci ildə iki dövlət halına gəldi.

Qərbi Qaraxanlı dövləti Mavərənnəhr, Fərqanənin bir hissəsi, Fərab və paytaxt saldıqları Özkənd bölgələrini əhatə edirdi. Özkənddən sonra Səmərqənd paytaxt oldu. Səlcuqların aramsız yürüşlərinə müqavimət göstərə bilməyən bu dövlət xeyli zəiflədi. 1089-cu ildə Qərbi Qaraxanlı dövləti səlcuqlara tabe oldu. Səncərin hakimiyyəti dövründə bu vəziyyət dəyişmədi. Xarəzmşahlar dövləti 1212-ci ildə Qərbi Qaraxanlı dövlətinin varlığına son qoydu.

Şərqi Qaraxanlı dövlətinin ərazisi Yeddisu, Talas vadisini, Çu çayı sahillərini, Sır-Dəryanın şərq bölgələrini əhatə edirdi. 1090-cı ildə Sultan Məlikşah Şərqi Qaraxanlı dövlətini də özünə tabe etdi. XII əsrin əvvəllərində Şərqi Qaraxanlı dövləti təkrar müstəqilliyini qazandı. Lakin bu dəfə də qarakitayların hücumuna məruz qaldılar. XII əsrin 40-cı illərində qarakitaylar

Balasaqunu, XIII əsrin əvvəllərində isə Çingiz xan Kaşqarı tutdu. Beləliklə, Şərqi Qaraxanlı dövlətinin varlığına da son qoyuldu.

Qaraxanlı dövlətinin varlığı dövründə ölkədə elm və mədəniyyət xeyli inkişaf etmişdir. Qaraxanlı dövlətində əvvəl uyğur, sonralar isə ərəb əlifbasından istifadə edilirdi. İslam dininin qəbul olunması İslam mədəniyyətinin bu yerlərdə geniş yayılmasına səbəb oldu.

Bu dövrdə meydana gələn ən məşhur əsərlər Mahmud Kaşqarlının «Türk dilləri lüğəti», Yusif Xas Hacibin «Xoşbəxtlik verən elm», Əhməd Yüqnəkinin «Həqiqətlər heybəsi» və Xoca Əhməd Yasəvinin «Divani-hikmət» və başqalarıdır.

## 2.Qəznəvilər dövlətinin yaranması.

Samanilər dövlətinin məşhur sərkərdələrindən biri olan Alptəkin 955-ci ildə Xorasan əmirliyinə təyin olunmuşdu. **962-ci ildə Samanilərin hökmranlığını tanımaqla yanaşı, öz dövlətini qurdu. Bu dövlət mərkəzi Qəznə şəhəri olan Qəznəvilər dövləti idi.** Alptəkin 963-cü ildə öldü və yerinə oğlu İshaq keçdi. Alptəkin, İshaq və onlardan sonra gələn Bilgətəkin (966–972), Piritəkin (972–977) Samanilər dövlətinin asılılığında qaldılar. 977-ci ildə hakimiyyətə gələn Səbuktəkin Qəznəvilər dövlətinin müstəqilliyinə nail oldu. Onun dövründə dövlətin ərazisi xeyli genişləndirildi. Səbuktəkin Toharıstan, Zabulstan, Gur və Bəlucistan bölgələrinə hakim oldu. 979-cu ildə Hindistana yürüş etdi. Şamqan bölgəsi onların əlinə keçdi.

Səbuktəkinin ölümündən sonra onun yerini 997-ci ildə oğlu Mahmud tutdu. Mahmud hələ atasının hakimiyyəti dövründə dövlət işlərinə cəlb olunmuş və atasının qatıldığı döyüşlərdə cəsarəti, zəkası ilə özünü göstərmişdi. Onun dövründə Qəznəvilər dövləti xeyli gücləndi. Xarəzm bölgəsi, Hindistan

və İranın bir çox bölgələri Qəznəvilər dövlətinin tərkibinə daxil oldu. Sultan Mahmudun təşəbbüsü ilə Hindistanın şimal bölgələrində (indiki Pakistan ərazisində) islam dini yayıldı. Sultan Mahmudun dinə, mədəniyyətə olan xidmətləri çox böyük olmuşdur. Sultan Mahmud sərt təbiətli, ədalətli, sənəti və sənətçini qiymətləndirən, qoruyan bir hökmdar oldu. Onun dövründə Qəznəvilər dövləti güclü bir imperiya olmuşdur. Sultan Mahmud XI əsrin I rübündə Hindistana 17 dəfə yürüş edərək bir sıra vilayətləri ələ keçirə bildi. Beləliklə, Hindistanın şimal və şimal-qərb bölgələrinə sahib oldu. Bütün yürüşlərində qələbələr qazanan Sultan Mahmud böyük həcmdə qənimətlər də əldə etmişdir. Hindistana yürüşləri nəticəsində dövlətin sərhədlərini genişləndirmiş və nüfuzunu xeyli artırmışdır. 1017-ci ildə Sultan Mahmud Xarəzm üzərinə yürüş etdi və bu bölgəni də işğal etdi. 1024-cü ildə Bəlx şəhərini, 1029-cu ildə isə Rey vilayətini ələ keçirdi.

Sultan Mahmud 1030-cu ildə öldü, yerinə oğlu Məsud keçdi. Sultan Məsud da bir sıra yürüşlər etdi və qələbələr qazandı. Sultan Məsud qonşu ölkələrlə, o cümlədən Qaraxanlı dövləti ilə atasının dövründə olduğu kimi dostluq münasibətləri saxlayırdı. Lakin o, atasının yerini verə bilmədi. Çox təsir altına düşdü. Dövlət daxilində narazılıqlar artdı. Bu arada səlcuqlar getdikcə qüvvətlənir və onlar arasında müharibə qaçılmaz olmuşdu.

Səlcuqlar 1035-ci il və 1038-ci illərdə iki dəfə Sultan Məsudun qüvvələrini məğlub etdilər. Qəznəvilər Xorasan bölgəsindən geri çəkilməli oldular. Nəhayət, 1040-cı ildə baş verən döyüşdə də səlcuqlar qalib gəldilər. Artıq dövlətin ağırlıq mərkəzi şərqə keçmişdi. Qəznəvilərin əlində ancaq Əfqanıstan, Hindistanın isə şimal bölgələri qalmışdı. Sultan Məsud 1041-ci ildə qardaşı Məhəmmədin əmri ilə öldürüldü. Məhəmmədin hakimiyyəti uzun olmadı. Sultan Məsudun oğlu Mövlud ona qarşı qiyam qaldırdı. Məhəmməd və övladları edam olundu. Mövlud Hindistanda hərbi qüvvə topladı və səlcuqlara qarşı

çıxdı. Lakin bu qüvvələr Səlcuq qoşunları tərəfindən məğlub edildi. Qəznəvilər paytaxtlarını Lahor şəhərinə köçürdülər. XI əsrin ortalarından Qəznəvilər dövləti getdikcə zəifləməyə və öz mövqelərini tədricən itirməyə başladılar. 1187-ci ildə Xosrov Məliyin hakimiyyəti dövründə Qəznəvilər dövləti süqut etdi.

**Qəznəvilər dövləti mədəniyyət və sənət baxımından çox yüksək bir səviyyəyə çatmışdı. Xüsusilə Sultan Mahmud dövründə paytaxt və saray bilik, elm adamları ilə dolmuşdu. Böyük saraylar tikilir və bunlar mədəniyyət mərkəzinə çevrilirdi.** Bu gün İranda yerləşən Bazar Ulu məscidi, II Məsud minarəsi və bir çox memarlıq abidələri həmin dövrün tarixi yaddaşıdır. Qəznəvilər dövlətində xalq və ordu türk dilində danışırdı. Lakin ölkədə bütün yazışmalar və elmi dil fars və ərəb dilləri idi. Ədəbi və elmi əsərlər daha çox bu iki dildə yazılmışdı.

Qəznəvilərin hakimiyyəti dövründə İbn Sina və Biruni kimi dünya şöhrətli alimlər yetişmişdir. İbn Sina və Biruninin əsərləri həm Qərbdə, həm də Şərqdə yüz illər boyu qiymətli bir dərslik kimi böyük təhsil ocaqlarında istifadə olunmuşdur.

## 3. Xarəzmşahlar dövlətinin yaranması

Aral gölünün cənubu, Xivə ətrafı və Amu-Dərya çayının şimal sahilləri Xarəzm adı ilə tanınır. Bura şərqdən qərbə və cənubdan şimala uzanan yolların qovuşduğu bir ərazidir. Ona görə də həm hərbi, həm də ticarət baxımından mühüm əhəmiyyət kəsb edən bir bölgədir. Qədimdən bəri türklərin çox sıx yerləşdikləri Xarəzmın mərkəzi Ürgənc şəhəri idi. Ölkəni idarə edən əmirlər burada oturur və bunlara Xarəzmşah deyilirdi. Bunlardan islam dövrünə qədər gələn sülalə Ağ Hunlara mənsubdur. Ərəb işğalından sonra bunlara ərəb canişinləri təyin edilmişdisə də, yerli rəhbərlərə toxunulmamışdır. Daha sonra buralar Samanilərin, Qəznəvilərin və Səlcuqların əlinə keçmişdir. Onların zamanında da buralara təyin edilən

canişinlər özlərini Xarəzmşah elan etmişlər və beləcə bir neçə sülalə dəyişmişdir. Son Xarəzmşahlar dövlətini quran sülalə oğuzların bəydili qoluna mənsub olan Qəznə türklərindən Anuştəkin oğullarıdır.

996-cı ilə qədər Xarəzm iki hissəyə ayrılırdı. Elə həmin ildə Şimali Xarəzmın hakimi, mənşəcə türk olan **Məmun ibn Məhəmməd Xarəzmın hər iki hissəsini birləşdirərək, mərkəzi Ürgənc olmaqla Xarəzm dövlətinin əsasını qoydu.** Qəznəvi sultanı Mahmud bu əraziləri işğal etməyi planlaşdırdı. Bunun üçün də öz qızlarını Məmun ibn Məhəmmədin oğlanlarına verdi. Öz məqsədinə diplomatik nigahla nail ola bilməyən Sultan Mahmud, güc vasitəsilə bu bölgənin işğalına başladı. 1017-ci ildə baş vermiş döyüşdə Sultan Mahmud qalib gəldi və Xarəzm Qəznəvilər dövlətinə birləşdirildi. Xarəzm canişinliyinə Altunşah adlı bir türk sərkərdəsi təyin edildi.

Səlcuq dövləti yarandıqdan sonra Qəznəvilərin sıxışdırılması başlandı. Səlcuqlar Xorasan bölgəsinin işğalını başa çatdırdıqdan sonra, başqa bölgələrə də daxil oldular. 1043-cü ildə Səlcuq ordusu Xarəzmə daxil oldu və həmin bölgə səlcuqların asılılığını qəbul etdi. XI əsr və XII əsrin birinci yarısında Xarəzm Səlcuq dövlətinin tərkibində qaldı. Səlcuq hökmdarı Məlik şahın xidmətində olan Anuştəkin 1072-ci ildə Xarəzm canişinliyinə təyin edildi. Sonra yerinə oğlu Qütbəddin Məhəmməd keçdi. Onlar Xarəzmi səlcuqlara bağlı idarə etdilər. 1127-ci ildə Xarəzm canişini olan Ələddin Atsız qarşısına müstəqil dövlət qurmaq vəzifəsini qoymuşdur. O, Sultan Səncərin sadiq köməkçisi kimi onun bütün yürüşlərində iştirak etmişdir. Sultan Səncərin hər hansı bir uğursuz yürüşü olan kimi o, bundan istifadə edərək Xarəzmın mərkəzi hakimiyyətdən asılılığını azaldırdı. 1153-cü ildən başlayaraq müstəqillik uğrunda mübarizə aparmışdır.

**1156-cı ildə Ələddin Atsızın ölümündən sonra, yerinə oğlu Arslan keçdi. Artıq həmin vaxtdan etibarən Anuştəkin oğulları Xarəzmşahlar dövlətinin tam müstəqilliyinə nail**

**oldular.** 1172-ci ildə hakimiyyətə gələn Ələddin Təkişin zamanında dövlətin ərazisi xeyli genişləndi. O, öz hakimiyyətini möhkəmləndirərək qarakitaylara qarşı uzun müddət mübarizə aparmalı oldu. Qarakitayları məğlub etdi. Daha sonra Kanglı və Qıpçaq türklərini də tabeliyinə keçirdi. Dövlətin hərbi gücünü xeyli artırdı. 1182-ci ildə Buxaranı, 1187-ci ildə Xorasanın böyük bir hissəsini işğal etdi. İraq Səlcuq dövlətini məğlub edərək imperiyanın tərkibinə daxil etdi. Rey, Qəzvin, Həmədan kimi böyük mərkəzlərə öz canişinlərini təyin etdi. Ələddin Təkiş 1200-cü ildə öldüyü zaman dövlətin sərhədləri Aral gölündən Bağdada qədər uzanırdı. Onun yerinə keçən oğlu Məhəmməd dövlətin sərhədlərini daha da genişləndirdi. 1212-ci ildə Xarəzmşah Məhəmməd Qarakitay dövlətini tamamilə aradan qaldırdı. Bu zaman Monqol dövləti işğalçılıq müharibələrinə başlamışdı. Çingiz xan başlanğıcda Xarəzmşahlar dövləti ilə ticarəti inkişaf etdirməyə başladı. İki ölkə arasında elçilər gəlib-gedirdi. Aralarında ticarət sazişi imzalanmışdı. Çingiz xan sazişə əsasən Otrar şəhərinə bir ticarət karvanı göndərdi. Otrar canişini Yınal karvandakıları tutdurdu və öldürtdü. Bu hadisəni öyrənən Çingiz xan bir elçi göndərərək Yınalın ona təslim edilməsini istədi. Xarəzmşah bu elçini də öldürtdü, artıq müharibə qaçılmaz olmuşdu. Orta Asiya xalqları öz doğma torpaqlarını müdafiəyə qalxdılar. Beləliklə, monqollar tərəfindən işğal olunan Xarəzmşahlar dövləti 1220-ci ildə süqut etdi. Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin dövlətin dağılmaması üçün ordunu yenidən toplamağa çalışsa da buna nail ola bilmədi.

Orta Asiyada suvarma sisteminin genişlənməsi, ölkənin bir çox bölgələrində köçəri tayfaların böyük bir hissəsinin oturaq həyata keçmələri Amu-Dərya vilayətlərində, Aral gölü, Xəzər dənizi sahillərində əkinçiliyin, sənətkarlığın, ticarətin genişlənməsi bu diyarda iri yaşayış məskənlərinin yaranmasına səbəb oldu. Buxara, Səmərqənd, Ürgənc, Bəlx, Otrar, Mərv və

başqa şəhərlərin inkişafı ölkənin mədəni həyatına böyük təsir göstərdi. Bu dövrdə şəhərlərdə mədrəsələr yaradılmış və burada təlim işləri xeyli yüksəlmişdi. Bu tədris ocaqlarında dini ayinlərlə yanaşı, bir sıra fənlər də tədris olunurdu. Ölkədə iri feodal torpaq sahibliyi mövcud idi. İqta torpaq sahibliyi geniş yayılmışdı. Bu, orduda xidmətə görə əmirlərə verilən iri torpaq sahələri idi. İqta torpaq sahibliyi sayəsində güclənən əmirlər bundan istifadə edərək mərkəzi hakimiyyətə qarşı çıxırdılar.

# OĞUZ DÖVLƏTİ

## 1. Oğuz köçləri. Oğuz dövlətinin yaranması

Oğuzlar türk tayfalarının ümumi adıdır. Əvvəlcə «Boz ox»lar və «Üç-ox»lar adı ilə iki böyük qrupa, sonra isə yarımqruplara bölünmüşdülər. Oğuz sözü əvvəlcə «Oxuz» olmuş və zaman keçdikcə Oğuz şəklində söylənmişdir. «Ox» isə «qəbilə», «boy» mənasında işlənirdi. **Buna görə də Oğuz sözü siyasi bir quruluş halında birləşən bütün türk boylarını ifadə edir.** Oğuz adına ilk dəfə Yenisey abidələrində rast gəlinmişdir. Bu kitabələrdə qeyd olunan məlumata görə VII əsrdə oğuzlar altı boy halında, sonra doqquz boydan ibarət olmuşlar. Nəhayət, oğuzlar 24 tayfanı özündə birləşdirmişlər. Göytürk xaqanlığının tərkibində doqquz oğuz tayfa ittifaqı mövcud idi ki, bu tayfalar içərisində uyğurlar çoxluq təşkil edirdilər. Doqquz oğuzlar II Göytürk xaqanlığına tabe olmaq istəməmiş, Elteriş xana qarşı çıxmışlar. Elteriş xan 682-ci ildə oğuzları məğlubiyyətə uğradaraq, xaqanlığa tabe etdi. Lakin Qapağan xan zamanında oğuzlar yenə müstəqilliyə nail olmağa çalışdılar. Bu dəfə Bilgə və Gültəkin qardaşları tərəfindən məğlub edildilər. Göytürk kitabələrində Bilgə xan «Doqquz Oğuz xalqı öz xalqım idi» deyir, yəni onların ayrı bir millət, ayrı bir soy olmadığını, öz xalqı olduqlarını açıqlayır.

Uyğur xaqanlığı yarandığı zaman əhalinin mühüm bir hissəsini yenə bu oğuzlar təşkil edirdi. Oğuzlar uyğurlara qarşı çıxdılar və məğlub olduqdan sonra qərbə doğru köçməyə başladılar. Bu köç IX əsrin ortalarına qədər davam etdi. Onlar Mavərənnəhrə gəlmiş və bu yerlərdə yaşamışlar. Oğuzlar X əsrin birinci yarısında Xəzərin şərq sahillərindən Sır-Dərya çayının orta axarlarına qədər olan ərazidə yaşayırdılar. Oğuzların əhalisi sıx olan bölgələri Sır-Dərya çayının sahilləri idi. Sır-Dərya sahili və Aral gölü ətrafındakı torpaqların əvvəlki sahibləri peçeneqlər olmuşdur. Onlar arasında ağır

döyüşlər olmuş, oğuzlar peçeneqləri qərbə tərəf sıxışdıra bilmişlər. Yurdlarından qovulan peçeneqlər Volqa çayını keçərək Qara dənizin şimalına getmişlər. Onlar qısa bir müddətdə Don çayı ilə Dunay çayı arasındakı torpaqları ələ keçirə bildilər. Oğuzlar, yəni bu ad altında birləşən türk tayfaları Sır-Dərya sahillərində xeyli çoxaldılar. **Yeni şəhərlər salan oğuzlar X əsrin ortalarına yaxın bir dövlət qurdular. Bu dövlət «Oğuz dövləti» və ya «Yabqu dövləti» adı ilə tanınırdı.** Oğuzlar qurduqları dövlətə də, dövlətin başçısına da **«yabqu»** deyirdilər. Bu, oğuzları hunlara bağlayır, oğuzların hun soyundan olduğunu göstərir. Hunlar zamanında «yabqu» böyük xaqan mənası daşıyırdı. Başda bir yabqu (hökmdar) olur, ordunun başında isə bir subaşı (ordu başçısı) dururdu. Yabqunun köməkçisi «Kül-Erkin» adı daşıyırdı. **Məsudinin yazdığına görə oğuzlar çox igid və döyüşkən xalq idi.** Onların yaxşı silahlanmış ordusu var idi. Döyüşçülər ox və qılıncla silahlanırdılar.

Oğuz adı türklərin ümumi adı kimi işlənmiş, ancaq bununla bərabər «türkmən» adını da işlətməyə başladılar. İslamı qəbul etdikdən sonra İslam ölkələrində daha çox «türkmən» adı ilə tanınmağa başladılar. Türkmən adı Oğuz müsəlmanlarına verilmişdir. Türk dünyası xalqlarının islam dinini qəbul etmələri onların arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsinə, vahid dini ideologiya zəminində bir-birlərinə yaxınlaşmalarında mühüm rol oynadı.

Oğuzların əksəriyyəti köçəri həyat sürərək maldarlıqla məşğul idilər. Onların başlıca sərvətləri qoyun sürülərindən, at ilxılarından, dəvələrdən ibarət idi. Oğuzların Sır-Dəryanın şimal bölgələrində məskunlaşan hissəsi şəhərlərdə yaşamış, hərbi səfərlərdə iştirak etməyərək oturaq həyat sürmüşlər. Oturaq həyat sürən oğuzlar köçəri qardaşlarından fərqli olaraq öz milli mədəniyyətlərini yaratmışlar. Oğuzlar qonşu ölkələrlə geniş ticarət əlaqələri saxlayırdılar. Oğuz elindən keçən ən böyük ticarət yolu Xarəzmdən Volqa bölgəsinə gedirdi. Oğuz

dövləti 1000-ci illərdə dağıldı. Oğuzlar XI əsrdən etibarən Orta və Yaxın Şərqə, Balkanlara və Mərkəzi Avropaya qədər gedib çıxdılar. Onlar dünya tarixində bir sıra imperatorluqlar, dövlətlər, atabəyliklər, bəyliklər qurmuşlar.

## 2.Səlcuq imperiyasının yaranması.

Oğuz dövlətində subaşı (ordu başçısı) vəzifəsini Qınıq tayfasının bəyləri aparır, bu vəzifəni irsi olaraq əllərində saxlayırdılar. Oğuz dövlətinin subaşısı Qınıq tayfasının bəyi Dukak bəy olmuşdur. "Dəmir yaylı" ləqəbi ilə tanınan Dukak bəydən sonra subaşı onun oğlu Səlcuq bəy oldu. Bir müddətdən sonra Yabqu ilə arası dəyən Səlcuq bəy özünə tabe oğuz tayfaları ilə birlikdə Aral gölünə doğru köç etdi. Bu köçün əsl səbəbi yer darlığı və geniş otlaqların olmaması idi. Səlcuq bəy bu yeni bölgədə özünə məxsus oğuzlarla birlikdə müsəlman oldu. Səlcuq bəy islam dinini qəbul etdikdən sonra bu dinin bütün türklər arasında yayılması uğrunda mübarizə aparmışdır. Oğuz dövlətinin yabqusu hələ bu vaxt müsəlmanlığı qəbul etməmişdi. Bundan istifadə edən Səlcuq bəy müsəlman oğuzların onun ətrafında birləşməsinə nail oldu. Səlcuqlar Qaraxanlı və Qəznəvi dövlətləri tərəfindən sıxışdırıldıqları üçün çox keçmədən qərbə doğru axınlara başladılar. Özlərindən əvvəlki türk tayfaları kimi səlcuq türklərinin də əsas hücum hədəfi Bizans torpaqları oldu. İki qardaş Çağrı bəy və Toğrul bəy Oğuz tayfaları üçün qərbə geniş miqyaslı bir kəşfiyyat səfəri etmək qərarına gəldilər. Çağrı bəy 1015-ci ildə ilk kəşfiyyat yürüşünə çıxdı. **Çağrı bəy Bizans qoşunlarına qalib gələrək Van gölü hövzəsini ələ keçirdi.** Çağrı bəy Van ətrafını ələ keçirdikdən sonra şimala istiqamət götürdü. Burada gürcü ordusu onunla vuruşmağa cəsarət etməyərək geri çəkildi. Şərqi Anadolu bölgəsində yerləşən ermənilər Çağrı bəyin qarşısını almağa çalışsalar da məğlub oldular. Çağrı bəy bu bölgədə bir müddət qaldıqdan sonra 1021-ci ildə qardaşı

Toğrul bəyin yanına qayıtdı. Bu kəşfiyyat səfəri zamanı yurd edə biləcəkləri bölgəni müəyyənləşdirmiş oldular.

Həm Qəznəvi, həm də Qaraxanlı dövlətləri Səlcuq oğuzlarının güvvətlənnməsindən narahat olmuşdular. Bu vəziyyəti qiymətləndirən Yusif Qədir xan 1025-ci ildə Səmərqənd yaxınlığında Mahmud Qəznəvi ilə görüşdü. Bu görüşdə Yusif Qədir xan səlcuqların Qəznəvi dövləti üçün də böyük bir təhlükə olduğunu söylədi və Sultan Mahmuddan onların Mavərənnəhrdən uzaqlaşdırılmasını və ya zərərsiz hala gətirilməsini xahiş etdi. Sultan Mahmud da onunla eyni fikirdə idi. Sultan Mahmud Arslan yabqunu hiylə ilə tutdurdu və Hindistana sürgün etdi.

Arslan yabqunun tutulmasından sonra ona tabe olan oğuzlar dağıldılar. Çağrı və Toğrul qardaşları onları bir yerə toplamaq üçün çalışdılar. Ənənəyə və təşkilat şərtlərinə uyğun olaraq Musa bəyi yabqu seçdilər. Çağrı və Toğrul qardaşları ilə yabqu elan etdikləri əmiləri Musanın türkmənləri arasında həmrəylik, bağlılıq möhkəm idi. Onlar Xorasana köçməyə qərar verdilər. Xorasan istiqamətində irəlilədikcə orada başsız qalmış türkmənlər də onlara qoşuldular. Onların Xorasana gəlişi Sultan Məsudu narahat etdi. Çünki asılılıqda qalmaq istəməyən bu döyüşkən oğuzların baş qaldıracaqlarını, ona qarşı çıxacaqlarını bilirdi. Ona görə Nişapura gedərək böyük bir ordu düzəltdi. **1035-ci ildə səlcuqlar qəznəvilər üzərində qələbə qazandılar. Bu məğlubiyyətdən sonra Sultan Məsud onlara məskunlaşmaq üçün ərazi verdi. Onlar Xorasanda məskən saldılar. 1038-ci ildə ikinci döyüşdə də qəznəviləri məğlub edərək paytaxtı Nişapur şəhəri olan Səlcuq dövlətini yaratdılar.**

Toğrul bəy sultan elan olundu. Sultan Toğrulun hakimiyyəti illərində səlcuqlar daha da güvvətləndilər. 1040-cı ildə Səlcuq oğuzları Mərv yaxınlığındakı Dəndənəkan qalasının önündə qəznəvilərlə döyüşə girdilər. Döyüş üç gün davam etdi. Səlcuq oğuzları başçılarına olan böyük inamla, bütün güc və cəsarətlə

döyüşərək Qəznəvi ordusunu məğlubiyyətə uğratdılar. Sultan Məsudun xəzinəsi, xeyli silah və sursatı səlcuqların əlinə keçdi. Bu qələbə ilə Səlcuq oğuzları arzularına çatmış, tam müstəqillik əldə etmişdilər. Şərq bölgələri Çağrı bəyə ayrılmışdı. Çağrı bəy Amu-Dərya ilə Qəznə arasındakı bölgəni idarə etməli idi. Yeni dövlətin yaranmasında, qələbələrin əldə olunmasında Çağrı bəyin rolu böyük olmuşdur. Sistan bölgəsi mərkəzi Herat olmaqla Musa yabqu tərəfindən idarə olunmalı idi.

Hakim sülalənin nümayəndələri də bir sıra bölgələrin idarəçiliyinə təyin edildilər. Bütün bunlar Toğrul bəyin tabeliyində olacaqdı. Bu bölgə üzrə bölünmüş vilayətlər və şəhərlər uğrunda işğallar başladı. Şərqdə Musa yabqu Sistan bölgəsini hakimiyyəti altına aldı. Beləliklə, qəznəvilərin hücumlarının qarşısı alındı. 1043-cü ildə Xarəzm də səlcuqların idarəsi altına keçdi. Səlcuqlar Həmədan və İsfahana da hücum etdilər. 1045-1050-ci illərdə bu ərazilər işğal olundu. Qərbi İranın işğalı başa çatdırıldıqdan sonra Səlcuq qüvvələri İraqa daxil oldular. 1055-ci ildə Bağdad da daxil olmaqla İraq işğal olundu. İraq bölgəsi də Sultan Toğrulun idarəçiliyində idi.



**Abbasilər xəlifəsi Sultan Toğrulu bütün «Şərqin və Qərbin» hökmdarı kimi tanımağa məcbur oldu.** Toğrul bəy Abbasi xəlifəsini öz himayəsinə almış, İslam dünyasının qorunmasını təmin etmişdi. Toğrul bəy Bağdadda olarkən müstəqillik arzusundan əl çəkməyən əmisi oğlu İbrahim Yınal xeyli güclənmiş və yenə ona qarşı çıxmışdı. Bu dəfə onun üstünə hərbi güclə gələn Sultan Toğrul Rey şəhərində onu məğlub edərək aradan götürdü. 1063-cü ildə Sultan Toğrul Reydə vəfat etdi. Toğrul bəyin övladı olmadığından vəziri taxta qardaşı oğlu Süleymanı çıxartdı. Onu Toğrul bəyin əmisi oğlu Kutalmış bəy də müdafiə edirdi. Lakin Oğuz bəylərinin böyük çoxluğu həmin qərarı düzgün saymadılar və sultanlığa Alp Arslanın layiq olduğunu söylədilər. Alp Arslan da hakimiyyəti başqasına vermək istəmirdi. Süleyman və Kutalmışı məğlub edərək Reyə daxil oldu. Alp Arslan sultanlığını elan etdikdən sonra milli birliyi saxlamaq, dövləti daha da gücləndirmək üçün fəaliyyətə başladı. Onun hakimiyyəti dövründə Səlcuq dövləti qüdrətli bir dövlətə çevrildi.

### 3. Azərbaycan Səlcuq oğuzlarının hakimiyyəti dövründə

XI əsrin ortalarında Azərbaycan ərazisində mövcud dövlətlər arasında iqtisadi və siyasi əlaqələr çox zəif idi. Azərbaycan feodal dağınıqlığı dövrünü yaşayırdı. Tez-tez baş verən feodal ara müharibələri ölkə iqtisadiyyatına və onun mədəni həyatına təsir edirdi. Bu da ölkənin müdafiə qabiliyyətinin zəifləməsinə səbəb olurdu. Səlcuq qoşunları İranın işğalını başa çatdırdıqdan sonra XI əsrin 50-ci illərinin ortalarında Azərbaycana daxil oldular. Səlcuq türkləri Azərbaycanı asanlıqla ələ keçirdilər. Belə ki, bir-biri ilə düşmən münasibətdə olan Rəvvadilər, Şəddadilər və Şirvanşahlar dövlətləri Səlcuq qüvvələrinə qarşı birləşə bilmədilər. Səlcuq imperiyasının yaranmasından çox əvvəl Azərbaycan qədim türk tayfalarının yaşadığı əraziyə daxil idi.

Səlcuq axınları zamanı yeni türk tayfaları Azərbaycanda yerləşdilər. Eyni kökdən olan və islamı qəbul etmiş Səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar. Səlcuq axınları nəticəsində oğuzlar bütün Cənubi Qafqazda və Ön Asiyada başlıca etno-siyasi amilə çevrildilər. Bu amil Yaxın və Orta Şərqin bütün sonrakı tarixində mühüm rol oynadı. Səlcuq türklərinin Cənubi Qafqazda yerləşmələri Bizans imperiyasının işğalçılıq planlarını puça çıxardı.

Səlcuqların uğurlu xarici siyasəti Bizans imperiyasını narahat etməyə başladı. Bizans Səlcuq türklərinin hücumu qarşısında lazımi tədbirlər görülməsə imperiyanın dağılacağını anlamışdı. Yeni imperator Roman Diogenin ilk işi yeni qüvvələr toplamaq oldu. Başqa xalqlardan topladığı muzdlu əsgərlərlə ordusunu böyütdü.

**Alp Arslan da hakimiyyətinin ilk illərindən başlayaraq ordunun möhkəmləndirilməsinə böyük diqqət verdi. Bacarıqlı sərkərdələri orduya cəlb etdi. Səlcuqlar Gürcüstanı işğal edərək Bizans qalalarından olan Anini mühasirəyə aldılar. Qalanın möhkəm qorunmasına baxmayaraq türk qoşunları tərəfindən alındı.** Alp Arslanın uğurlu xarici siyasətindən qorxuya düşən Bizans imperiyası onların qərb istiqamətində yürüşünü dayandırmaq məqsədilə böyük hərbi hazırlıqdan sonra 1071-ci ildə müharibəyə başladı. Bizans imperatoru sultanla harada qarşılaşsa, orada da vuruşmağa qərar verdi. Çünki o, böyük ordu toplaya bildiyi üçün qələbəyə əmin idi.

Səlcuqların mərkəz qüvvələrinin başında sultan Alp Arslan durmuş, sağ cinah Kutalmış oğlu Süleymana həvalə edilmiş, sol cinah əmir Sanduq və digər əmirlərin öhdəsinə verilmişdi. Pusquda duran qüvvələr isə düşmən hissələrini mühasirəyə edərək, onları ox yağışına tutmalı idilər. 1071-ci il avqustun 26-da Malazgird yaxınlığında türk ordusu bir az müqavimət göstərdikdən sonra taktiki uyğun olaraq geri çəkilməyə başladı. Düşmən ordusunun mərkəz qanadını arxasınca apardı**. Bizans**

**qüvvələrini əzmək üçün pusquda yerləşən türk qüvvələri öz vəzifələrini yerinə yetirdilər. Düşmən mühasirəyə düşdüyünü başa düşdüyü zaman iş işdən keçmişdi. Bizans ordusu darmadağın edilmişdi, əsirlər arasında imperator Roman Diogen də vardı.** Sultan imperatorun azad olunması müqabilində bir milyon yarım dinar almalı və hər il imperator 360 min qızıl verməli idi. İmperator eyni zamanda Bizansda olan müsəlmanlara sərbəstlik verəcəyinə söz verdi. Kiçik Asiyanın xeyli hissəsi səlcuqların əlinə keçdi. Bu hadisə səlcuqların sərhədlərini genişləndirməklə yanaşı, sultanın şöhrətini də yüksəltdi.

Roman Diogenin Səlcuq hökmdarı ilə apardığı danışıqların nəticəsindən xəbər tutan VII Mixael Bizans taxtını ələ keçirdi. O, Roman Diogeni ələ keçirərək gözlərini çıxartdı. O, bir müddətdən sonra öldü. Yeni Bizans imperatoru artıq türklərə qarşı mübarizə aparmağa qadir deyildi. Malazgird döyüşü türklərin Anadoluya yayılmasında mühüm rol oynadı. Artıq bu döyüşdən sonra türklər geri dönməyib Anadoluda yerləşdilər.

Alp Arslanın Bizansla müharibəyə başı qarışmasından istifadə edən Şəddadi hakimi səlcuqlara vergi verməkdən imtina etdi. Sultanın ölümü onu cəzalandırmağa imkan vermədi. Onun yerinə oğlu Məlikşah keçdi. Məlikşah ölkədə daxili sabitliyi qoruyub saxlamağa və Şərq sərhədlərini möhkəmləndirməyə başladı. Məlikşah yeni yürüşlərə başlamaq üçün hazırlıq işləri görməyə başladı. Sultan Məlikşah öz hakimiyyətini möhkəmləndirdikdən sonra müstəqilliyə can atan feodalları cəzalandırmaq üçün Azərbaycana silahlı qüvvə göndərdi. Şəddadilərin sonuncu hakimi Fəzlun hakimiyyətdən qovuldu. Beləliklə, 1088-ci ildə Məlikşah Şəddadilərin hakimiyyətinə son verdi. Sultan öz oğlu Məhəmmədi Gəncəyə hakim təyin etdi. Şirvanşahları isə vergi verməyə məcbur etdi. Bu dövrdə Səlcuq türklərinin Azərbaycana yeni axını gücləndi. Onlar burada tezliklə oturaq həyat tərzinə keçdilər və məskunlaşdılar. Məlikşah 1089-cu ildə Qərbi Qaraxanlı

dövlətini, 1090-cı ildə Şərqi Qaraxanlı dövlətini özünə tabe etdi. Artıq imperiyanın şərq sərhədləri Çin səddinə, qərb sərhədləri isə Qara dəniz boğazlarına qədər uzanırdı. Şimal sərhədləri Qafqaz dağlarına, cənub sərhədləri isə Hind okeanına çatırdı.

### 4. Səlcuq imperiyasının süqutu. İctimai və iqtisadi münasibətlər

Sultan Məlikşahın ölümündən sonra feodal ara müharibələrinin güclənməsi imperiyanın zəifləməsinə səbəb oldu. İraq, Kirman, Anadolu səlcuqları mərkəzi hakimiyyətdən tədricən uzaqlaşmağa, müstəqilliyə can atmağa başladılar. Məlikşahın yerinə keçən oğlu Börgüyarıq imperiyanın parçalanmasının qarşısını ala bilmədi.

Anadolu əmirlərinin ən məşhuru və ən güclüsü Kutalmışoğlu Süleyman idi. Sultan Məlikşah Süleymana Anadolu Səlcuq dövlətinin hökmdarlığını vermişdi. Bu sultanlıq Məlikşaha tabe idi və Anadolu Səlcuq dövləti tam müstəqil deyildi. Süleyman şahın bir sıra qələbələr əldə etməsi Səlcuq imperiyasına tabe olan əmirlər arasında narazılıqla qarşılandı. Bir sıra əmirlər ona qarşı çıxdılar. Birləşmiş qüvvələr Süleyman şahın əsgərlərini məğlub etdilər. Buna dözməyən Süleyman şah özünü öldürdü (1086). Məlikşah bu hadisəyə çox qəzəbləndi. Məlikşah Suriya məliyi olan qardaşının üstünə getsə də, qardaşının geri çəkilməsi onu müharibə fikrindən çəkindirdi. Məlikşahın ölümündən sonra Anadolu Səlcuq dövləti müstəqil oldu. **Səlcuqlu dövlətləri arasında ən mühümü və uzunömürlüsü Anadolu Səlcuq dövləti olmuşdu.**

XI əsrin sonlarına doğru Şərqdə yaranmış vəziyyət Qərbi Avropa feodalları və kilsəsinin işğalçılıq planlarının həyata keçirilməsinə əlverişli şərait yaradırdı. Qüdsün də türklərin əlində olması papalara Qərbdə müsəlman Şərqinə qarşı geniş

müharibə təbliğatına başlamaq üçün bəhanə verdi. Bu təbliğat Qərb dünyasında rəğbətlə qarşılandı. Bizans imperatoru Aleksey Komninin Qərbi Avropa hökmdarlarına müraciəti, Qərbi Avropa feodalları və kilsəyə özlərinin qəsbkarlıq niyyətlərini həyata keçirmək üçün bəhanə oldu.

Bu dövrdə bir-biri ilə ədavət edən bir neçə Səlcuq dövləti yaranmışdı. Onlar arasında siyasi birliyin olmaması səlibçilərin irəliləməsini asanlaşdırırdı. Lakin Səlcuq türkləri birləşərək səlibçilərə sarsıdıcı zərbələr endirdilər. Səlcuq türkləri o zaman Yaxın və Orta Şərqin siyasi xəritəsinin Qərbi Avropa dövlətlərinin xeyrinə dəyişməsinə imkan vermədilər.

Səlcuq imperiyasının ilk sultanlarının, yəni Məlikşah da daxil olmaqla həyata keçirdiyi sosial-iqtisadi və hərbi tədbirlər feodal münasibətlərini daha da möhkəmləndirdi, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına müəyyən qədər zəmin yaratdı. Onların dövründə ölkədə şəhər təsərrüfatının genişləndirilməsinə böyük diqqət verilirdi. Həmin illərdə tikinti və abadlıq işləri aparılmış, böyük saraylar, məscidlər, mədrəsələr, iri karvansaralar tikilmişdir. Məlikşahın hakimiyyət illəri imperiyanın yüksəlişinin son mərhələsi oldu.

Orta əsrlərin başqa imperiyaları kimi Səlcuq imperiyası da uzun zaman yaşamadı. Ölkənin böyük sənətkarlıq və ticarət mərkəzləri ilə əlaqələrinin xeyli geniş olmasına, imperiyanın ərazisindən çox mühüm beynəlxalq karvan yolları keçməsinə baxmayaraq, Səlcuq imperiyasının əhatə etdiyi torpaqların və xalqların vahid iqtisadi-siyasi mərkəz ətrafında sıx birləşməsi mümkün deyildi. Lakin Səlcuq imperiyası türk xalqlarının hərbi-siyasi, sosial-iqtisadi və mədəni inkişafına güclü təsir göstərdi. **1157-ci ildə Səlcuq imperiyası süqut etdi. Səlcuq imperiyasının süqutunu sürətləndirən bir neçə səbəb var idi:**

1.İmperiya daxilinə tabe olan xalqların azadlıq, müstəqillik uğrunda apardıqları mübarizə mərkəzi hakimiyyəti zəiflədirirdi.

2.Hakimiyyət uğrunda mübarizələr də dövlətin zəifləməsinə və parçalanmasına səbəb olurdu.
3.Səlcuq imperiyası güclü olduğu zaman xəlifə yalnız dini işlərlə məşğul olurdu, dövlət işləri Sultan tərəfindən idarə edilirdi. Lakin imperiya zəiflədikdə xəlifə dövlət işlərinə qarışmağa başlamış, bu da Səlcuq sultanları ilə xəlifə arasında mübarizəyə səbəb olmuşdur. Bu mübarizə dövlətin süqutunu sürətləndirmişdir.
4.İmperiyanın zəifləməsindən istifadə edən Atabəylər məhəlli hökumətlər qurmuş, bu da imperiyanın parçalanmasına səbəb olmuşdur.
5.Vaxtilə hərbi xidmət müqabilində Səlcuq sultanlarının bütöv vilayətləri, mahalları iqta olaraq bağışladığı ayrı-ayrı sərkərdələr, əyalət hakimləri artıq mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Müstəqillik meylləri imperiyanın dağılmasını sürətləndirirdi.

# OSMANLI İMPERİYASI

## 1.Osmanlı dövlətinin yaranması

**Türk dünyası tarixində qüdrətli dövlətlərdən biri Osmanlı imperiyasıdır. Bu dövləti quran və ona öz adını verən Osman Oğuz türklərinin Qayı boyundandır.**

Orta Asiyada monqol işğalları başladıqda türkmən tayfaları Anadoluya doğru köç etməyə başladılar. Bu tayfalar içərisində Ərtoğrulun başçılıq etdiyi Qayı boyundan kiçik bir qəbilə də var idi. Bunlar Əhlət yaxınlığında yerləşdilər və burada bir müddət qaldılar. 1230-cu ildə Yassıçəmən döyüşündə Xarəzmşah Cəlaləddinə qarşı Anadolu Səlcuq dövlətinin başçısı Ələddin Keyqubadın tərəfində olmuş, onun qələbəsində mühüm rol oynamışlar. Bu xidmətləri müqabilində Anadolu Səlcuq sultanı onlara Ankara yaxınlığında məskunlaşmaq üçün Söyüdlü qəsəbəsini və Domanıçı yaylağını vermişdir.

Ərtoğrul bəyin ədaləti, xalqa olan yaxşı davranışı və yardımları o qədər çox idi ki, hətta xristianlar da onu sevməyə başladılar. Ərtoğrul bəy ətrafdakı bəyliklərlə daima yaxşı keçinərək tayfa və yaxınlarını əmin-amanlıq və rahatlıq içərisində yaşatdı. Anadolu səlcuqlu hökmdarları arasında baş verən hakimiyyət davalarına heç qarışmadı. Ərtoğrul bəy 1281-ci ildə öldü və yerinə oğlu Osman keçdi. Osmanın qayıların başına keçməsinə qardaşları Sarıbatı Savcı və Gündüz Alp etiraz etmədilər. Lakin əmisi Dündar ona qarşı çıxdı. Amma Osman bəyin öz adamları onun başçı olmasına israr etdilər. Onsuz da Osman atasının sağlığında qardaşlarından fərqli bir bacarığa sahib olduğunu göstərmişdi. **Şəxsi cəsarəti, zəkası, mərdliyi və hər tərəfə yayılmış şöhrəti ilə Osman bəy rəqib tanımayan bir gücə çatmışdı.** Osman bəy bəylik başçısı olduqdan sonra bizanslılardan bəzi yerləri alaraq sərhədlərini genişləndirməyə başladı. Anadoluda yaşayan türkmənlər də Osman bəyin bəyliyinə qatılır, türk əhalisini əhəmiyyətli

dərəcədə artırırdılar. Türklərin getdikcə çoxaldıqlarını, gücləndiklərini görən digər hökmdarlar onları narahat etməyə, zərər verməyə başladılar. Osman bəy də onlarla bir-bir hesablaşmaq məcburiyyətində qaldı və müharibələrə başladı.

Osman bəy İnəgöl, Qaracahisar başçılarını məğlub etdikdən, Göynük və Tarakçı Yenicəsini də aldıqdan sonra müharibələrə bir müddət ara verərək ordusunu güvvətləndirdi. O, ciddi hərbi hazırlıqdan sonra Biləciyə hücum etmək qərarına gəldi. Biləcik hökmdarı isə Osman bəyə qəsd etmək fikrində idi. Bundan xəbər tutan Osman bəy Biləcik hökmdarına qarşı gizli tədbirlər gördü. Baş vermiş döyüşdə Biləcik hökmdarının bütün silahlı qüvvələri məhv edildi. 1298-ci ildə Biləcik, Yarhisar, İnəgöl ələ keçirildi. Osman bəy ona qəsd etmək istəyənləri öz toruna salmış, onlara layiq olduqları cəzanı vermişdi. **Osman bəy 1299-cu ildə öz adı ilə adlanan Osmanlı dövlətinin əsasını qoydu. Biləciyi özünə paytaxt etdi. Artıq bəy deyil, dövlət başçısı idi. Bundan sonra bir yandan Bizans qalalarını bir-bir ələ keçirir, bir yandan da Anadolu bəyliklərini özünə tabe etməyə çalışırdı.**

Osman bəyin ən böyük məqsədlərindən biri də Bursanı ələ keçirmək idi. 1315-ci ildən başlayaraq Bursanı mühasirəyə aldılar. Bu mühasirə uzun çəkdi, bu arada başqa kiçik qalaların işğalı davam etdi. Bursa qalası çox möhkəm idi, yaxşı qorunurdu. 1320-ci ildən Bursanın mühasirəsini Osman bəyin xəstəliyi ilə bağlı oğlu Orxan bəy davam etdirirdi. Bursanın iki tərəfində qala tikildi. Qalaların tikilməsindən sonra Bursanın ətrafı tam işğal edildi. Bursanın hər tərəfdən əlaqəsi kəsilmiş, kömək gələ biləcək bütün yollar tutulmuşdu. 1326-cı ildə Bursa təslim oldu. 1326-cı ildə Osman bəy öldü, onun yerinə oğlu Orxan Osmanlı dövlətinin başına keçdi. Bursanı dövlətin yeni paytaxtı edən Orxan bəy Konstantinopola daha asan daxil olmaq üçün o istiqamətdə işğalları davam etdirdi. Bolu, Kandıra, Aydos işğal olundu. İznik mühasirəyə alındı. Türklərin Mərmərə dənizi sahillərinə çatdığını görən Bizans

imperatoru onları dayandırmaq üçün qoşununu hərəkətə gətirdi. Türklər Bizans ordusunu tamamilə dağıtdılar. 1329-cu ildə İznik əhalisi osmanlıların ədalətinə sığınaraq təslim oldu. İzniki təslim alan Orxan bəy arzu edənlərin əşyaları ilə birlikdə getmələrinə icazə verdi. Qalmaq istəyənlərə isə vergi vermək şərti ilə qala biləcəklərini və öz ənənələrini pozmadan yaşayacaqlarını bildirdi. Xalqın bir hissəsi qalmağa, Osmanlı idarəsi altında yaşamağa üstünlük verdi. Orxan bəy İznik tutulduqdan sonra burada geniş bərpa işlərinə başladı. İri saraylar, möhtəşəm binalar, mədrəsələr tikildi.

**1331-ci ildə Daraqlı, 1334-cü ildə Kəmlik, 1335-ci ildə Armudlu işğal edildi. İznikdən sonra bölgənin böyük şəhəri olan İzmit mühasirəyə alındı. 1337-ci ildə İzmit təslim oldu.** İzmitin işğal edilməsi ilə Kocaelinin fəthi tamamlanmış olurdu. Orxan bəy İzmitə çoxlu türk ailələri köçürtdü.

XIV əsrin 30-cu illərində Bizansda güclü daxili çəkişmələr baş verdi. Bunun səbəbi hakimiyyət uğrunda mübarizənin başlaması idi. Bulqarlar, serblər və Konstantinopol əhalisi tərəfindən təzyiqlərlə üzləşən yeni Bizans imperatoru Orxan bəydən kömək istədi. Ona qızı Teodoranı da verməyi təklif etdi. Bu, Orxan bəyin Bizansın daxili işlərinə qarışması üçün bir fürsət oldu. Ona görə də təklifi qəbul etdi. İki hökmdar serb təhlükəsinə qarşı birləşməyi qərara aldılar. Orxan bəyin siyasəti əslində Bizansı qorumaq deyil, Serbiyanın genişlənməsinə mane olmaq idi. Orxan bəy serblərin Bizansa qarşı 1349-cu ildə və 1352-ci ildə hücumlarının qarşısının alınmasında köməklik göstərdi. 1352-ci ildə Üsküdar, Kadıköy və 1354-cü ildə Gelibolu türklər tərəfindən işğal olundu. Bu yerlərin işğalı ilə Avropa qitəsindəki Osmanlı torpaqları genişlənməyə başladı. Türk əsgərləri işğal olunmuş ərazilərin əhalisinə yaxşı münasibət göstərirdi. Türklər işğal olunmuş ərazilərdə tədricən möhkəmləndilər. Türklər artıq Anadolu kimi Rumelini də yurd eləməyə, türkləşdirməyə başladılar. Bizans imperiyası xeyli daralmış, boğazlar türklərin tabeliyinə keçmişdi.

## 2. Osmanlı imperiyasının yaranması

Orxan bəyin böyük oğlu Süleyman Rumelinin işğalı zamanı 1359-cu ildə öldü. Orxan bəy Osmanlı taxtına oğlu Muradı vəliəhd təyin etdi. Orxan bəyin 1362-ci ildə ölümündən sonra hakimiyyətə I Murad gəldi. Murad hakimiyyətə gəldiyi zaman qardaşları Xəlil və İbrahim hakimiyyəti ələ almağa çalışdılar. Ancaq Murad qardaşlarını aradan götürərək hakimiyyət davasına son qoydu. O, dövlət idarə işlərində xeyli təcrübəyə malik idi. I Murad Ədirnəyə gedən yolları qısa bir müddətdə ələ keçirə bildi. Bu qələbələrdən sonra Murad Ədirnə üzərinə yürüş etdi. Türk qoşunlarının hücumlarının qarşısını ala bilməyəcəklərini görən Bizans qoşunları geri çəkilməyə məcbur oldular. **Ədirnə 1362-ci ildə türk qoşunları tərəfindən işğal olundu. Ədirnənin işğalı Avropa dövlətlərində böyük əks-səda yaratdı. Ədirnəni paytaxt şəhəri edən Sultan Murad burada gözəl bir saray tikdirdi. Ədirnədə abadlıq işlərinə başladı. Bağlanmış müqaviləyə əsasən Bizans Rumelidə türklərin işğal etdikləri yerləri rəsmən türk torpaqları kimi tanıdı.** Türk dövlətinin ərazisi xeyli genişləndi. Bu böyük ərazini qorumaq üçün güclü ordu tələb olunurdu. Sultan I Murad bu zəruriyyəti nəzərə alaraq ordu quruculuğu işlərinə başladı.

Türklər Ədirnə və ətraflarını işğal etdikdən sonra Bizansın bolqarlar və serblərlə coğrafi əlaqələri kəsilmiş, birgə hərəkət etmələrinə imkan qalmamışdı. Bu vəziyyət xristian dünyasında qorxu və həyəcan yaratdı. Türklərə qarşı yeni bir Xaçlı ordusunun yaradılması gündəmə gətirildi. Qurulan Xaçlı ordusu Macar kralı Layoşun komandanlığı altında Ədirnəyə doğru irəlilədi. Xaçlı ordusu heç bir maneə ilə üzləşmədən Ədirnə yaxınlığında dayanmışdı. Türk ordusunun Anadoluda olduqlarını bildikləri üçün şəhəri alacaqlarına əmin idilər. Lakin türklər düşmənə ağır zərbə vurdular, kral Layoş çətinliklə xilas ola bildi. Türklər Frakiyanın, Bolqarıstanın və

Serbiyanın xeyli hissəsini ələ keçirə bildilər. Rumelidə 1364-cü ildə qazanılan bu qələbə türklərin qərbə doğru irəliləmələrinə şərait yaratmış oldu. Yaranmış təhlükəni nəzərə alaraq Bolqar kralı Osmanlı hakimiyyətini tanımalı oldu. Eyni zamanda bolqarlar serblərlə ittifaqa girərək qüvvələrini birləşdirdilər. 1367-ci ildə müttəfiqlər türklərə qarşı yenidən mübarizəyə başladılar. Bu dəfə də türk qoşunları müttəfiqləri məğlub etdilər. Serb və Bolqar krallığı ağır məğlubiyyətə məruz qaldılar.

**1371-ci il sentyabrın 26-da türk qoşunları Çirmən düzənliyində serbləri və müttəfiqlərini yenidən məğlubiyyətə uğratdılar.** Çirmən qələbəsindən sonra türklər bütün Makedoniyanı hədələməyə başladılar. Serbiya Osmanlı hakimiyyətini tanıyaraq illik vergi verməyi qəbul etdi.

Serb kralı Lazar türklərə əsgər və vergi verdiyi üçün ölkə daxilində etibarını itirmişdi. Lazar öz nüfuzunu bərpa etmək üçün türklərə qarşı mübarizə aparmaq qərarına gəldi. O, bu məqsədlə Bolqar və Bosniya kralı ilə razılığa gəldi ki, türklərə qarşı birgə hərəkət etsinlər. Serb kralı müttəfiqlərinin köməyi ilə qısa müddətdə böyük bir ordu yarada bildi. Bu ordunun tərkibində alban, xorvat, çex, slovak, macar döyüşçüləri var idi. Döyüşə başlamazdan əvvəl kral Lazar osmanlıların qüvvəsini öyrənmək üçün Sultan Muradın yanına elçilər göndərdi. Elçilər türk ordusunun güclü olmalarına baxmayaraq, sayca az olduğunu öyrənərək geri qayıtdılar. Sultan Murad hərbi müşavirə keçirdi. Müşavirədə döyüş meydanına düşməndən əvvəl daxil olmaq, əlverişli mövqe seçmək, ilk hücuma düşmənin başlamasına imkan vermək və düşmənə qarşı həlledici döyüşlərə başlamaq qərarına gəldilər. Hərbi şuranın qərarı ilə türk qoşunları Kosova yaylağına doğru irəlilədi. Mərkəzə Sultan Murad, sağ qanada şahzadə İldırım Bəyazid, sol qanada şahzadə Yaqub komandanlıq edəcəkdilər. Hər qanada min nəfər ox atan təhkim edilmişdi. Düşmənin silahlı qüvvələri də üç hissəyə bölünmüşdü.

**Döyüş 1389-cu il iyunun 20-də hər iki tərəfin güclü ox atəşi ilə başladı. Düşmən bütün gücü ilə türk ordusunun** sol qanadına zərbə endirdi. Şahzadə Yaqubun başçılıq etdiyi sol qanadın vəziyyəti ağırlaşdı. Kral Lazar da mərkəzə hücumunu gücləndirdi. Sultan Murad İldırım Bəyazidə sol qanadın köməyinə çatmasını əmr etdi. Əlavə kömək alan Yaqub döyüş meydanında təşəbbüsü ələ aldı. Beləliklə, düşmən iki tərəfdən mühasirəyə alındı və geri çəkilməyə başladı. Arxadan da türk əhatəsinə düşdü və məhv edildi. Serb kralı Lazar da döyüşdə öldürüldü. **Kosova döyüşü türklərin qəti qələbəsi ilə nəticələndi. Bu döyüş nəticəsində Osmanlı imperiyasının qərb sərhədləri Dunaya qədər uzandı. Bolqarıstandan sonra Serbiya da Osmanlı türklərinin hakimiyyəti altına keçdi.** Serb dövlətini məğlub edib Balkanların türk hakimiyyətinə keçməsini təmin edən Kosova qələbəsindən sonra Sultan I Murad dövrünün ənənəsinə görə döyüş meydanında gəzməyə başladı. Bu zaman Miloş Obiliç adlı bir serb əsilzadəsi tərəfindən öldürüldü. Sultan Murad Bursada dəfn olundu. Osmanlı dövləti I Murad zamanında imperiya halına gəlmişdi. Rumelidə işğal etdiyi torpaqlar, Anadoluda sahib olduğu torpaqlardan çox idi. İdarəetmə və hərbi sahələrdə həyata keçirdiyi islahatlar dövləti gücləndirmiş, çox yararlı ənənə və qanunlar qoyub getmişdir. 1389-cu ildə hakimiyyətə İldırım Bəyazid keçdi. Hakimiyyət uğrunda mübarizənin baş verməməsi üçün İldırım Bəyazidin göstərişi ilə qardaşı Yaqub öldürüldü. **İldırım Bəyazid Serb kralı Lazarın yerinə onun oğlu Stefanı hakimiyyət başına gətirdi. Əldə olunmuş razılığa görə serblər hər il osmanlılara vergi verməli, lazım olduqda 20 min nəfərlik silahlı qüvvə göndərməli idi. Türk qoşunları Rumıniya ərazisinə, sonra Bosniya və Macarıstanın cənub bölgələrinə daxil oldular. İldırım Bəyazid Balkan yarımadasının bir çox bölgələrini ələ keçirə bildi. Bu torpaqlara Anadoludan çoxlu türk ailələri köçürüldü, burada məskunlaşdırıldı.**

Bəyazidin qərbdə olmasından istifadə edən Qaraman bəyliyi ayrı-ayrı bəylikləri osmanlıların əleyhinə qaldırmağa çalışırdı. Belə bir vəziyyət osmanlıların Anadoludakı nüfuzlarının zəifləməsinə səbəb olurdu. Bəyazid Anadoluda yaranmış vəziyyəti nizama salmaq üçün silahlı müdaxilə etdi. I Bəyazid Aydın oğullarının, Saruxan oğullarının, Germiyan oğullarının, Məntəşə və Həmid bəyliklərinin torpaqlarını ölkəsinə qatdı. Sonra Qaraman bəyliyinə daxil oldu və Konyanı aldı. Bəyazidlə döyüşməkdən çəkinən Qaraman bəyi osmanlılarla barışığa nail oldu. Bağlanan sazişə görə qaramanlılar işğal etdikləri yerlərdən geri çəkiləcək, öz torpaqlarının bir hissəsini də osmanlılara verəcəkdilər. **Osmanlıların türk bəylikləri ilə vuruşmasından istifadə edən Macar kralı Bolqar torpaqları üzərində haqqı olduğunu iddia etməyə başlamışdı. Bolqar kralı da ona dəstək verirdi. Bəyazid bu məsələni birdəfəlik həll etmək üçün 1393-cü ildə Bolqarıstanın siyasi varlığına son qoydu, ərazisini Osmanlı torpaqlarına qatdı.**

Bizans xaçlıları təhrik edən, hər fürsətdə türklər üçün çətinlik yaradan bir mərkəz olaraq qalırdı. Buna görə də I Bəyazid Konstantinopolu mühasirəyə aldı. 1396-cı ildə xristianların birləşmiş qüvvələri türklərin üzərinə hücum etdi. Bəyazid bu hücum qarşısında Konstantinopolun mühasirəsindən əl çəkməli oldu. O, öz qüvvələrini Ədirnəyə topladı. 1396-cı ilin sentyabrın 8-də hər iki ordu qarşılaşdı. Türk qoşunları düşmən zərbəsi altında geri çəkilməli oldu. Türk ordusunun məğlub olduğunu görən düşmən bütün güvvəsi ilə hücuma keçdi. Bu vaxt türklərin süvari dəstələri düşmənin arxasına keçə bildi. Düşmən geri çəkilərkən türk süvarilərinin ağır zərbələrinə məruz qaldılar. Döyüş türk qoşunlarının qələbəsi ilə nəticələndi. Bu qələbədən sonra türklərin Balkanlardakı mövqeləri xeyli möhkəmləndi.

Rumelidə olduğu kimi, Anadoluda da mövqelərini möhkəmləndirən türklər Konstantinopolu yenidən mühasirəyə aldılar. I Bəyazid Konstantinopolun fəthinin özünə nəsib

olmasına çalışırdı. Bu dəfə Bizans imperatorunu təslim olmağa məcbur etməli idi. Lakin Teymurun hücumu İldırım Bəyazidin planının gerçəkləşməsinə imkan vermədi. Teymurla Bəyazidin Sultan Əhməd və Qara Yusif barədə yazışmaları münaqişəni daha da kəskinləşdirdi. Belə ki, Bəyazid Sultan Əhməd və Qara Yusifə Teymurun hakimiyyətinə keçən əraziləri geri qaytarmağı tapşırmışdı. Buna görə Teymur Çin səfərindən əvvəl arxanın təhlükəsizliyini təmin etməyə çalışırdı.

28 iyul 1402-ci ildə Ankara düzənliyində iki ordu qarşı-qarşıya gəldi. Səhərdən axşama kimi davam edən bu müharibə Teymurun tam qələbəsi ilə başa çatdı. Bu qələbə Teymura da böyük itkilər hesabına başa gəldi. Sultan I Bəyazidin hökmdarlıqlarına son verdiyi bəylərin Teymurun tərəfinə keçməsinin də bu qələbədə az rolu olmamışdı. İldırım Bəyazid və yanındakılar əsir alındılar. Teymur Bəyazidin şərəfinə və həyatına toxunmayacağını bildirdi. Oğullarının hakimiyyət uğrunda mübarizəyə başladıqlarını öyrənən Bəyazid çox kədərləndi. 1403-cü ilin martında əsirlikdə vəfat etdi. I Bəyazid cəsur, bacarıqlı bir komandan, böyük bir sultan idi. Ömrünü müharibələrdə keçirən Bəyazid türklüyün Rumelidə yayılmasını təmin etmişdi. O, hər yandan gələn şikayətçiləri dinlər, haqlarının bərpa olunmasını təmin edərdi. Ölkənin hər tərəfində abadlıq işləri aparmış, məscid və mədrəsələr tikdirmişdir. Bunlardan ən məşhuru Bursada tikdirdiyi **Ulu məsciddir.**

Ankara döyüşündən sonra Bəyazidin Anadoluda yaratdığı birlik parçalanmış, türkmən bəylikləri müstəqilliklərini bərpa etmişlər. 1402-ci ildə Bəyazidin böyük oğlu Məhəmməd Çələbi Amasiya və Sivas bölgəsində, Süleyman Balkanlarda, İsa Çələbi isə Bursa və onun ətrafını ələ keçirərək hökmdarlıqlarını elan etmişdilər. Məhəmməd Çələbi gücləndikdən sonra ayrı-ayrı bölgələri öz ətrafında birləşdirmək üçün yürüşlərə başladı. Hakimiyyət uğrunda mübarizə və qarışıqlıq dövrü 11 il davam etdi. Məhəmməd Çələbi bütün rəqiblərini aradan götürmüş və

1413-cü ildə Ədirnədə taxta çıxaraq Osmanlı dövlətinin sultanı olmuşdu. Sultan Məhəmməd bütün bu hadisələrdən sonra Osmanlı birliyini saxlaya bildi. Belə bir vaxtda Bizansla münasibətləri sahmana saldı. Qarışıqlıq dövründə Bizansın işğal etdiyi Konstantinopol ətrafındakı yerləri geri almış, Konstantinopolu mühasirəyə almayacağına təminat vermişdi. Bu dövrdə Balkan yarımadasında da nisbi sakitlik hökm sürürdü. **1421-ci ildə Sultan Məhəmməd Çələbi öldü.** O, möhkəm iradə sahibi, sözü və vədinə sadiq, ciddi bir hökmdar idi. Onun Bursada tikdirdiyi məscid, mədrəsə və Yaşıl türbə tarixi sənət əsərləridir.

**Sultan II Murad 1421-ci ildə hakimiyyətə gəldi.** II Murad hökmdarlığının ilk iki ilini daxili üsyanları yatırmaq və ölkə birliyini təmin etməklə keçirdi. II Murad üçün ən böyük təhlükə əmisi Mustafa Çələbinin üsyanı idi. Belə ki, Mustafa Çələbi osmanlılara aid əsas yerləri Bizansa vermək qarşılığında, Bizansın onu hökmdar olaraq tanıması razılığına gəlmişdi. Mustafa Çələbi ətrafına çoxlu qüvvə toplayaraq Ədirnəyə hərəkət etdi və bu yerlərdə hakimiyyətini qurdu.

Artıq o, Rumelidə hakimiyyəti ələ almışdı. Ölkədə ikihakimiyyətlilik yaranmışdı ki, bu da ancaq düşmənlərin xeyrinə idi. II Murad 1422-ci ildə Mustafa Çələbinin qüvvələrini məğlub etdi, Mustafa Çələbi Ədirnədə edam olundu. Osmanlı dövlətinin bütövlüyünün bərpa olunması Bizans imperiyasının narahatlığına səbəb oldu. II Murad Bizans elçilərini qəbul etmədi və Konstantinopol növbəti dəfə mühasirəyə alındı. Konstantinopol bu mühasirə zamanı da işğal olunmadı. Mühasirənin qaldırılmasının səbəbi, hökmdarın kiçik qardaşı Mustafanın hakimiyyət iddiasına düşməsi olmuşdur. Mustafa bir sıra Anadolu bəylərinin köməyi ilə hakimiyyət uğrunda mübarizəyə başladı. Lakin Mustafa da əsir düşdü və II Muradın əmri ilə edam olundu. **Sultan II Muradın dövründə bəyliklər yenidən Osmanlı hakimiyyətinə tabe edildi. Eyni zamanda Rumıniya və Serbiya macarlara**

**arxalanaraq Osmanlı hakimiyyətindən imtina etdi. Əvvəlcə Rumıniya, sonra 1439-cu ildə Serbiya II Murad tərəfindən tabe edildi.**

Macarıstan türklərin Balkanlarda hakim olmasını qəbul edə bilmirdi. Hunayd Yanoşun başçılıq etdiyi macar ordusu türklərin hücumunu dayandırmaq üçün hücuma başladı. 1442-ci ildə Yanoşun qələbəsi Belqradın mühasirəsini aradan qaldırdı. Yanoşun türklərə qarşı uğurlu döyüşü Avropa dövlətlərində bir ümid yeri yaratdı.

Avropa dövlətləri Yanoşun sərkərdəliyi altında türkləri Balkanlardan çıxara biləcəklərini düşündülər. Qısa zamanda türklərə qarşı bir müttəfiq ordusu təşkil olundu. Bu ordu Niş yaxınlığında türk ordusu ilə qarşılaşdı, türklər geri çəkilməli oldu. II Murad macarlara barışıq təklif etdi. 1444-cü il barışığına əsasən türklərin Bolqarıstan üzərində hakimiyyəti tanınır, Serbiya müstəqil olur, Rumıniya osmanlılara vergi verməli olur və hər iki tərəf Dunay çayını keçməməli idi. Sonrakı həyatını barışıq və sakitlik içində keçirmək üçün hakimiyyəti oğlu II Mehmetə vermək qərarına gəldi. II Mehmetin hakimiyyət başına gəlməsi ölkədaxili ziddiyyətlərə səbəb oldu və 1444-cü ildə müttəfiq qüvvələr hücuma keçdilər. II Murad baş sərkərdə kimi ordunu toplayıb döyüşə başladı. Tərəflər arasında şiddətli döyüşlər baş verdi. Türklərin güclü həmlələri ilə qarşılaşan düşmən geri çəkildi. Bu döyüşlərdə yeniçərilər böyük mərdliklə vuruşurdular. Varna qələbəsi türklərin Balkanlarda möhkəmlənməsinə səbəb oldu. II Murad yaranmış vəziyyəti və oğlunun xahişini nəzərə alaraq yenidən hakimiyyəti ələ aldı. Hunayd Yanoş Varna döyüşü məğlubiyyətini aradan qaldırmaq üçün Avropa xalqlarının yeni qüvvələrini toplamışdı. Sultan II Murad bu ittifaqa qarşı lazımi hazırlıqları tamamlayıb, Anadolu bəyliklərindən də əlavə kömək almışdı. **16 oktyabr 1448-ci ildə iki ordu Kosova düzənliyində qarşı-qarşıya gəldi. Üç gün davam edən döyüş düşmənin məğlubiyyəti ilə başa çatdı. Hunayd Yanoş öz**

**canını güclə qurtara bildi. II Kosova döyüşü də türklərin qələbəsi ilə başa çatdıqda Avropa türkləri Balkanlardan çıxara bilməyəcəyini başa düşdü. 1451-ci ildə Sultan II Murad öldü.** O, bütün ömrünü Osmanlı birliyini qorumağa sərf etdi. O, elmi söhbətləri sevər, alimləri himayə edər və onların ehtiyaclarını qarşılayardı. Onun dövründə görülən çoxsahəli mədəniyyət fəaliyyətləri sonrakı əsrlərə də təməl təşkil etmişdi.

### 3. Osmanlı dövləti II Mehmetin hakimiyyəti dövründə

Atasının ölümündən sonra II Mehmet 1451-ci ildə hakimiyyətə gəldi. II Mehmetin birinci dəfə 1444-cü ildə hakimiyyətə gəldiyi vaxt baş vermiş böhranlı vəziyyətlər təkrarlanırdı. Sultan II Mehmet serblərlə və macarlarla barışıq imzaladı, qərbdəki sərhədlərdə bir müddət sakitliyi təmin etdi. Bununla da Qaramanlı İbrahim bəyi yola gətirmək üçün vaxt qazanmış oldu. İbrahim bəy isə osmanlılara aid bir sıra şəhərlərə hücum etdi. Qaramanlı İbrahim bəy Gərmiyan, Aydınoğlu və Məntəşənin bəylərini də osmanlılara qarşı hücuma sövq etmişdi. II Mehmet ilk səfərini Qaraman bəyliyi üzərinə etmək məcburiyyətində qaldı. İbrahim bəy tabe olduğunu bildirdi və Osmanlı torpaqlarına daxil olmayacağına söz verdi.

II Mehmet babalarının və atasının başlamış olduqları böyük təşəbbüsü gerçəkləşdirmək istəyirdi. Konstantinopol başqa bir dövlətin əlində qaldıqca Osmanlı dövləti xristian birliyinin hücumuna məruz qalacaqdı. Odur ki, Avropa ilə Asiya arasındakı bağlantı və əlaqələrin təhlükəsizliyi təmin oluna bilməzdi. Sultan II Mehmet Konstantinopolu mühasirəyə almazdan əvvəl bütün tədbirləri gördü. Sultan hazırlıqlara başlayarkən Bizans da xarici düşmənləri və bəzi türk bəylərini osmanlıların əleyhinə qaldırmağa çalışaraq sultana bu səfərin asan olmayacağını göstərirdi. Bizansın bu hərəkətlərinə məhəl

qoymayan Sultan 1453-cü ilin yazında ordusu ilə Konstantinopola doğru hərəkət etdi. Mühasirə aprelin 6-da başladı. Aprelin 12-də türk əsgərləri döyüşə başladılar. Konstantinopol hər tərəfdən top atəşinə tutuldu. Döyüş 53 gün davam etdi. **1453-cü il may ayının 29-da baş verən son hücuma Bizans ordusu dözə bilmədi və məğlub oldu. Sultan Konstantinopolu türk şəhərinə çevirmək üçün Anadoludan gətirdiyi türk ailələrini vergilərdən azad etməklə burada məskunlaşdırıb şəhərin abadlaşdırılmasına göstəriş verdi. Osmanlılar Konstantinopolu İstanbul adlandıraraq dövlətin paytaxtına çevirdilər.** Osmanlı dövləti İstanbulu aldıqdan sonra Avropada geniş müharibələrə başladı. Sultan II Mehmet öz hərbi planlarını həyata keçirmək üçün qərb dövlətləri arasındakı ixtilaflardan məharətlə istifadə etdi. O, əvvəlcə Venesiya Respublikasını bitərəfləşdirdi. 1454-cü ildə Osmanlı dövləti ilə Venesiya arasında müqavilə bağlandı. Venesiya Bizans imperiyası zamanı Kiçik Asiyada malik olduğu ticarət imtiyazlarını bir növ bərpa etdi. Osmanlı dövləti Venesiyanı müvəqqəti də olsa, bitərəfləşdirə bildi. Qərbdə osmanlı işğalları üçün əlverişli şərait yarandı.

Serbiyanın osmanlılara qarşı müharibəyə hazırlaşdığını bilən II Mehmet Serbiya üzərinə hərəkət etdi. Beləcə Sultan II Mehmetin Serbiyaya ilk səfəri başlamış oldu. Bir sıra qalalar işğal edildi və Sultan səfərə son verərək geri döndü. Bu vaxt, Serb və Macar birləşmiş qüvvələri Serbiyada saxlanılmış olan türk ordusu üzərinə hücum etdilər. Türk qoşunları məğlub edildi. Fateh II Mehmet 1455-ci ildə Serbiyaya yenidən hücum etdi. Lakin Hunayd Yanoşun yardımı sayəsində Belqrad işğal olunmadı. Lakin bu yürüşün Balkan dövlətləri üzərində təsiri böyük oldu. Rumınlar osmanlılara tabe olmağı və illik vergi verməyi qəbul etdilər. Fateh Serbiya və Macarıstanı bir müddət sərbəst buraxaraq digər bölgələrdə hakimiyyətini möhkəmləndirmək istədi. Egey dənizi adalarına donanma göndərərək oraları ələ keçirdi. Rodos səfərinə çıxdısa da,

buraları hələ işğal edə bilmədi. 1456-cı ildə yenidən Serbiya üzərinə hücum edildi. Türk qoşunları ilk hücumla Belqrad qalasını mühasirəyə aldı. Qalanı müdafiə edən Hunayd Yanoş öldü, Fateh yaralandı, qalaya girmək mümkün olmadı. Türk qoşunları Dunay çayı boyunca hücuma keçərək, Serbiyanın mərkəzini mühasirəyə aldılar. **Beləliklə, bütün Serbiya 1459-cu ildə işğal edilərək Osmanlı əyalətinə çevrildi. Artıq Osmanlı dövləti Macarıstanla sərhəd qonşusu oldu.**

Bundan sonra II Mehmet Kiçik Asiya ilə bağlı hərbi-siyasi planlarını həyata keçirmək, yəni buradakı xırda feodal dövlətlərini aradan qaldırmaq qərarına gəldi. Osmanlı dövlətinə qarşı öz müstəqilliyini qoruya bilməyən Trabzon Yunan dövləti ağqoyunlularla Azərbaycanda hakimiyyətə gəlməmişdən əvvəl dostluq əlaqəsi yaratmışdılar. Nigah diplomatiyası bu əlaqəni daha da möhkəmləndirmişdi. Trabzonun ağqoyunlular üçün hərbi-strateji məntəqə kimi də böyük əhəmiyyəti var idi. Osmanlı imperiyası Şərqə doğru genişləndikcə Ağqoyunlu-Trabzon ittifaqı daha da möhkəmləndi.

Osmanlı imperiyasının hərbi qüvvələri Sultan II Mehmetin başçılığı ilə Kiçik Asiyada hərbi əməliyyata başladı. Osmanlı qoşunları ciddi bir müqavimətə rast gəlmədən bir sıra bəylikləri aradan qaldırdılar. II Mehmet Trabzon üzərinə hücum etdi. 1461-ci ilin oktyabrında Trabzon türklər tərəfindən alındı. Trabzonun işğalı ilə Uzun Həsən Qara dənizə yeganə çıxış yolunu itirdi. Bütün cənubi Qara dəniz sahilləri Osmanlı imperiyasına qatıldı.

Fateh II Mehmet 1462-ci ildə Balkanlara tam sahib olmaq üçün Bosniyaya hücum etdi. Fatehlə döyüşməsinin mümkün olmayacağını bilən Bosniya kralı illik vergi verməyə razı oldu. Sultan İstanbula döndükdən sonra Bosniya Avropa dövlətlərinin təhriki ilə vergi verməkdən boyun qaçırdı. Türklərə verdiyi yerləri isə işğal etdi. **1463-cü ildə II Mehmet Bosniyaya hücum edib kralı əsir aldı. Vədinə əməl etmədiyi**

**üçün onu aradan götürdü. Bosniya Osmanlı imperiyasının bir əyalətinə çevrildi.**

Osmanlı imperiyasının Balkanlarda və Egey dənizi hövzəsində möhkəmlənməsi Venesiya ilə ziddiyyətləri son həddə çatdırdı. Bu da 1463-cü ildə 16 ilə qədər davam edən Venesiya-Türkiyə müharibəsinin başlanması ilə nəticələndi. Venesiya Respublikasının Osmanlı əleyhinə ittifaq yaratmaq çağırışına ilk səs verən Macarıstan oldu. Macarıstan osmanlıların Serbiyanı və Bosniyanı almasından narazı idi. Buna görə də Macarıstan 1463-cü ilin sentyabrın 12-də Venesiya ilə osmanlılara qarşı ittifaq bağladı. Venesiya digər Avropa dövlətləri ilə də osmanlılara qarşı ittifaq yaratdı. Qısa bir zamanda osmanlılara qarşı müharibəyə qoşulanların sayı artdı. Fateh Avropada türklərə qarşı sazişləri və bütün hərəkətləri izləyirdi.

XV əsrin 60-cı illərinin sonuna yaxın həm Qərbdə, həm də Şərqdə Osmanlı imperiyasının xarici siyasətində əsaslı dəyişiklik əmələ gəldi. **1468-ci ildə Qaraman bəyliyinin varlığına son qoyuldu.** Türkiyə Venesiya ilə müharibədə üstünlüyü qəti olaraq ələ keçirdi. 1470-ci ildə osmanlılar Venesiyaya məxsus Egey dənizindəki Əyriboz adasını işğal etdilər. Bununla Venesiya Egey hövzəsindən çıxarıldı. Venesiya bir tərəfdən Türkiyə ilə sülh danışıqlarına başladı, digər tərəfdən isə osmanlılara qarşı Avropa və Asiya dövlətləri ilə diplomatik əlaqələrini genişləndirdi.

Sultan II Mehmetin Avropada və Asiyada həyata keçirdiyi bir sıra işğallar Ağqoyunlu dövlətini Qara dəniz və Aralıq dənizinə çıxış yollarından məhrum etmişdi. Bu isə Ağqoyunlu dövlətinin qərb ölkələri ilə ticarət əlaqələrini məhdudlaşdırmışdı. Uzun Həsən Toqata hücum edərək burada bir cəbhə açdı, osmanlıların gücünü bölməyə çalışdı. Lakin 18 avqust 1472-ci ildə II Mehmetin oğlu Mustafa Ağqoyunlu ordusuna qalib gələrək işğal edilən Osmanlı torpaqlarını azad etdi. II Mehmet Ağqoyunlu dövlətinə qarşı Azərbaycana qoşun

yeritmək qərarına gəldi. Osmanlı imperiyasının bütün hərbi qüvvələri bu dəfə Ağqoyunlu dövlətinə qarşı yönəldildi. 1473-cü il avqustun 1-də Malatya yaxınlığında tərəflər arasında vuruşma baş verdi. Malatya döyüşü ağqoyunluların qələbəsi ilə başa çatdı. Uzun Həsən osmanlıların barışıq təklifini rədd etdi. 1473-cü il avqustun 11-də tərəflər arasında yenidən hərbi əməliyyatlar başladı. II Mehmet Otluqbeli vuruşmasından qələbə ilə çıxdı. Otluqbeli vuruşması ilə Ağqoyunlu-Türkiyə müharibəsi sona yetdi. II Mehmet ağqoyunlularla sülh bağlayaraq İstanbula döndü. Bu qələbədən sonra, osmanlılar əleyhinə hərəkətə keçmiş olan Avropa dövlətlərinin ümidləri də qırılmış oldu. II Mehmet Krımı işğal etməklə Qara dənizə tam sahib olmaq istəyirdi. Bu məqsədlə Fateh böyük bir donanma ilə Qara dəniz əməliyyatına başladı. Türk qoşunları Anapa, Kəfə, Sudak və başqa qalaları ələ keçirdilər. Krım yarımadasının bütün sahil bölgələri türklərin əlinə keçdi. 1475-ci ildə Sultan Mehmet ilə Krım xanı arasında birləşmə sazişi imzalandı. Fateh II Mehmet Krım səfərindən sonra Qərbə yönəldi. Türklərin hücumu qarşısında Venesiyanı müdafiə edən dövlətlər ondan ayrılmağa başladılar. Venesiya tək qalmış, ancaq təslim olmamışdı. Venesiyanın içərilərinə türklərin hücumları ara vermirdi. Bütün bu hücumlar qarşısında Venesiya barışıq istəmək məcburiyyətində qaldı. 1479-cu ildə müharibə türklərin irəli sürdüyü şərtlərlə başa çatdı. 1481-ci ildə Sultan II Mehmet öldü. Sultan Mehmet soyuqqanlı və cəsur idi. O, ordunun intizamına çox diqqət edərdi. Ən kiçik itaətsizliyi bağışlamazdı. Səfərlərinin müvəffəqiyyətlə nəticələnməsini təmin etmək üçün yürüşün bütün təfərrüatını ayrıca hazırlayardı. Hücum edəcəyi dövlətin daxili və xarici münasibətlərini ən incə nöqtəsinə qədər öyrənərdi. Sultan II Mehmet elmə, sənətə böyük qiymət verirdi. Alimləri İstanbula topladı, onlar üçün mədrəsələr tikdirdi. İstanbulun abadlaşdırılmasına çox böyük əhəmiyyət vermiş, saraylar, məscidlər, mədrəsələr tikdirmiş, ticarət yerləri açdırmışdı.

İstanbulda bu işləri həyata keçirərkən digər şəhərlər də unudulmamışdı. Bursa, Ədirnə, İznik, İzmit və digər şəhərlərdə abadlıq və tikinti işləri aparılmışdı. Dövləti gücləndirən qanunlar vermiş, yeni müəssisələr yaratmışdı. Türk donanmasını dünyanın ən böyük donanması halına gətirmişdi.

## 4. Osmanlı imperiyası XVI əsr-XVII əsrin birinci yarısında

Sultan II Mehmet vəfat etdiyi zaman böyük oğlu Bəyazid Amasiyada, kiçik oğlu Cəm Konyada idi. Vəliəhdlik Bəyaziddə idi və o, 1481-ci ildə taxta çıxdı. II Bəyazid XV əsrin 80-ci illəri üçün Kiçik Asiyadakı bir çox xırda bəylikləri aradan qaldırdı və demək olar ki, bütün Anadolunu işğal etdi. Balkan yarımadasında, Egey və Aralıq dənizi hövzələrində mühüm strateji əhəmiyyəti olan bir çox məntəqələri tutdu. Venesiya ilə 1499-cu ildə başlanan müharibə 1502-ci ildə başa çatdı. 1502-ci il Venesiya-Türkiyə müqaviləsinə görə Türkiyə Venesiyanın Aralıq dənizində üstünlüyünə ağır zərbə vurdu. Osmanlı imperiyası artıq güclü dəniz dövlətinə çevrilməkdə idi.

II Bəyazid Qərbdə daha mühüm işğallara başlamaq istəyərkən Şərqdə böyük bir təhlükə ilə qarşı-qarşıya qaldı. 1502-ci ildən vaxtını Səfəvi təhlükəsinə həsr etdi. Eyni zamanda hakimiyyətinin son illərində oğulları arasında hakimiyyət uğrunda mübarizə gücləndi. II Bəyazid hakimiyyəti oğlu Əhmədə vermək istəyirdi. Ancaq ordu Səlimi müdafiə edirdi. Onun üçün üsyan edən yeniçərilər Əhmədin İstanbula girməsinə icazə vermədilər. Nəticədə, 1512-ci ildə Səlim hakimiyyəti ələ aldı. Elə həmin ildə II Bəyazid vəfat etdi. II Bəyazid vaxtının çoxunu mütaliə ilə keçirər, oxuduğu kitablar haqqında düşüncələrini yazardı. Elm adamlarına, şair və yazıçılara hörmətlə yanaşardı. Ölkənin hər yerində abadlaşdırma işləri aparmışdı. Onun inşa etdirdiyi ən mühüm

əsərləri Amasiyadakı mədrəsə və məscid, İstanbuldakı Bəyazid məscidi və başqaları idi.

Sultan I Səlim 1512-1513-cü illərdə daxili məsələləri həll etdi. Səfəvi dövlətinə qarşı səfərə çıxmadan əvvəl şimal-qərb və cənub sərhədlərini təhlükəsizlik altına aldı. Avropa dövlətləri ilə sülh müqavilələri imzaladı. Bununla, Osmanlı sultanı Səfəvi şahı I İsmayılın Türkiyəyə qarşı Avropa ölkələri ilə ittifaqa girmək planının qarşısını aldı. 1514-cü ilin avqustun 23-də Çaldıran düzündə Osmanlı qoşunları səfəvilərin hərbi qüvvələri ilə qarşılaşdı. Osmanlılar qələbə qazanaraq Təbrizi ələ keçirsələr də, Azərbaycanda möhkəmlənə bilmədilər. Bu qələbə nəticəsində Cənub-Şərqi Anadolu və Şimali Mesopotamiya osmanlıların əlinə keçdi. Sultan I Səlim 1516-cı ildə Misir hərbi qüvvələri üzərində qələbə qazandı. Bu qələbə sayəsində Suriya, Livan və Fələstin əraziləri Osmanlı dövlətinə birləşdirildi. 1517-ci ildə isə Misirin işğalı başa çatdırılaraq ərazisi Osmanlı dövlətinə qatıldı. 1518-ci ildə Əlcəzair Osmanlı asılılığını qəbul etdi. Bu işğallar nəticəsində Osmanlı imperiyası üç qitənin ərazisini əhatə edən qüdrətli dünya dövlətinə çevrildi. Sultan I Səlim 1520-ci ildə vəfat etdi. **Hakimiyyətə gələn Süleyman ölkənin daxili işlərini sahmana salıb Avropa səfərlərinə çıxdı. 1521-ci ildə Macarıstana ağır zərbə vurdu, Mərkəzi Avropanın açarı sayılan əvvəlki sultanların vaxtında üç dəfə mühasirəyə alınıb işğal edilə bilməyən Belqradı ələ keçirdi. Mərkəzi Avropa istiqamətində osmanlı işğallarına yol açıldı. 1522-ci ildə Rodosu işğal etdikdən sonra, bütün qüvvələrini Macarıstana qarşı yönəltdi. 1526-cı il avqustun 29-da baş vermiş Mohaç döyüşündə Macarıstan darmadağın edildi, onun dövlət müstəqilliyinə son qoyuldu. 1529-cu ildə Sultan Süleyman Almaniya-Avstriya blokuna qarşı hərəkət etdi. Osmanlı qoşunları 1529-cu ilin sentyabrında Avstriya ərazisinə daxil oldular.** Lakin Vyanını ala bilməyən Osmanlı qoşunları geri çəkildi. 1532-ci ildə Osmanlı qoşunları yenidən

Avstriyaya hücum etdi, bu dəfə Şərqi Anadoluda baş vermiş üsyanlarla bağlı Osmanlı qoşunları Avstriya ərazisini tərk etdi. **Osmanlı imperiyası Şərqlə bağlı planlarını həyata keçirmək üçün 1533-cü ildə Almaniya ilə sülh müqaviləsi bağladı. Macarıstan ərazisi iki dövlət arasında bölüşdürüldü.** XVI əsrin 30-cu illərində Osmanlı imperiyasının Şərqlə bağlı planları təkcə Səfəvi dövlətinə qarşı deyil, həm də Portuqaliya müstəmləkə imperiyasının Hind okeanı hövzəsində möhkəmlənməsinə qarşı yönəlmişdi.

Sultan Süleyman 1534-1535-ci illərdə iki dəfə Azərbaycana daxil oldu. 1534-1535-ci illər hücumu zamanı osmanlılar Ərəb İraqını ələ keçirdilər. Sultan Süleyman 1548-ci ildə üçüncü dəfə Azərbaycana hücum etdi. Sultan Süleyman Təbrizi ələ keçirsə də, burada ancaq bir neçə gün qala bildi. Ərzaq qıtlığı, Səfəvi hərbi qüvvələrinin gözlənilməz hücumları, yerli əhalinin osmanlılara qarşı narazılığının artması osmanlıların Təbrizdən çəkilməsinə səbəb oldu.

1554-cü ildə Osmanlı qoşunları yenidən Azərbaycana daxil oldular. Şah Təhmasib yenə də osmanlılarla açıq döyüşə girmədi. **29 may 1555-ci ildə Amasya müqaviləsi bağlandı.** Bu müqaviləyə görə osmanlılar Qərbi Gürcüstan və Qərbi Ermənistana sahib oldular. Osmanlı dövlətinin Azərbaycanı işğal etmək planı baş tutmadı. 1547-1554-cü illərdə Osmanlı imperiyasının Portuqaliyanı İran körfəzindən sıxışdırıb çıxarmaq üçün apardığı hərbi dəniz əməliyyatları da istənilən nəticəni vermədi.

Sultan Süleymanın dövründə Osmanlı imperiyasının ordusu dünyada ən güclü ordu halına gəlmişdi. Onun himayəsində elm, mədəniyyət və sənət sahələrində güclü şəxsiyyətlər yetişmişdi. O, abadlıq işləri aparmış, möhtəşəm məscidlər, mədrəsələr, xəstəxanalar tikdirmişdi.

**Sultan Süleyman 1566-cı ildə öldü,** hakimiyyətə Səlim gəldi. O, Səfəvi dövləti tərəfindən təhlükəsizliyini təmin etmək məqsədilə Amasya müqaviləsinin qüvvədə qalmasını təsdiq

etdi. 1570-ci ildə Venesiya Respublikası ilə müharibəyə başladı. Həmin ildə Lefkoşanı, 1571-ci ildə isə Maqosanı osmanlılar alaraq Kiprin işğalını başa çatdırdılar. Müttəfiqlərin donanması Aralıq dənizində Osmanlı donanmasına qarşı çıxmağa cəsarət etmədi. Venesiya sülh istədi. 7 mart 1573-cü il sülhünə əsasən Venesiya Kiprin Osmanlı dövlətinə aid olduğunu qəbul etdi və vergi verməli oldu. 1574-cü ildə Almaniya ilə bağlanmış müqavilə yenidən uzadıldı. **Sultan II Səlim 1574-cü ildə öldü.**

III Murad 1574-cü ildə hakimiyyətə gəldi. III Murad Venesiya və Avstriya ilə mövcud müqavilələri yenilədi, Polşa ilə Osmanlı imperiyasının şimal sərhədlərini müəyyən edən müqavilə 30 iyul 1577-ci ildə imzalandı. Beləliklə, Osmanlı imperiyası özünün əsas zərbə qüvvəsini Səfəvi dövlətinə qarşı yönəltmək imkanı qazandı. Sultan III Murad dövründə 12 il davam edən Osmanlı-Səfəvi müharibəsi ilə Cənubi Qafqaz osmanlılar tərəfindən işğal olundu. 1590-cı ildə osmanlılarla sülh müqaviləsi bağlandı. Bu müqavilə Cənubi Qafqazın osmanlılar tərəfindən işğalını təsdiqlədi.

**1595-ci ildə III Murad vəfat etdi,** yerinə III Mehmet keçdi. III Mehmet 1596-cı ildən Avropa səfərlərinə başladı. O, Avropa dövlətlərinin böyük bir ordusu ilə qarşılaşdı. III Mehmet müttəfiqlərin qüvvələrini məğlub etdi. Osmanlı qüvvələrinin Avropada olduğu bir vaxtda Səfəvi dövləti osmanlılara qarşı üsyanlar təşkil etdi. Nəticədə, XVII əsrin əvvəllərində Osmanlı imperiyası ilə Səfəvi dövləti arasında müharibə başladı. **Belə bir vaxtda 1603-cü ildə Sultan III Mehmet öldü.** 1603-cü ildə hakimiyyətə Əhməd gəldi. Sultan I Əhməd hakimiyyətə gəldiyində Osmanlı imperiyası Şərqdə Səfəvi dövləti ilə, Qərbdə isə Avstriya ilə müharibə aparırdı. 1606-cı ildə Avstriya müharibədə uduzduğunu anlayaraq sülh istədi. **11 noyabr 1606-cı ildə tərəflər arasında sülh müqaviləsi imzalandı.** Bu müqaviləyə görə osmanlıların işğal etdikləri qalalar əllərində qalır və Avstriya birdəfəlik vergi

ödəyirdi. XVII əsrin əvvəllərində səfəvilər Şah I Abbasın başçılığı altında osmanlılara qarşı müharibəyə başladılar. Avropa dövlətləri də Səfəvi dövlətinin osmanlılarla müharibə aparmasında maraqlı idilər. Onlar osmanlıların zəifləməsinə çalışırdılar ki, bu yolla itirilmiş əraziləri geri qaytarsınlar. Rusiya osmanlıların Cənubi Qafqazdan çıxarılmasını istəyirdi. Belə ki, Cənubi Qafqazın osmanlıların əlində olması Volqa-Xəzər yolu ilə ticarətə mane olurdu. XVII əsrin əvvəllərində başlayan Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsi Səfəvilərin qələbəsi ilə başa çatdı. Osmanlılar tərəfindən XVI əsrin son rübündə işğal olunan torpaqlar geri qaytarıldı. Tərəflər 1555-ci il sülhünün bərpa edilməsini qərara aldılar. Beləliklə, 1612-1618-ci illərdə bağlanan sülh müqavilələri möhkəm olmadı və pozuldu. Səfəvi dövləti ilə osmanlılar arasında hərbi əməliyyatlar yenidən başladı və fasilələrlə 1639-cu ilə qədər davam etdi.

Nəhayət, 1639-cu il mayın 17-də Qəsri-Şirində Osmanlı imperiyası ilə Səfəvi dövləti arasında 1612-ci il sülhünün şərtlərini təsdiq edən sülh müqaviləsi imzalandı. Azərbaycan, Şərqi Ermənistan, Şərqi Gürcüstan Səfəvilərə, Qərbi Gürcüstan, Qərbi Ermənistan və İraq Osmanlılarda qaldı.

# MONQOL İMPERİYASI VƏ TÜRK XALQLARI

## 1. Monqol dövlətinin yaranması. Monqolların Orta Asiyaya yürüşləri

Tarix boyu monqollar türk tayfaları ilə təmasda yaşamışlar. XIII əsrin əvvəllərindən başlayan monqol işğallarında tabe edilmiş ətraf ölkələrin türkmənşəli tayfaları mühüm rol oynadıqlarına və türk xalqlarının yaşadıqları ərazilərin Monqol imperiyasına qatıldığına görə tarixşünaslıqda həmin imperiyanın tarixi türk xalqlarının tarixi çərçivəsində tədqiq olunur.

Monqolların əsas məşğuliyyəti maldarlıq və ovçuluq idi. Köçəri həyat sürən əhali çadırlarda yaşayırdı. Çadırların müəyyən hissəsi arabalar üzərində qurulduğundan əhali tez-tez düşərgələrini dəyişirdi. XII əsrin ortalarında monqollar arasında qəbilə quruluşu tədricən dağılmağa başlayır, əhali arasında təbəqələşmə **prosesi genişlənirdi.** Monqol tayfaları içərisində tədricən feodal münasibətləri yaranırdı. İri feodalların çoxlu mal-qaraları, at ilxıları var idi. Onlar geniş otlaqlara, xüsusi düşərgələrə malik idilər. Feodal münasibətlərinin yaranması şəraitində tayfa ittifaqları möhkəmlənirdi. Tayfa ittifaqlarından birinin başçısı Temuçin olmuşdur.



O, qüvvətli və intizamlı bir ordu yaratmaq üçün çalışdı, ətrafına müxtəlif monqol və türk qəbilələrini topladı. Ona tabe olmayan qəbilələrə qarşı mübarizə apardı və 1206-cı ilə qədər onları özünə tabe edə bildi. 1206-cı ildə toplanan qurultayda böyük xan elan edildi və Çingiz xan adlandırıldı.

Çingiz xan dövləti qurub, güclü ordu formalaşdırdıqdan sonra işğallara başladı. İşğalçıların diqqətini ən mühüm ticarət yolları da cəlb edirdi ki, bu yolların ələ keçirilməsi çoxlu qazanc gətirə bilərdi. Monqolustanı əhatə edən qonşu xalqların bir hissəsinin hələ öz dövlət quruluşu yox idi, digər xalqlarda isə feodal dağınıqlığı hökm sürdüyündən xalqın müqavimətini təşkil edən tapılmırdı. Qısa bir müddət ərzində Sibirin köçəri tayfalarını mərkəzi dövlət ətrafında birləşdirə bildi. Eyni zamanda o, Yenisey ətrafında yaşayan qırğızları, Baykal gölü sahilində yaşayan köçəri buryatları, yakutları da monqol dövlətinə tabe etdi. Çox keçmədi ki, uyğurlar da mərkəzi hakimiyyətə tabe oldular. Bundan sonra monqolların ilk işi Çinə hücum etmək oldu. Çingiz xanın hərbi qüvvələri 1211-ci ildə Çinin şimalına daxil oldular. Monqollar şəhər və kəndləri ələ keçirərək dağıdır, əhalisini isə qırırdılar. Çinə qarşı müharibə Monqol dövlətinin möhkəmlənməsinə səbəb oldu. Çingiz xan oradan çoxlu silah və sənətkar gətirdi. Bu sənətkarlar monqol ordusunu silahla təmin etmək üçün çalışırdılar.

Çingiz xan əvvəlcə Xarəzmşahlar dövləti ilə ticarət əlaqələrini inkişaf etdirməyi qərara aldı. Bu məqsədlə iki ölkə arasında nümayəndələr gəlib gedirdi. Aralarında ticarət sazişi imzalandı. Bu arada Çingiz xana tabe olmaq istəməyən Merkit tayfası Xarəzmşahlar dövlətinin ərazisinə daxil oldular. Onları təqib edən kiçik bir monqol ordusu da Xarəzmşah hakimiyyətindəki torpaqlara girdikdə Xarəzmşah Məhəmməd monqolların irəliləməsini dayandırmaq üçün hücuma keçdi. Xarəzmşah Məhəmməd bu kiçik ordunu məğlub edə bilmədi. Monqolların bu qələbəsi Xarəzmşahın ciddi narahatlığına

səbəb oldu. Xarəzmşahlar dövləti zahirən böyük olsa da, daxildən çox zəif idi. Ölkədə Xarəzmşaha qarşı böyük narazılıq var idi.

Çingiz xan 1218-ci ildə Otrar şəhərinə bir ticarət karvanı göndərdi. Otrar hakimi Yınal karvandakıları öldürtdü. Bu hadisədən xəbər tutan Çingiz xan elçi göndərərək Yınalın ona təslim edilməsini istədi. Lakin Xarəzmşah Məhəmmədin göstərişi ilə elçi öldürüldü. Bu hadisə iki dövlət arasında müharibəyə səbəb oldu. Çingiz xan böyük ordu toplayaraq üç istiqamətdə hücuma keçdi. Yola çıxmamışdan əvvəl qurultay çağırdı, ölərsə yerinə Ugedeyin keçməsini istədi və qurultay da buna qərar verdi.

Xarəzmşah Məhəmməd Ürgənc şəhərində hərbi müşavirə çağırdı. Qərara alındı ki, monqollara qarşı müdafiə taktikası əsas götürülsün. O, müharibəyə hazır deyildi və orduya, əhaliyə etibar etmirdi. Monqol qoşunları ölkə ərazisinə daxil olduqda bəzi əyalət və şəhərlərin iri feodalları Xarəzmşah Məhəmməddən narazı olduqları üçün Çingiz xanın tərəfinə keçdilər. Öz orduları ilə Çingiz xanın işğallarında iştirak etməyə başladılar.

1219-cu ilin payızında monqol qoşunları Otrar şəhərinə hücum etdi. Şəhər mühasirəyə alındı, əhali bir müddət düşmənə inadlı müqavimət göstərdi. Yınal heç bir kömək almadan mübarizəni davam etdirmək istəsə də, düşmən şəhərə daxil oldu, Yınal ələ keçirilərək öldürüldü. 1219-cu ilin sonu 1220-ci ilin əvvəllərində monqollar Sır-Dərya sahillərini ələ keçirdilər. İşğalçılar əhalini çox vaxt amansızcasına qırır, şəhər və kəndləri dağıdıb yandırırdılar ki, əhali arasında çaxnaşma salıb işğalı asanlaşdırsınlar, gələcəkdə isə əgər üsyan baş verərsə üsyançılar şəhərlərdən və onların istehkamlarından müdafiə məqsədləri üçün istifadə edə bilməsinlər.

1220-ci ilin fevralında monqollar Buxaraya hücum etdilər. Monqollar ciddi müqavimətə rast gəlmədən şəhərə daxil oldular. Şəhər qarət olundu və yandırıldı. Bundan sonra

monqollar Səmərqənd şəhərinə hücum etdilər. Şəhərin müdafiəçiləri arasında birlik yox idi. Monqol qoşunları şəhəri ələ keçirərək dağıtdılar. Əhalinin xeyli hissəsini qırdılar, sağ buraxdıqları gəncləri isə orduya cəlb etdilər.

Növbəti hədəf Xocənd şəhəri oldu. Şəhər hər tərəfdən mühasirəyə alındı. Müdafiəçilər son ana qədər vuruşsalar da şəhər təslim oldu. 1220-ci ilin sonunda monqollar Ürgənç şəhərinə daxil oldular. Şəhər darmadağın edildi. Minlərlə sənətkarı, mahir ustaları özləri ilə apardılar. Bu, Xarəzmşahlar dövlətinin sonu oldu. Bütün ölkə monqolların əlinə keçdi. Məhəmməd Xarəzmşahın oğlu Cəlaləddin dağılan ordunu toplayıb dövləti bərpa etməyə çalışsa da buna müvəffəq olmadı.

## 2. Monqol qoşunlarının Cənubi Qafqaza hücumu

Monqollar İranın böyük şəhərlərini dağıdıb, əhalisini qırdıqdan sonra 1220-ci ilin payızında Azərbaycana daxil oldular. Bu vaxt Azərbaycanda vahid dövlət yox idi, feodal dağınıqlığı davam edirdi. Monqollar əvvəlcə Təbrizə yaxınlaşdılar. Onlar Təbriz əhalisindən külli miqdarda paltar, pul, mal-qara və digər qiymətli əşyalar alaraq, qışlamaq üçün Muğana yollandılar. 1221-ci ilin yazında Gürcüstana tərəf hərəkət etdilər. Yol boyu bütün şəhər və kəndlər qarət edilərək dağıdıldı. Gürcüstanın şəhər və kəndlərini monqollar dağıdır, əhalisini qarət edib öldürürdülər. Monqollar Gürcüstandan birbaşa Təbrizə hərəkət etdilər. Şəhərin hakimi Şəmsəddin Tuğrayı onlara xeyli miqdarda hədiyyə verib əhalisini xilas etdi. Monqollar Təbrizə toxunmayıb Marağaya gəldilər. Marağa hər tərəfdən mühasirəyə alındı. Onlar Marağanı dağıtdıqdan sonra Ərdəbilə hücum etdilər. Şəhəri alıb, qırğın törətdikdən sonra üçüncü dəfə Təbrizə yaxınlaşdılar. Şəhər hakimi lazımi hərbi hazırlıq işlərini gördü, qalanı möhkəmləndirdi. Monqollar şəhərin müdafiəyə kifayət qədər

hazır olduğunu görüb, hədiyyələr almaqla kifayətləndilər. Sonra Səraba hücum etdilər, müqavimətsiz şəhər təslim oldu. Monqollar Beyləqanı dağıtdıqdan sonra Gəncəyə gəldilər. Şəhərin müdafiəyə hazır olduğunu görüb xeyli miqdarda qənimət alaraq Gürcüstana tərəf hərəkət etdilər. Gürcüstanda xeyli adam öldürüb, ölkəni talan etdikdən sonra Şamaxıya gəldilər. 1222-ci ildə şəhəri alıb əhalini demək olar ki, tamamilə qırdılar. Bundan sonra Dərbəndə getdilər. Məqsədləri şəhəri taladıqdan sonra Şimali Qafqaza, Qıpçaq çöllərinə getmək idi. Monqollar bələdçilərin köməyi ilə Dərbənddən keçib, şimala getdilər. Qıpçaqları və alanları məğlub etdilər. Qıpçaqlar rus knyazlarından kömək istədilər. Kiyev, Çerniqov, Smolensk, Qaliç, Volın knyazları və bəzi başqa knyazlar qıpçaqlarla ittifaqa girib işğalçılara qarşı vuruşdular. Müttəfiqlərin vahid komandanlığı yox idi, rus knyazları arasında çəkişmələr yürüş zamanı da ara vermirdi. Digər tərəfdən qıpçaqlar gözlənilmədən qaçmağa başladılar və rus qüvvələrini ruhdan saldılar. 1223-cü ildə monqollar Şimali Qafqazda rusları məğlub edərək Monqolustana qayıtdılar. **Çingiz xanın yaratdığı imperiya onun 1227-ci ildə ölümündən sonra oğlanları arasında dörd böyük ulusa bölündü. Çingiz xandan sonra oğlu Ugedey böyük xan oldu. Ugedey Şərqi Türküstanı idarə edirdi. Qazaxıstan, Volqaboyu Çingiz xanın böyük oğlu Cuciyə verilmişdi. Cuci öldükdən sonra isə bütün bu yerləri onun oğlu Batı idarə edirdi. Mavərənnəhr və Yeddisu Cağataya, Toliyə isə ata yurdu Monqolustan və Çinin bir hissəsi verilmişdi.** Monqol işğalçılarının almaq istədikləri Cənubi Qafqaz, İran, Mesopotamiya Çingiz xanın vəsiyyətinə görə böyük oğluna çatmalı idi.

1231-ci ildə monqolların Azərbaycana ikinci yürüşü başlandı. Lakin Azərbaycan monqolların bu yürüşünün qarşısını almağa qadir deyildi. Monqollar 1239-cu ildə Dərbəndi tutmaqla Azərbaycanın işğalını başa çatdırdılar.

Beləliklə, Azərbaycanda monqol hökmranlığı başladı. 1253-cü ildə keçirilən qurultayda Münkə xan qərara aldı ki, Ön Asiyaya qardaşı Hülakü xanın rəhbərliyi ilə qoşun göndərilsin. Hülakü xan 1256-1257-ci illərdə İranı və Azərbaycanı özünə tabe etdi. 1258-ci ildə isə Bağdadı aldı. Abbasilər sülaləsinin hakimiyyətinə son verildi. Hülakü xan köçəri tayfa başçılarının köməkliyi ilə yerli feodalların müqavimətini qırıb, özünə tabe edərək Hülakülər dövlətinin əsasını qoydu. Monqol hərbi-köçəri əyanları işğal olunmuş ölkələrdən saysız-hesabsız qənimət, qızıl və gümüş ələ keçirdilər. Ələ keçirilən hərbi qənimətin bir hissəsi böyük monqol xanı Münkə xana göndərildi.

Hülakülər dövlətinə Cənubi Qafqaz, İran, İraq, Kiçik Asiyanın bir sıra torpaqları daxil idi. Azərbaycan Hülakü dövlətinin siyasi və inzibati mərkəzinə çevrildi. Hülakü xanın vaxtında paytaxt Marağa şəhəri idi, Abaqa xanın vaxtında paytaxt Təbriz şəhəri oldu. Bu, Təbrizin daha əlverişli coğrafi mövqeyi ilə əlaqədar idi. Bundan sonra Azərbaycan Qızıl Orda ilə Hülakülər arasında döyüş meydanına çevrildi. Monqol işğalları Azərbaycan üçün də ağır nəticələrə səbəb oldu. Minlərlə insan qırılmış, əsir aparılmışdı. Monqol vergi yığanları vergiləri çox qəddarlıqla toplayırdılar. Xeyli bacarıqlı sənətkar Monqolustana aparılmışdı. Əhalinin sayı xeyli azalmış, maddi-mədəniyyət abidələri dağıdılmışdı.

### 3. Türk xalqları monqolların hakimiyyəti dövründə

Orta Asiya əhalisi monqollara elə bir müqavimət göstərə bilmədi və təslim oldular. Monqol işğallarından sonra bir müddət bu bölgənin idarə olunması işi nizama salınmadı. Bu da ölkənin iqtisadi və mədəni həyatına ciddi təsir göstərdi. **Monqollar işğal etdikləri torpaqları öz gücləri ilə idarə edə bilmirdilər. Buna görə Çingiz xan türkləri dövlətin idarə işlərinə cəlb edirdi. Uyğurlar dövlətin idarə olunması işində**

**mühüm rol oynayırdılar. Monqollar işğal etdikləri yerlərin idarə olunması işində uyğurların imkanlarından geniş istifadə edirdilər.** Çingiz xanın göstərişi ilə işğal olunmuş ölkələrin əhalisi orduya cəlb olunurdu. Monqol qoşunlarının tərkibində uyğurlar, karluklar, qırğızlar, türkmənlər və başqaları var idi.

Çingiz xan işğal etdiyi ölkələrdə heç bir yeni inzibati idarə üsulu tətbiq etməmişdi. Əyalətlərin idarəçiliyinə təyin edilmiş feodallar vergini yığıb mərkəzə göndərirdilər. Əyalətlərdə əvvəlki inzibati idarə sistemi qalırdı. Monqollar yerli idarə orqanları ilə mərkəzi hakimiyyət arasında geniş əlaqələr yaradılması üçün tədbirlər görürdülər. Eyni zamanda yerli idarə orqanlarının fəaliyyətinə nəzarət etmək üçün də tədbirlər görülürdü. Köçəri maldarlıq təsərrüfatının mövcudluğu oturaq əhalinin həyat tərzinə, ilk növbədə əkinçiliyin inkişafına mənfi təsir göstərirdi. Monqolların iqtisadi siyasəti əkin sahələrinin azalmasına, kəndlilərin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olurdu. Əkinçilik bir müddət tənəzzülə uğramışdı, kanallar və arxlar baxımsızlıqdan dağılmışdı. Monqol işğalları nəticəsində əhalinin etnik tərkibi dəyişdi, çoxları öz yerlərini tərk edib başqa yerlərdə məskunlaşırdı. Feodal zülmü ildən-ilə artırdı. Bu özünü vergi toplanmasında, feodal mükəlləfiyyətlərinin yerinə yetirilməsində göstərirdi. Mavərənnəhr, Yeddisu və Kaşqar əyaləti Çingiz xanın oğlu Cağataya verilmişdi. Cağatay ulusu imperiyanın digər bölgələri kimi mərkəzi hakimiyyətə tabe idi. Başqa yerlərdə olduğu kimi burada da dövlətin əsas ağırlığı aşağı təbəqələrin üzərinə düşürdü. Onlar vergi verir, orduya cəlb olunur, yerli məmurların, din xadimlərinin xeyrinə bir çox mükəlləfiyyətləri yerinə yetirirdilər. Bütün bu özbaşınalıqlar ölkədə üsyanlara səbəb olurdu. Belə çıxışlardan biri XIII əsrin 30-cu illərində Buxarada baş verdi. Üsyançılar yerli məmurları şəhərdən qovub çıxartdılar. Ağır döyüşlər baş verdi. Lakin üsyançılar pis silahlanmışdılar, ərzaq və su ehtiyatları yox idi. Bu isə onların

məğlubiyyətinə gətirib çıxartdı. Üsyançılar məğlub olsalar da Orta Asiya xalqlarının azadlıq mübarizəsi davam edirdi.

Hülakü xanın ölümündən sonra Azərbaycanda mərkəzi hakimiyyətə qarşı mübarizə başlandı. 1275-ci ildə Arranda Abaqa xana qarşı üsyan baş verdi və çətinliklə yatırıldı. Hətta Əhməd xan 1284-cü ildə narazı feodallar tərəfindən hakimiyyətdən salındı. Keyxatu xanın dövründə mərkəzi dövlət aparatı zəiflədi və o, yerli feodallara qarşı mübarizə apara bilmədi. Bütün bunları nəzərə alan Qazan xan öz siyasətində yerli feodallarla əlaqələrini möhkəmləndirməyə üstünlük verdi. Bu məqsədlə də o, bir sıra islahatlar həyata keçirdi. Ölkədə nisbətən sabit vəziyyət yarandı. Əbu Səidin dövründə bu sakitlik yenidən pozuldu, feodal ara çəkişmələri başlandı. Ölkədə üsyanlar baş verdi və ordunun köməyi ilə yatırıldı. Feodal ara çəkişmələri nəticəsində Əbu Səid 1335-ci ildə öldürüldü və Hülakülər dövləti getdikcə tənəzzülə uğradı. Azərbaycanda Çobani feodal qrupunun ağalığı başlandı. 1357-ci ildə isə Çobanilərin Hülakülər dövlətini saxlamaq uğrunda mübarizəsinə son qoyuldu və Hülakülər dövləti süqut etdi. Monqollar işğal etdikləri ölkələrin sosial-iqtisadi həyatında ciddi dəyişikliklər edə bilmədilər.

## 4.Qızıl Orda dövləti

Çingiz xan Orta Asiyanı işğal etdikdən sonra da qərb istiqamətində yürüşlərini davam etdirdi. Lakin onun başlıca məqsədlərindən biri də Avropa üzərinə yürüş etmək idi. O, bu vəzifəni böyük oğluna tapşırmışdı. Cuçinin ölümü ilə əlaqədar olaraq bu vəzifəni onun oğlu Batı həll etməli oldu.

Böyük xan Ugedeyin başçılığı ilə 1229-cu ildə Qaraqorum şəhərində qurultay çağırıldı. Bu qurultayda Avropa üzərinə hücuma hazırlaşmaq məsələləri də müzakirə olundu. Ölkədə yeni hərbi səfərbərlik keçirildi, ordunun təchizatı yaxşılaşdırıldı.

**1235-ci ildə Monqol imperiyasının paytaxtı olan Qaraqorumda toplanan monqol feodallarının qurultayı Avropaya hücum əməliyyatına başlamağa qərar verdi. Orduya Çingiz xanın nəvəsi Batı başçılıq etməli oldu.** Batının qoşunları Ural çayını keçərək 1236-cı ildə Volqaboyu Bulqar dövlətinin ərazisini tutdular, sonra isə rus knyazlıqlarının torpaqlarına daxil oldular. Monqol qoşunları 1237-ci ildə Volqa boyunda yaşayan xalqları tabe etdikdən sonra Ryazanı mühasirəyə aldılar. Batı yerli knyazlardan ona tabe olmağı və vergi verməyi tələb etdi, lakin knyazlar onun tələbini qəbul etmədilər. Knyazlar aralarındakı ixtilaflara da son verib birləşməyi bacarmadılar. Bir həftəlik mühasirədən sonra şəhər ələ keçirildi. Ryazan şəhərini dağıtdıqdan sonra monqol qoşunları şimal-şərqi rus torpaqlarının içərilərinə doğru irəlilədilər. 1238-ci ildə monqol qoşunları Volqa ilə Oka çayı arasındakı şəhərləri dağıtdılar. 1239-cu ildə Krımı işğal edən monqollar, 1240-cı ildə Kiyev şəhərinə daxil oldular. Buranı da dağıtdıqdan sonra qərb istiqamətində yürüşlərini davam etdirərək Çexiya, Polşa, Macarıstan, Moldaviya, Valaxiya ərazilərinə daxil oldular. Bu yerləri talan etdikdən sonra 1242-ci ildə monqollar Batı başda olmaqla Volqa sahillərinə qayıtdılar. Qərbi Avropa Batının orduları tərəfindən darmadağın edilməkdən xilas oldu. Bu, hər şeydən əvvəl ona görə baş verdi ki, rus knyazları ilə aparılan döyüşlər işğalçıların güvvəsini zəiflətmiş və onların Qərbi Avropanı işğal etmək planlarını pozmuşdu. Digər tərəfdən işğalçıların geri çəkilməsində Polşa, Macarıstan, Çexiya, Moldaviya, Valaxiya, Xorvatiya xalqlarının mübarizəsinin də böyük rolu olmuşdu. Beləliklə, Şərqi Avropanın xeyli hissəsi monqolların əlinə keçdi.

Batı xanın yürüşləri nəticəsində XIII əsrin 40-cı illərində Cənub-Şərqi Avropa da daxil olmaqla İrtış çayına qədər olan ərazidə Qızıl Orda dövləti yarandı. Dövlətin əhalisinin və ordusunun əksəriyyətini türk tayfaları təşkil etdiyindən onu

türk dövləti də adlandırırlar. Qızıl Orda xanlarının rəsmi fərmanları XIV əsrdən başlayaraq türk dilində yazılırdı. Rus knyazlıqları Qızıl Orda dövlətindən vassal asılılığında idilər. Dövlətin paytaxtı Batı xan tərəfindən indiki Həştərxan yaxınlığında salınan Saray Batı şəhəri idi.

Qızıl Orda dövlətinin başında Xan adlanan hökmdar dururdu. Onun yanında ali məşvərətçi orqan olan məclis fəaliyyət göstərirdi. Dövlət işlərini bəy və əmirlər, ayrı-ayrı sahələri vəzir və naiblər idarə edirdilər. Qızıl Orda ilk vaxtlar Monqolustanda oturan böyük monqol xanına tabe idi, XIII əsrin 50-ci illərinin sonundan isə müstəqil olmuşdu. Qızıl Orda adı monqol dilində çadır demək olan "Orda" sözündəndir. Xanların ordugahında xan çadırının üstü qızıl örtüklü olduğu üçün bu çadıra "Qızıl Orda" deyilirdi.

Batı xana aid yerlərə Şərq mənbələrində atasının adı ilə "Cuci ulusu" deyilirdi. Ulus "birləşmiş ellər" mənasındadır, yəni yer adı olaraq işlədilirdi. Batı xan Saray şəhərində oturub ölkəni idarə edərkən qardaşı Şərqi Qıpçaq ərazisini idarə edirdi. İmperiyanın şərq hissəsinə Ağ Orda, qərb hissəsinə Qızıl Orda deyilirdi. Dövlət iki hissəyə ayrılmış, ancaq Ağ Orda xanları Qızıl Orda xanlarına tabe qalmışdılar.

**Batı xanın ölümündən sonra 1257-ci ildə yerinə kiçik qardaşı Bərkə xan keçdi. Bərkə xan öz adına pul kəsdirməklə mərkəzlə əlaqəsini tamamilə kəsərək müstəqilliyini elan etdi.** Bərkə xan qardaşının siyasətini davam etdirərək dövlətin möhkəmləndirilməsinə xüsusi diqqət verməyə başladı. Volqoqrad yaxınlığında yeni Saray şəhərini salaraq paytaxtı bu şəhərə köçürdü.

Bərkə xanın dövründə Qızıl Orda dövləti Hülakülər dövləti ilə müharibələrə başladı. Belə ki, Çingiz xanın vəsiyyətinə görə Cənubi Qafqaz, İran, Mesopotamiya Cuci ulusuna daxil olmalı idi. 1263-cü ildə Qızıl Orda sərkərdəsi Noqay Dərbəndi tutsa da, 1265-ci ildə Hülakülər onları qovdular. 1288-ci və 1290-cı illərdə də Qızıl Orda qoşunları cənuba Hülakülər dövlətinin

ərazisinə yürüş etmiş və ölkədə dağıntı törədərək geri qayıtmışdılar. 1335-ci ildə Qızıl Orda xanı Özbək Azərbaycana hücum etdi. Lakin müqavimətlə üzləşərək geri çəkilməli oldu. 1357-ci ildə Qızıl Orda xanı Canıbəy Azərbaycana daxil olaraq, hakimiyyəti ələ aldı. Oğlu Bərdibəyi Təbrizdə qoyaraq özü Qızıl Ordaya qayıtdı. Atasının həmin ildə ölümü ilə bağlı Bərdibəy geri qayıtmalı oldu.

**Bərkədən sonra Batı xanın nəvəsi Məngü Teymur Qızıl Orda xanı oldu. Məngü xan Ugedey və Cağatay oğulları arasındakı müharibələrdə Ugedeyin oğullarını müdafiə etdi. Bu arada Bərkənin qardaşı oğlu Əmir Noqayın nüfuzu artmış, dövləti o idarə etməyə başlamışdı. Əmir Noqay bu nüfuzunu tam qırx il qorudu və bu müddət ərzində Qızıl Orda xanlarını taxta çıxaran, onları öz itaəti altında saxlayan bir sərkərdə olaraq qaldı.** 1291-ci ildə hakimiyyətə gələn Toqta xan 1300-cü ildə onunla vuruşdu, qalib gələrək öldürdü. Beləliklə, dövlətin tək hakimi oldu. O vaxtdan Aşağı Volqa və Yaik çayları ətrafında yaşayan və Əmir Noqaya tabe olan tayfalara “Noqaylar” deyildi. **1312-ci ildə Toqta xanın ölümündən sonra onun yerinə Özbək hakimiyyətə gəldi. Onun dövründə Qızıl Orda dövləti tamamilə bir türk dövləti oldu. Monqol azlığı türklərlə qarışmış və əriyib getmişdi. Müsəlmanlığa da böyük əhəmiyyət verirdi və Saray şəhəri mühüm bir dini mərkəz oldu.** Çoxlu mədrəsə və məscidlər tikdirdi. Qızıl Ordanın güclü dövlətə çevrilməsində Özbək xan böyük rol oynamışdı. Özbək xan dövründə Qızıl Ordanın qonşu ölkələr və dövlətlərlə ticarət münasibətləri genişlənmişdi. Özbək xanın oğlu Canıbəy(1342–1357) dövründə də dövlət hərbi cəhətdən çox güvvətli idi. Canıbəyin dövründə Xorasan və Azərbaycanı Qızıl Orda dövləti ələ keçirmişdi. 1357-ci ildə Canıbəyin ölümündən sonra Bərdibəy Təbrizdən qayıdaraq Qızıl Orda xanı oldu.

Bərdibəy (1357–1360) dövründə Qızıl Ordada hakimiyyət uğrunda saray münaqişələri gücləndi. Bərdibəyin ölümündən

sonra 1360-cı ildən 1380-ci ilə qədər ölkədə qarışıqlıq davam etdi. Bu qarışıqlıqda 14 xan dəyişdi. Ölkədə feodal ara müharibələrinin davam etdiyi bir vaxtda Qızıl Orda qüvvələri talançılıq məqsədilə rus torpaqlarına hücumlarını artırdılar. Ruslar isə ordalılara qarşı müqaviməti gücləndirirdilər. 1377-ci ildə Nijnı Novqorod qoşunları Moskva knyazının qüvvələri ilə birləşərək Volqaboyunda Orda xanlarına qarşı müvəffəqiyyətli yürüş keçirdilər. Rusların uğurlu yürüşünü görən Mamay xan öz feodallarının qüvvələrini müəyyən qədər birləşdirməyə nail oldu. Hər iki tərəf döyüşə hazırlaşırdı. 1380-ci ilin sentyabrında baş vermiş döyüşdə Qızıl Orda qüvvələri darmadağın oldu, Mamay xan Krıma qaçdı və orada öldürüldü. Lakin rusların qələbəsinə baxmayaraq rus knyazları Qızıl Orda əsarətindən xilas ola bilmədilər. 1380-ci ildə hakimiyyətə gələn Toxtamış xan dövlət daxilindəki qarışıqlıqları nizama saldı və ölkənin birliyini təmin etdi. Bu birliyin təmin edilməsində Toxtamış xana Teymur kömək etmişdi. Lakin vəziyyəti düzəltdikdən sonra Teymurla əlaqəsini kəsdi. Toxtamış xan 1382-ci ildə Moskva üzərinə hücum etdi. Şəhərə daxil olan ordalılar Moskvanı dağıtdılar. Sonra Toxtamışın qüvvələri Vladimir, Kolomna, Mojaysk, Volokolamsk şəhərlərini talan etdilər. Rus knyazları Toxtamış xana vergi verməyə razı oldular. 1395-ci ildə Terek çayı sahilində Toxtamışın qüvvələrinin Teymurun qoşunları tərəfindən darmadağın edilməsi Qızıl Orda dövlətini ağır bir vəziyyətə saldı. Teymur Qızıl Orda dövlətinin başına Qutluk xanı gətirərək geri çəkildi. Toxtamış Litvaya qaçdı. Qutluk xan 1401-ci ildə öldü. Onun yerinə Şadı bəy keçdi. Lakin daxili çəkişmələr Şadı bəyi hakimiyyətdən getməyə məcbur etdi. Yerinə Pulat bəy keçdi. Bu dövrdə güvvətlənən Litva knyazlığı Qızıl Orda dövləti üzərinə təzyiqlərini artırırdı. Ölkə daxilində mövcud feodal çəkişmələri, ara verməyən müharibələr Qızıl Orda dövlətinin parçalanmasına səbəb oldu. XV əsrin 30-cu illərindən başlayaraq Qızıl Orda ərazisində bir-birinə düşmən olan bəylər tərəfindən ayrı-ayrı xanlıqlar

yaradıldı. Qızıl Orda dövlətində xanlar və bəylər arasında davam edən çəkişmələr, digər bir tərəfdən də rusların sıxışdırması nəticəsində 1502-ci ildə Qızıl Orda dövləti süqut etdi.

Ölkənin siyasi həyatında baş verən dəyişikliklər iri torpaq sahibliyinin yaranmasına və bunun nəticəsi olaraq feodal əyanlarının nüfuzunun artmasında özünü göstərirdi. Xanın yaxın adamları böyük torpaq sahələrinə sahib olur və beləliklə də iri feodallara çevrilirdilər. Xanın hüquqları qeyri-məhdud idi, ondan sonra bəylər geniş imtiyazlara malik idilər. Bəylər ölkənin idarə olunması işində bilavasitə iştirak edirdilər. Kəndlilər öz feodallarına verdikləri vergilərlə yanaşı, dövlətə də vergi verirdilər. Eyni zamanda kəndlilər bir çox mükəlləfiyyətləri də yerinə yetirməli idilər. İri feodallar bəzən xana tabe olmur, öz müstəqilliklərini elan edirdilər ki, bu da dövləti zəiflədirirdi.

## 5.Krım xanlığı

Qızıl Orda dövlətinin yaradıcısı olan Batı xan ölkənin əsas mərkəzlərinə öz sülaləsindən hakimlər təyin edirdi. Belə mərkəzlərdən biri də Krım idi və burada türk tayfaları yaşayırdı. Xəzər, Kuman, Qıpçaq və Oğuz tayfalarının təşkil etdiyi bu türklərə "tatar türkləri" adı verildi.

Qızıl Orda xanları özlərini Krım yarımadasının sahibi hesab edirdilər. Onlar Venesiya və genuyalıların idarəsi altında olan şəhərlərdən vergi alırdılar. Ticarət limanları vergi verməkdən boyun qaçırdıqda, itaət etmədikdə ağır cəzalara məhkum edilirdi. Tatarlar da liman şəhərlərindən ticarət məqsədilə istifadə edirdilər. Onlar yarımadanın iqtisadi və siyasi həyatına nəzarət edirdilər. Krım yarımadasında feodal münasibətlərinin inkişafı ölkənin iqtisadi və siyasi həyatına böyük təsir göstərirdi. Ticarətin canlanması, sənətkarlığın inkişafı ictimai münasibətlərin genişlənməsinə səbəb olurdu.

Qızıl Orda dövlətinin mərkəzi Saray şəhərindən sonra ən mühüm mərkəz Krım idi. Qızıl Orda xanları hakimiyyət uğrundakı mübarizələrində Krımdan bir hərbi baza kimi istifadə etmişlər. XV əsrin 30-cu illərində Krım hakimi Teymurtaş özünü xan elan etdi. Lakin onun hakimiyyəti uzun olmadı. Teymurtaşın yerinə Qiyasəddin keçdi. Bu dövrdə Qızıl Orda xanı olan Pulat xan Krımı ələ keçirərək Qiyasəddini hakimiyyətdən uzaqlaşdırdı. **Lakin Qızıl Orda dövlətindəki çəkişmələrdən istifadə edən Qiyasəddinin oğlu Hacı Gəray Krımda hakimiyyəti ələ aldı və 1438-ci ildə müstəqilliyini elan etdi. Qızıl Orda xanı onun müstəqilliyini qəbul etməli oldu.** Hacı Gəray güclü ordu yaratdı, ordu əsasən tatarlardan ibarət idi. Hacı Gəray genuyalılarla apardığı müharibədə qalib gələrək Kəfə qalasını aldı, lakin bir müddətdən sonra genuyalılar qalanı geri aldılar.

Hacı Gərayın ölümündən sonra oğlanları arasında hakimiyyət uğrunda mübarizələr başladı. Əvvəl qardaşlardan Məngli Gəray xanlığı ələ keçirdi, amma bir müddət sonra qardaşı Nurdövlət onu məğlub edərək hakimiyyətə gəldi. Nurdövlət xanla razılığa əsasən genuyalılar onlara sığınan Məngli Gərayı həbs etdilər.

Konstantinopolun osmanlılar tərəfindən işğalından sonra Osmanlı imperiyasının xarici siyasətində Qara dənizin şimal sahillərinin işğalı başlıca vəzifələrdən biri olaraq qalırdı. Nurdövlətin genuyalılarla razılığa gəlməsi Krım bəyləri və xalq tərəfindən heç də yaxşı qarşılanmadı, onlar osmanlıları dəvət etdilər. Belə bir vəziyyətdən istifadə edən Türkiyə Krımın daxili işlərinə qarışmağa başladı. 1475-ci ildə Osmanlı qoşunları Krımda Kəfə, Sudak, Anapa, habelə Donun mənsəbi və Azovun sahilində yerləşən Tananı ələ keçirdilər. **Osmanlı qoşunları mərkəzi Bağçasaray olmaqla Krım xanlığını saxladılar, Krım bəyləri Məngli Gərayın xan olmasını istədilər. Məngli Gəray Krım xanı oldu. Məngli Gəray türklərin irəli sürdükləri bütün şərtləri qəbul edərək öz**

**hakimiyyətini qoruyub saxladı. Beləliklə, Krım xanlığı Osmanlı imperiyasının asılılığını qəbul etdi. Krım xanlığı Osmanlı dövlətinin ən güclü dayaqlarından birinə çevrildi.** Krım xanlığı Osmanlı imperiyasına arxalanaraq hərbi qüvvələri artırmaq üçün bir sıra tədbirlər gördü. Rusiya ilə sərhədlərinin möhkəmləndirilməsinə Məngli Gəray xüsusi diqqət verirdi. Krım xanlığı ilə Osmanlı imperiyası aralarındakı münasibətləri nikah diplomatiyası vasitəsilə daha da möhkəmləndirdilər. Belə ki, Sultan I Səlim Krım xanı Məngli Gərayın qızı ilə evlənmişdi.

Kazan və Həştərxan xanlıqlarının rus qoşunları tərəfindən işğal olunması Krım xanlığı ilə Rusiya arasında münasibətlərin pisləşməsinə səbəb oldu. Rusiya isə artıq Krım xanlığını işğal etməyi və Qara dənizə çıxmağı planlaşdırırdı. XVII əsrdə Rusiyanın Krım xanlığı ilə mübarizəsində Don kazakları da yaxından iştirak edirdilər. Kazaklar qayıqlarla Don çayı ilə Azov dənizinə və buradan Qara dənizə gedir, Krım sahillərini talan edirdilər.

1637-ci ildə Don kazakları uzun sürən mühasirədən sonra türk qalası Azovu aldılar və türklərin qalanı qaytarmaq üçün dəfələrlə cəhd göstərmələrinə baxmayaraq, burada beş il qaldılar. Bununla belə, kazaklar öz qüvvələri ilə müdafiə oluna bilməzdilər və kömək üçün 1642-ci ildə Moskvaya müraciət etdilər. Rusiya Azovun birləşdirilməsinin əleyhinə olduğunu bildirdi, çünki bu, Türkiyə ilə müharibə demək olardı. Buna görə də kazaklar Azovu tərk etməyə məcbur oldular. Kazakların ara verməyən hücumları Krım xanlığının xeyli zəifləməsinə səbəb oldu. Ukraynanın Rusiya tərəfindən işğal olunması Krım xanlığının beynəlxalq vəziyyətini daha da ağırlaşdırdı. Krım xanının qüvvələri tez-tez Ukraynaya hücum edirdilər. 1660-cı ildə Polşa və Krımın birləşmiş qüvvələri rusları məğlub etdilər. Polşa ilə əldə olunmuş razılığa əsasən Sol sahil Ukraynası və Kiyev Rusiyaya çatdı. Lakin Ukrayna uğrunda mübarizə davam edirdi. 1677-ci ildə Türkiyə Ukrayna

uğrunda Rusiya ilə müharibəyə başladı. Bu müharibədə Krım xanlığının qüvvələri də türklərlə birlikdə vuruşurdular. Bu müharibədə ruslar bir neçə dəfə müvəffəqiyyət qazandılar. 1681-ci ildə Bağçasarayda iyirmi illik barışıq haqqında müqavilə bağlandı. Türkiyə Kiyev və Sol sahil Ukraynasının Rusiyanın olduğunu təsdiq etdi. Dneprlə Buq arasındakı torpaqlar məskunlaşdırılmamış qalmalı idi. **1687-ci ildə Qalitsın başda olmaqla rus qoşunları Krıma hücum etdilər. Krım tatarları çöllük əraziləri yandırdılar. Ərzaq çatışmazlığı rusları geri qayıtmağa məcbur etdi. 1689-cu ildə ruslar Qalitsının başçılığı ilə Krıma yenidən hücum etdilər. Rusiyanın hərbi geriliyi özünü göstərdi və Krıma hücum müvəffəqiyyətsizliklə nəticələndi.**

1696-cı ildə ruslar Azov qalasını qurudan və dənizdən mühasirəyə aldılar. 1696-cı ilin iyulun 18-də qalanın qarnizonu təslim oldu. Ruslar Qara dənizə çıxmaq üçün cəhdlər etdilər. Lakin I Pyotrun bütün bu cəhdləri nəticəsiz oldu. Rus qoşunları müqavimətə rast gələrək geri çəkildilər. Azov qalasının alınması hələ Qərbə dəniz yollarının açılmasını təmin etmirdi, çünki Kerç boğazı və Qara dəniz Türkiyənin əlində qalırdı. I Pyotr Qara dənizdə nəzərdə tutduğu planlarından müvəqqəti olaraq əl çəkməli oldu. O, Baltik dənizinə çıxmağı ön plana çəkdi və bu məqsədlə də Türkiyə ilə sülh danışıqlarına başladı. 1700-cü ilin iyulunda tərəflər arasında barışıq imzalandı. Barışığın şərtlərinə görə Azov qalası, onun ətraf torpaqları Rusiyaya verildi. Bu da Krım xanlığının siyasi mövqeyini xeyli zəiflətdi. **Rusların İsveç üzərində qələbələrindən narahat olan İngiltərə Türkiyəni Rusiya ilə müharibəyə təhrik edirdi. Türkiyənin özündə də Azovun qaytarılmasının tərəfdarları çox idi. 1710-cu ildə Türkiyə Azov qalasını tələb etdi və bu tələb yerinə yetirilmədikdə Türkiyə 1710-cu ilin payızında Rusiyaya müharibə elan etdi. Lakin hərbi əməliyyatlar 1711-ci ilin yanvarında Krım tatarlarının Ukraynaya hücumları ilə başladı. 1711-ci ilin yazında Purt**

**çayı sahilində ağır döyüşlər oldu. Rus qoşunları ağır bir vəziyyətə düşdülər. Rusların türklərlə apardıqları danışıqlar iyulun 12-də sülh müqaviləsinin imzalanması ilə nəticələndi. Azov qalası Türkiyəyə qaytarıldı.** Rusiya Polşanın işlərinə qarışmamağa söz verdi. 1735-ci il Gəncə müqaviləsinin şərtlərinə görə Rusiya Xəzərsahili vilayətləri Səfəvilərə qaytarmalı oldu, lakin həmin ərazilərə Türkiyənin daxil olmasına yol verilməməli idi. 1735-ci ildə Türkiyə Krım tatarlarının Cənubi Qafqaza hücumunu təşkil etdi. Bu isə 1735-ci ilin payızında Rusiya ilə Türkiyə arasında müharibəyə səbəb oldu. 1736-cı ildə ruslar Bağçasarayı tutdular. Lakin Cənubi Qafqazdan geri qayıdan tatarlar tərəfindən mühasirəyə düşəcəklərindən qorxaraq, Krımdan geri çəkildilər. Azov qalası Rusiyaya keçdi. 1737-ci il danışıqları heç bir nəticə vermədi və müharibə yenidən başladı. Rusiyanın müttəfiqi Avstriya məğlubiyyətə uğradığından 1739-cu ildə Türkiyə ilə separat sülh bağladı. Bundan sonra həmin ilin sentyabrında Belqradda Türkiyə ilə Rusiya arasında sülh müqaviləsi imzalandı. Belqrad müqaviləsinə əsasən Rusiya Azov qalasını aldı, bundan əlavə, Dnepr çayının orta axını boyu Sağ sahil Ukraynasının kiçik bir hissəsi də Rusiyaya verildi. Dörd illik ağır müharibəyə baxmayaraq Rusiya Qara dənizə çıxa bilmədi.

Rusiyanın Polşada uğurları Avstriyanı və Fransanı narahat etdi. Fransa özünün Türkiyəyə təsirindən istifadə edərək, onu 1768-ci ildə Rusiyaya qarşı müharibəyə təşviq etdi. 1768-ci ildə Türkiyə Rusiyaya müharibə elan etdi. Lakin Rusiyanın içərilərinə girmək üçün türklərin göstərdikləri bütün cəhdlərin qarşısını ruslar aldılar. 1769-cu il kampaniyası türklər üçün uğursuz oldu. 1770-ci il kampaniyası həm quruda, həm də dənizdə Rusiyanın üstünlüyü ilə keçdi. 1771-ci ildə Rumyantsev Dunayda uğurlu əməliyyat apararaq türkləri böyük tələfata uğratdı. Ruslar türklərlə danışıqlara başladılar. Rusların boğazlardan sərbəst keçmək təklifi qəbul olunmadıqda 1773-cü ildə rus qoşunları yenidən fəal hərbi əməliyyatlara

başladılar. 1774-cü il iyulun 10-da Kiçik Qaynarca kəndində Türkiyə ilə sülh müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Krım, Kuban tatarları və başqaları Türkiyədən asılı olmurdular. Krımda Kerç və Yeniqala, Qara dəniz sahilində Kinburn Rusiyaya verilirdi. Rusiya Azovu möhkəmləndirmək hüququ alırdı, Türkiyə rus gəmilərinə boğazlardan sərbəst keçmək hüququ verir və 4,5 milyon manat təzminat ödəyirdi. Bundan başqa, Rusiya Valaxiyanı və Moldaviyanı öz himayəsi altına alırdı. Kiçik Qaynarca sülhü Rusiyanı Qara dəniz dövlətinə çevirdi. 1783-cü ildə sonuncu Krım xanı Şahin Gəray hakimiyyətdən əl çəkməyə məcbur oldu. Krım yarımadası Rusiyanın tərkibinə daxil edildi.

## 6.Kazan xanlığı

Qızıl Orda imperiyasının parçalanması ilə yaranan xanlıqlardan biri də Kazan xanlığıdır. Xanlığın ərazisi Volqa çayının sağ sahillərindən Kama çayına qədər olan geniş bir ərazini əhatə edirdi. **1437-ci ildə Ulu Məhəmməd Kazan şəhərini özünə paytaxt edərək müstəqilliyini elan etdi. O, qısa müddətdə Volqa bulqarlarını, tatarları, udmurtları, çuvaşları, başqırdları öz ətrafında birləşdirə bildi.** Bu dövrdə Kazan böyük şəhər idi, ruslar Kazan şəhəri ilə ticarət əlaqələri saxlayırdılar. Habelə Kazan xanlığının ərazisi ilə tranzit ticarəti aparırdılar. Xanlıqda feodal istehsal üsulu mövcud idi. Torpaqlar ayrı-ayrı feodalların əlində idi. Kəndlilər feodallara məxsus torpaqlarda yaşayırdılar və icarəyə götürdükləri torpaq payı əvəzində illik vergi verirdilər. Xan və ailə üzvlərinin böyük torpaq sahələri var idi. Xanlıqda əhalinin əsas məşğuliyyəti əkinçilik idi. Əhali maldarlıqla da məşğul olurdu. Qədim bulqarların ənənəsini davam etdirən sənətkarlar əmək alətləri, silah, ev əşyaları, geyim paltarları hazırlayırdılar.

**1439-cu ildə Ulu Məhəmməd Moskvaya yürüş etdi, Moskva ətrafı kəndləri dağıtdı, xeyli insanı əsir götürdü. 1445-ci ildə Ulu Məhəmmədin hərbi qüvvələri yenidən rus torpaqlarına soxuldular və Moskva qoşunlarını məğlubiyyətə uğratdılar.** Moskva knyazı II Vasili yaralandı və əsir düşdü. Ulu Məhəmməd böyük məbləğdə pul alıb II Vasilini azad etdi. Ulu Məhəmməd ömrünün sonuna kimi Rus knyazlıqları ilə mübarizə aparmışdır. 1445-ci ildə Ulu Məhəmməd öldü. Ulu Məhəmməddən sonra yerinə böyük oğlu Mahmud xan oldu. O, atasının siyasətini davam etdirməyə başladı. Rusların Volqaboyu xalqları işğal etmək siyasətinə qarşı Mahmud xan 1446-1448-ci illərdə Murom, Vladimir, Ustyuq və başqa ərazilərə hərbi səfərlər təşkil etmişdir.

Xəlil xanın dövründə Kazan xanlığında hakimiyyət uğrunda mübarizə geniş xarakter aldı. Xəlil xanın qardaşı və əmisi bu mübarizəyə qoşuldular. Hakimiyyət mübarizələri Kazan xanlığı üçün təhlükə yaratmağa başladı. Rus qoşunları üç dəfə Kazan şəhərinə yaxınlaşdı, lakin şəhərə daxil ola bilmədilər. 1469-cu il və 1478-ci ildə tərəflər arasında sülh bağlansa da, Moskva knyazlığı sülhün şərtlərinə əməl etmirdi.

1479-cu ildə Əli xan hakimiyyətə gəldi, bu dövrdə hakimiyyət mübarizələri və rus hücumları Kazan xanlığını zəiflətdi. Əli xan rusların gələcək hücumlarından qorunmaq üçün ordunun gücləndirilməsinə çalışırdı. O, digər türk xanlıqları ilə əlaqələr saxlayırdı. Bununla belə Rusiya ilə ticarət əlaqələrini genişləndirmək, sülh münasibətlərini qoruyub saxlamağa cəhd edən qüvvələr də var idi. Bu qüvvələrdən Moskva çox bacarıqla istifadə edirdi. XVI əsrin əvvəllərində mərkəzləşmiş rus dövlətinin yaranması Kazan xanlığının vəziyyətini ağırlaşdırdı. 1521-ci ildə Krım xanlığının köməyi ilə Kazanda çevriliş təşkil olundu və ruslara düşmən olan qrup hakimiyyət başına gətirildi. Kazan xanlığı 28 il Krım xanlığının tabeliyində qaldı. XVI əsrin ortalarına doğru Rusiyanın xarici siyasətində Kazan xanlığının işğal olunması

mühüm yer tuturdu. Rus qoşunları tez-tez Kazan xanlığının sərhədlərinə hücumlar təşkil edirdilər. Eyni zamanda Rus çarı IV İvan Qroznı ticarət əlaqələrini bəhanə edərək xanlığın daxili işlərinə qarışır, ölkədəki sabitliyi pozurdu. Rus qoşunlarının Kazan xanlığına 1547-1548 və 1549-1550-ci illərdə müvəffəqiyyətsiz yürüşlərindən sonra Kazan yaxınlığında 1551-ci ildə Sviyajsk qalasını tikdilər. Bu qala Kazan xanlığına həlledici hücum üçün hərbi baza oldu. IV İvan başda olmaqla rus ordusu 1552-ci ilin avqustunda Kazan xanlığına hücum etdi. 1552-ci il oktyabrın 2-də Kazan xanlığı hücumla alındı. Kazan xanlığına son qoyuldu.

## 7.Həştərxan xanlığı

Volqa çayının aşağı axarında yerləşən Həştərxan xanlığı Kazan xanlığı ilə eyni bir dövrdə Qızıl Ordadan ayrılaraq müstəqil xanlığa çevrilmişdir. **Xanlığın yaradıcısı Qasım xan olmuşdur. Həştərxan xanlığının ərazisi Volqaboyunu və Şimali Qafqaz çöllərini əhatə edirdi. Xanlığın mərkəzi Həştərxan şəhəri idi.** Əhali əsasən maldarlıq və ovçuluqla məşğul olurdu. Burada əkinçilik də qismən inkişaf etmişdi. Xanlıqda müxtəlif sənət sahələri də mövcud idi. Həştərxan xanlığı Cənub və Şərq ölkələri ilə geniş ticarət əlaqələri saxlayırdı. XVI əsrin əvvəllərindən başlayaraq ticarət əlaqələri daha da genişlənmişdi.

Ticarət əlaqələri xanlığın etnik tərkibinin dəyişməsinə gətirib çıxarmışdı. Bir sıra ölkələrdən Həştərxana çoxlu tacir gəlib burada məskunlaşırdı. Həştərxan xanlığının iqtisadi və təsərrüfat həyatında canlanma yarandıqca Rusiyanın bu ölkəyə marağı da artırdı. XVI əsrin 40-cı illərindən başlayaraq Rusiya Həştərxana daha çox meyl etməyə və daxili işlərinə qarışmağa başladı. 1554-cü ildə Moskvaya yaxın olan Əli hakimiyyətə gətirildi. Əli Rusiyanın asılılığını qəbul etdi. Əli Krım xanının köməyinə arxalanaraq müstəqilliyə can atdı. Onun bu hərəkəti

rusların Həştərxana hücumunu tezləşdirdi. 1556-cı ildə Rus çarı IV İvan Həştərxan xanlığına hücum etdi. Rus qoşunları ciddi müqavimətə rast gəlmədən Həştərxan xanlığını işğal etdilər. Həştərxan xanlığı Rusiyaya birləşdirildi və xanlığın mövcudluğuna son qoyuldu. Volqaboyu torpaqlarının ruslar tərəfindən mənimsənilməsi başlandı. Bu yerlərdə ruslar yeni şəhərlər saldılar. Rusiya feodalları burada torpaqları ələ keçirir və kəndliləri əsarət altına alırdılar. Əhalinin zorla xristianlaşdırılması başlandı. Xristianlığı qəbul edən qeyri-rus kəndliləri bir çox mükəlləfiyyətlərdən azad olunurdular. Hətta nikah məsələlərinə xüsusi diqqət verilirdi. Ruslarla nikah əlaqələrinə girən ailələrə bir çox hallarda müəyyən güzəştlər edilirdi. Rusiya dövlətinin apardığı bu cür siyasət Volqaboyu rayonlarda ruslaşdırma siyasətini sürətləndirirdi.

## 8.Sibir xanlığı

Sibir Asiya qitəsinin böyük bir hissəsini təşkil edir. Eramızdan əvvəl birinci minillikdə bu ərazidə köçəri əhalinin tayfa birləşmələri əmələ gəlmişdi. Bu tayfa birləşmələrinin əsasında Cənubi Sibirdə ilk tayfa ittifaqları yaranmışdı. Köçərilərin tayfa birləşmələri eyni bir ərazidə uzun müddət qalmırdılar. Maldarlıqla məşğul olan bu tayfaların geniş otlaqlara ehtiyacı olduğu üçün bir yerdən digərinə köçürdülər. Eramızın birinci əsrində köçərilərin əsas istiqamətləri Qərbi Sibirə doğru olmuşdur. Bu ərazidə sabar, qırğız, tatar, qazax və başqa türk tayfaları yaşayırdılar. Bu tayfalar tədricən bir-birlərinə yaxınlaşmış, uzun müddət bir yerdə yaşayaraq qaynayıb-qarışmış, bir xalq kimi formalaşmışlar. Monqolların işğalları nəticəsində Sibir ərazisində yaşayan tayfalar monqol imperiyasının tərkibinə daxil oldular. Sibir ərazisinin böyük bir hissəsi Qızıl Orda xanlığına tabe idi. Sibirdə iri ticarət mərkəzləri var idi. Bir çox ölkələrdən tacirlər buraya gələrək mallarını satırdılar. XIII-XIV əsrlərdə feodal münasibətlərinin

inkişafı türk tayfaları içərisində siyasi birləşmələrin yaranmasına səbəb olurdu.

**Sibir xanlığının əsasını XV əsrin sonlarında İbak xan qoymuşdu. Sibir xanlığı digər türk xanlıqları ilə geniş ticarət əlaqələri yaratmışdı. Sibir xanlığının mərkəzi Tümen şəhəri idi. İbak xan Moskva knyazlığı ilə də əlaqələr qurmuşdu.** Feodal müharibələri getdikcə Sibir xanlığını zəiflədirirdi. İbak xan feodallara və xarici hücumlara qarşı mübarizə aparmalı oldu. İbak xan tatar feodalları ilə döyüşlərin birində 1495-ci ildə öldürüldü. **Onun yerinə Məhəmməd xan hakimiyyətə gəldi.** Məhəmməd xanın dövründə ruslar Uralın şərq hissəsinə silahlı dəstələr gətirirdilər. Bu silahlı dəstələr tez-tez Qərbi Sibir torpaqlarına daxil olurdular. Moskva knyazı III İvanın göstərişi ilə XVI əsrin əvvəllərindən başlayaraq Qərbi Sibirə müdaxilələr olurdu. Volqaboyunun Rusiyaya birləşdirilməsindən sonra Rusiyanın xarici siyasətində Qərbi Sibir məsələsi əsas yer tuturdu.

Çar və rus feodallarının yeni ərazilər ələ keçirməkdə, bu ərazilərdən gəlir götürməkdə marağı var idi. Xəzə tələbat artırdı ki, bu tələbatı da Sibir ödəyə bilərdi. Rusiyanın Sibir xalqları ilə əlaqələri də genişlənirdi. XVI əsrin ortalarında Sibir xanı Yadigar xan Rusiyanın asılılığına düşdü və illik vergi verməli oldu. 1563-cü ildə hakimiyyətə gələn Kuçum xan ruslarla müharibə etdi və rusların asılılığından azad oldu**. XVI əsrin 60-cı illərində Sibir xanlığı xeyli güclənmişdi. Lakin Kuçum xanın Rusiyaya qarşı açıq müharibəyə girmək üçün kifayət qədər gücü yox idi. Eyni zamanda rus çarı IV İvan Kuçum xanla münasibətləri ilk növbədə döyüşsüz həll etməyə çalışırdı.** Lakin Perm şəhərinə xeyli silahlı qüvvə də göndərilmişdi. Kama çayı sahilində ruslar qalalar tikməyə başladılar. **1571-ci ildə IV İvan vaxt qazanmaq üçün Kuçum xanla diplomatik danışıqlar apardı.** Rus çarı IV İvan 1574-cü ildə diplomatik danışıqlar istənilən nəticəni vermədiyi üçün İrtış, Ob çayı sahillərində müdafiə qalalarının tikilməsinə

göstəriş verdi. Beləliklə, çar IV İvan Rusiyanın Sibirdə mövqeyini möhkəmləndirmək məqsədi ilə geniş tədbirlər həyata keçirdi. 1582-ci ildə Kuçum xana qarşı yürüş təşkil edildi və bu yürüşdə Volqa kazakları da iştirak edirdilər. Yürüşə Yermak başçılıq edirdi. Yermakın silahlı dəstələri Sibrin Kaşlıq şəhərini ələ keçirdi. Kuçum xan səhraya doğru çəkildi, bir sıra tayfa başçıları Rusiyaya vergi verməyə razı oldular. Bu yerləri işğal etmək üçün rus qüvvələri azlıq təşkil edirdilər. Kuçum xan yenidən hücumlara başladı, yerli feodallar da ona qoşuldular. 1585-ci ildə Yermak həlak olduqdan sonra kazaklar və rus döyüşçülərinin qalıqları Sibiri tərk etdilər. Ruslar 1582-ci ildə Tobolsk və 1586-cı ildə Tümen qalalarını tikdilər. Bu qalalar rus silahlı qüvvələrinin qərargahına çevrildi. Kuçum xana qarşı hücum üçün yenidən hazırlıq işləri görüldü. Hücum 1598-ci ildə başladı. Kuçum xanın qüvvələri darmadağın edildi və Kuçum xan çox keçmədi həlak oldu. Qərbi Sibir xalqları Rusiyanın tərkibinə daxil oldular. Çar, rus feodalları və tacirləri diyarın yerli əhalisini əsarət altına almağa və qarət etməyə başladılar. Rusiya tədricən bu yerlərin idarə olunması işlərini nizama salmaq üçün tədbirlər görməyə başladı.

Belə ki, Sibrin idarə olunması ilə əlaqədar 1637-ci ilin fevralın 19-da Çar xüsusi fərman verdi. Bu fərmanla yeni mərkəzi Sibir idarəsi yaradıldı. Bu idarə onlarla şöbədən ibarət idi. Sibir ayrı-ayrı qəzalara bölünürdü.

Şərqi Sibrin yerli əhalisi ictimai münasibətlərin inkişafının müxtəlif pillələrində dururdu. Yakutlar Uzaq Şərqdə yaşayan ən qədim türk xalqlarındandır. Yakutlar Lena boyunda yaşayırdılar və başlıca məşğuliyyətləri maldarlıq, ovçuluq və balıqçılıq idi. Yakutlarda son orta əsrlər dövründə qəbilə-tayfa təşkilatı qalmışdı, lakin bununla yanaşı əmlaka görə təbəqələşmə də mövcud idi. Şərqi Sibirdə yaşayan türk tayfalarından biri də xakaslardır. Onlar Rusiyanın Xakas muxtar vilayətində yaşayırlar. Xakaslar erkən orta əsrlərdə

Yenisey qırğızlarının tərkibində olmuşlar. Bunu Xakas və qırğız dili arasındakı yaxınlıq göstərir. Şərqi Sibirin türk xalqlarından biri də Kurıkanlardır. Kurıkanlar Baykal gölü hövzələrində yaşayırdılar. Arxeoloji qazıntılar göstərir ki, kurıkanların təsərrüfat həyatında maldarlıq əsas yer tutmuşdur. Cənub-Şərqi Sibirdə Altayın türk tayfaları da (teleslər, tubalar, teleutlar, kumanlar və başqaları) yaşayırdılar. Rus silahlı qüvvələri Qərbi Sibiri işğal etdikdən sonra tədricən Şərqi Sibirə doğru irəlilədilər. XVII əsrdə Yenisey çayının sahilinə qədər gəlib çıxdılar. 1632-ci ildə Yenisey çayı sahilində Lena qalası tikildi. XVII əsrdə uzun sürən mübarizələrdən sonra Rusiya Sakit okeanın sahillərinədək geniş bir əraziyə sahib ola bildi. Şərqi Sibir əhalisinin ictimai münasibətlərinin inkişafının qəbilə-tayfa mərhələsində olması bu ərazilərin ruslar tərəfindən işğalını asanlaşdırdı. Bu müddət ərzində ruslar yalnız Çin və monqol feodallarının müqavimətinə məruz qalmış və beləliklə, işğalçılıq planları bir qədər ləng həyata keçirilmişdi. Şərqi Sibrin işğalından sonra rusların bu yerlərə güclü axınları başladı. Ruslar Sibirə axışdıqca bu yerlərdə rus kəndlilərinin sayı sürətlə artırdı. Eyni zamanda Rusiya bu yerləri siyasi məhbusların, canilərin sürgün yerinə çevirmişdi.

# XIV-XVI ƏSRLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK DÖVLƏTLƏRİ

## 1. Teymurun işğalları. Teymur imperiyasının yaranması

Teymur Səmərqəndlə Bəlx arasında yerləşən Keş (Şəhrisəbz) şəhərində anadan olub. Atası Turqay Barlas türk qəbiləsinin başçısı idi. Bu dövrdə Barlas türk qəbiləsi Cağatay dövlətinə tabe idi. Çingiz xanın övladları arasında hakimiyyət uğrunda gedən mübarizələr və feodal ara müharibələri getdikcə güclənirdi. XIV əsrin ortalarında Orta Asiyada Çingiz xanın övladlarının hökmranlığına son qoyuldu. Beləliklə, hakimiyyət yerli bəylərin əlinə keçdi. Bu bəylərin arasında Səmərqənd hakimi Əmir Hüseynin mövqeyi daha güclü idi. Yüksək qabiliyyətə sahib olan Teymur gənc yaşlarında Əmir Hüseynlə birləşərək siyasi mübarizəyə başladı. Bir çox çətinliklərlə qarşılaşmasına baxmayaraq öz məqsədinə çatmaq uğrunda mübarizə apardı. Teymur gücünü və nüfuzunu sürətlə artırdı. Teymur islam dininə hələ uşaqlıqdan dərin hörmət bəsləyirdi. Atası Turqay müsəlman idi və buna görə də oğlu Teymuru islam tərbiyəsində böyütmüşdü.

Artıq XIV əsrin 60-cı illərində Teymur və Əmir Hüseyn Orta Asiyada xeyli güclənmişdilər. Onlar tez-tez qonşu bölgələrə hücumlar edir, əldə etdikləri qəniməti bölüşdürürdülər. Xorasana növbəti hücum zamanı Teymur ayağından yaralandı və topal qaldı. Ona görə də tarixə "Topal Teymur" adı ilə daxil oldu. Teymur istər yerli bəylərə, istərsə də köçəri monqollara qarşı apardığı müharibələrdə qələbələr əldə edirdi ki, bu da Əmir Hüseynin narahatlığına səbəb olurdu. Eyni zamanda Teymur Hüseyni özünə rəqib sayır və hakimiyyətə təkbaşına sahib olmaq istəyirdi. Hüseyn məsələni başa düşüb Bəlx şəhərinə çəkildi. Teymur isə Səmərqənddən hərbi qüvvə ilə Bəlx şəhərinə hücum etdi və şəhəri tutaraq Hüseyni öldürdü. **1369-cu ildə Bəlx şəhərində çağırılan**

**qurultayda Teymur Əmir elan edildi. Səmərqənd şəhəri paytaxt olmaqla Orta Asiyada hakimiyyəti ələ alan Teymur böyük fəthlərə başladı.**



1371-ci ildən 1377-ci ilə kimi Xarəzmə və Monqolustana bir neçə dəfə yürüş etdi. Bu yürüşlər nəticəsində xeyli əsir və qənimət ələ keçirdi. 1379-cu ildə Xarəzmə növbəti hücum zamanı Xarəzm bölgəsini ələ keçirdi.

1380-ci ildə Əmir Teymur Xorasanı işğal etdi. Bununla da Əmir Teymurun İran üzərinə hücum etməsi üçün əlverişli şərait yaranmış oldu.

1386-cı ilin yazında Teymurun qoşunları İran ərazisinə daxil oldu. Təbriz hakimi Teymura qarşı çıxmaq istəsə də, onun cəhdi uğursuz oldu. Sultan Əhmədin Bağdaddan Təbrizə göndərdiyi qüvvələr də məğlub oldu. Lakin Orta Asiyada baş vermiş çıxışlardan xəbər tutan Teymur geri qayıtmalı oldu. Orta Asiyada xalq çıxışlarını yatırdıqdan sonra 1387-ci ildə Teymur ikinci dəfə Azərbaycana hücum etdi. Cənubi Azərbaycan torpaqlarını işğal edən Teymur Naxçıvana hücum etdi. Naxçıvanı işğal edib, Əlincə qalasını ala bilmədiyindən orada müəyyən qədər hərbi qüvvə saxlayıb Azərbaycanın şimal torpaqlarına və Gürcüstana hücum etdi. Teymurun qoşunları Gürcüstanı talan edib xeyli qənimət ələ keçirdilər. Şirvanşahlar isə Teymurun asılılığını qəbul etməklə müstəqilliklərini qorudular. Azərbaycanın cənub vilayətlərinin idarəsi Teymurun oğlu

Miranşaha verilmişdi. Onun dövründə əhalinin varı-mülkü talan edilmiş, ölkədə törədilən dağıntılar təsərrüfatın tənəzzülünə səbəb olmuşdu.

Teymur imperiyasının genişlənməsi Qızıl Orda xanı Toxtamışı narahat etmiş, Teymurun ona etdiyi yaxşılıqları unudaraq onun idarəsi altında olan yerlərə hücum etdi. Buna görə də Teymur Qızıl Orda torpaqlarına hücum etmək məcburiyyətində qaldı. 1391-ci ildə Teymur Toxtamışı məğlubiyyətə uğratdı, lakin Toxtamış mübarizəni davam etdirmək üçün hazırlıq işləri gördü. **1395-ci ildə Teymurla Toxtamışın ordusu Şimali Qafqazda Terek çayı sahilində qarşı-qarşıya gəldilər. Bu döyüş də Teymurun qələbəsi ilə qurtardı.** Toxtamış xan Volqadan şərqdəki torpaqlarını itirdi. Bununla da Teymur Qızıl Ordaya ağır zərbə vurdu. Səmərqəndə qayıdan Teymur Hindistan üzərinə hücum etmək qərarına gəldi. Bu məqsədlə də böyük hazırlıq işləri görməyə başladı. 1398-ci ildə Teymur Hindistana yürüş etdi. Əmir Teymurun göstərişi ilə Dehli yaxınlığında müdafiə mövqeyi seçildi. Teymurun qoşunları buradan hücuma keçərək hind qoşunlarını məğlub etdilər. Dehli şəhəri Teymurun qoşunlarının əlinə keçdi, şəhər tamamilə qarət olundu. Şimali Hindistanı işğal edən Teymur 1399-cu ildə ələ keçirdiyi böyük qənimətlə Səmərqəndə döndü.

Teymur yenidən qərbə doğru irəlilədi və 1401–1402-ci illərdə İraqı, Suriyanı və Cənubi Anadolunu işğal etdi. Nəhayət, 1402-ci ildə baş vermiş Ankara döyüşündə Osmanlı dövlətini məğlub etdi. I İldırım Bəyazid iki oğlu ilə birlikdə əsir düşdü. Əmir Teymurun orduları Bursa, İzmir və İzmitə qədər irəlilədilər. Lakin Teymur buralarda qalmayaraq Anadolu bəyliklərinə müstəqillik verdikdən sonra Səmərqəndə qayıtdı.

Teymur işğal etdiyi bir çox yerləri buraxıb getməsinə baxmayaraq, onun imperiyası Şimali Hindistan, Əfqanıstan, Orta Asiya, Cənubi Qafqaz və İraq da daxil olmaqla böyük bir ərazini əhatə edirdi. Əmir Teymur Çin üzərinə hücum etmək qərarına gəldi və bu məqsədlə də ciddi hərbi hazırlıq işləri görməyə başladı. 1404-cü ilin qışında Çinə hücum etmək üçün yola çıxdı. Çin sərhədindəki Otrar şəhərində dayandı və ordusuna istirahət verdi. Lakin burada xəstələndi və ölüm

ayağında Pir Məhəmmədi vəliəhd təyin etdi. 1405-ci ilin fevralında vəfat etdi.

Teymur işğal etdiyi yerlərdə elm adamlarını, sənətkarları, ədibləri toplayır, paytaxt Səmərqəndə aparır, himayəsinə alırdı. Onlar üçün hər cür şərait yaradır, əsər yazmaları üçün böyük mükafatlarla onları həvəsləndirirdi. Hakimiyyətdə olduğu müddətdə çoxlu mədrəsə və kitabxanalar tikdirdi. Paytaxt Səmərqəndi gözəl binalarla abadlaşdırdı. Teymura qədər Orta Asiya türkləri köçəri həyat tərzinə üstünlük verirdilər. Teymur idarəsi altındakı bölgələrə su kanalları çəkdirərək kənd təsərrüfatını inkişaf etdirmişdir. Monqolların dağıtdıqları əkin qurğuları təmir etdirilmiş, yeniləri yaradılmış, ticarəti canlandırmaq üçün ticarət yolları böyük şəhərlərə bağlanmışdır.

## 2. Türk xalqları Teymurilərin hakimiyyəti dövründə

Teymur vəsiyyətində nəvəsi Pir Məhəmmədin varis olmasını istədi. Bu zaman Pir Məhəmməd Hindistan və Əfqanıstanı idarə edirdi. O, hakimiyyəti ələ almaq üçün çox ləng hərəkət etdi. Lakin Miranşahın oğlu Xəlil Mirzə hakimiyyəti ələ aldı. O, imperiyanı idarə edəcək təcrübəyə sahib deyildi. Əmisi Şahrux da onun hakimiyyəti ələ almasını yaxşı qarşılamadı. **Hakimiyyət uğrunda mübarizədə Şahrux qalib gələrək 1407-ci ildə hakimiyyətə gəldi. Qısa bir vaxtda qarışıqlığın qarşısını aldı və hakimiyyətini bütün bölgələrə qəbul etdirdi.**

Teymurun varisləri arasında olan çəkişmələrdən istifadə edən bir sıra ölkələrdə üsyanlar başladı. Belə bir şəraitdə 1406-cı ildə Qara Yusif Təbrizə daxil olaraq Əbubəkr Mirzənin qoşunlarını darmadağın etdi. Bu məğlubiyyət Əbubəkr Mirzənin atası Miranşaha təsir etdiyindən, o 1408-ci ildə Cənubi Azərbaycanda Qara Yusifin qüvvələri ilə döyüşə girdi. Teymurilər imperiyasının hökmdarı Şahrux da öz qüvvələri ilə qardaşı Miranşaha kömək edirdi. Sərdurud adlı yerdə baş vermiş döyüşdə Miranşahın qoşunu da məğlub edildi, özü isə

öldürüldü. Teymurilərin Azərbaycanda hökmranlığına son qoyuldu.

Şirvanşah I Xəlilullah 1417-ci ildə atasının ölümündən sonra Qara Yusifin hakimiyyətini tanımadı, Qaraqoyunlulara qarşı Sultan Şahruxla ittifaqa girdi. Bundan istifadə edən Sultan Şahrux 1418-ci ilin yazında və 1420-ci ildə Azərbaycana uğursuz yürüşlər etdi. Bu yürüşlərin qarşısını alan Qara Yusif Bağdad da daxil olmaqla geniş ərazilərə sahib oldu. Qara Yusifin ölümündən sonra oğlanları 1421-ci ilin avqustunda Teymuri Şahruxa məğlub oldular. Lakin Şahruxun burada böyük hərbi qüvvə saxlamaq imkanı olmadığından bu qələbədən sonra Azərbaycanda çox qalmadı və Herata getdi.

1429-cu ildə Sultan Şahrux Qara İsgəndərin qoşununu yenidən darmadağın edib Qaraqoyunlu taxtına Qara Yusifin digər oğlu Əbu Səidi oturtdu. Şahrux Azərbaycanı tərk edən kimi İsgəndər Əbu Səidi öldürdü və hakimiyyəti yenidən ələ keçirdi. 1435-ci ildə Şahrux yenidən Təbrizə hücum etdi. İsgəndərin qardaşı Cahanşah onu qarşıladı. Şahrux Qaraqoyunlu hakimiyyətinə 1436-cı ildə Cahanşahı gətirdi, Cahanşah Teymurilərin asılılığını qəbul etdi. Cahanşah Şahruxun ölümünə qədər Teymurilərə qarşı mübarizə aparmadı və Teymurilərin asılılığında qaldı. 1447-ci ildə Şahrux öldükdən sonra Cahanşah Teymurilərin asılılığına son verərək müstəqil oldu.

40 illik hakimiyyəti dövründə Şahrux ölkədə tam sakitlik yaratmış, bu da sənətin və mədəniyyətin inkişafına səbəb olmuşdur. Şahruxun ölümündən sonra oğlu Uluqbəy (Məhəmməd Turqay) hakimiyyətə gəldi. Hakimiyyətə keçdiyi zaman tam təcrübə sahibi idi, belə ki, uzun müddət Mavərənnəhr bölgəsi onun idarəsi altında olmuşdur. **Uluqbəy hakimiyyətə sahib olan kimi Osmanlı dövləti ilə münasibətləri yaxşılaşdırdı və iki türk ölkəsi arasında elçilər, elm adamları gedib-gəlməyə başladı.** Ancaq hakimiyyətinin ilk ilində ölkədə hakimiyyət uğrunda mübarizə

gücləndi. Eyni zamanda böyük oğlu Xorasanda hakimiyyəti ələ alıb atasına qarşı çıxdı. Oğlu Əbdüllətif Mirzə tərəfindən hakimiyyətdən salınan Uluqbəy oğlunun göstərişi ilə 1449-cu ildə öldürüldü. Əbdüllətif Mirzə də hakimiyyətdə beş aya yaxın qalmış və o da bir sui-qəsd nəticəsində ölmüşdür. Ölkədə mövcud olan qarışıqlıqlar 1452-ci ildə Miranşahın nəvəsi **Əbu Səid hakimiyyətə gələnə qədər davam etdi.**

**Əbu Səid itirilən torpaqları geri almaq üçün 1453-cü ildə Qaraqoyunlularla müharibə aparmalı oldu. Bu fürsətdən istifadə edən Cahanşah Əcəm İraqını, Qərbi İranı, bir qədər sonra isə Şərqi İranın bir hissəsini ələ keçirdi. 1457-ci ildə Cahanşah bütün Xorasanı işğal etdi.** 1458-ci ildə Cahanşah Herata daxil olduqda Əbu Səid onunla danışıqlara girdi. Ölkədə feodal çıxışlarının baş verməsi nəticəsində Cahanşah Əbu Səidin sülh təkliflərini qəbul etdi. Sülhün şərtlərinə görə Cahanşah İranın şərq torpaqlarından qoşunlarını geri çəkməyə məcbur oldu. Teymurilər dövlətində XV əsrin 60-cı illərində iri feodalların mərkəzdənqaçma meylləri xeyli güclənmişdi. Teymurilər dövlətinin əvvəlki qüdrətini qaytarmağa çalışan Əbu Səid ölkədaxili vəziyyəti danışıqlar yolu ilə nizamlamağa çalışırdı.

1468-ci ildə Ağqoyunlu Uzun Həsən Qaraqoyunlu dövlətinin mövcudluğuna son qoydu. Teymurilər Cahanşahın oğlanlarını müdafiə adı altında öz məqsədlərini həyata keçirmək üçün hərəkətə gəldilər. **Uzun Həsən vəziyyəti dinc yolla nizamlamağa çalışdı. Anası Sara xatunun başçılığı ilə Əbu Səidin yanına nümayəndə heyəti göndərdi. Əbu Səid Sara xatunun səylərinə baxmayaraq hücumu təxirə salmadı.** Bunu görən Uzun Həsən Şirvanşah Fərrux Yasəri və Ərdəbil şeyxi Heydəri öz tərəfinə çəkdi. Azərbaycan hakimləri arasında Əbu Səidə qarşı ittifaq yarandı. 1469-cu ildə Teymuri Əbu Səid məğlub edilərək əsir götürüldü və Xorasan hakimi tərəfindən öldürüldü.

Hakimiyyətə Hüseyn Bayqara gəldi. O, hakimiyyətinin ilk illərində bəzi çətinliklərlə qarşılaşdı. Hüseyn Bayqara ölkəni şimaldakı özbəklərdən qorumaq üçün səfərlərə çıxdı. Mavərənnəhr və Xarəzmi öz hakimiyyəti altına ala bildi. Qısa müddətdə dövlətini xeyli gücləndirdi. Hüseyn Bayqara ölkəsinin müxtəlif bölgələrinin idarəsini oğullarına tapşırmışdı. XVI əsrin əvvəllərində oğullarının müstəqillik uğrunda mübarizələri dövlətin dağılmasını sürətləndirdi. 1506-cı ildə yenidən özbəklərə qarşı səfərə çıxdısa da yolda vəfat etdi. Ondan sonra yerinə oğullarından Bədiüzzaman keçdi. Lakin o, özbəklərlə müharibəyə hazır deyildi, özbəklər Heratı tutdular və beləliklə, 1506-cı ildə Teymurilər dövləti süqut etdi.

Teymurilər dövründə elm, sənət və mədəniyyət çox yüksək bir səviyyəyə çatmışdı. Teymuri hökmdarlardan Uluqbəy hələ Mavərənnəhr bölgəsini idarə edərkən bölgənin abadlıq işlərinə xüsusi diqqət verirdi. Kənd təsərrüfatının inkişafı və ticarətin genişlənməsinə şərait yaradırdı. Bütün bunlarla yanaşı onu dünyada tanıdan astronomiya sahəsində tikdirdiyi abidələr oldu. **Onun ən məşhur əsəri Səmərqənddə tikdirdiyi rəsədxanadır.** Uluqbəy dövründə yeni astronomiya alətləri icad edilmiş, qədim alətlər təkmilləşdirilmişdir. **Ayda böyük bir kraterə Uluqbəyin adı verilmişdir.**

Bacarıqlı dövlət başçısı olan Hüseyn Bayqara eyni zamanda böyük bir şair idi. O, şeirlərini türk dilində yazırdı. O, yaradıcı adamlara, bacarıqlı sənətkarlara böyük hörmətlə yanaşır, onların fəaliyyət göstərməsi üçün hər cür şərait yaradırdı.

Teymuri hökmdarlar bəzək sənətinə də çox böyük əhəmiyyət vermiş, divar rəsmi, miniatür sənəti yüksək inkişaf səviyyəsinə çatmışdır.

## 3.Özbək xanlığı

Teymurun ölümündən sonra onun yaratdığı imperiya tədricən parçalanmağa başlamışdı. Teymurun nəslindən olan hakimlər arasında başlayan feodal ara müharibələri də bu prosesi sürətləndirirdi. Bu şəraitdə köçəri tayfaların yenidən qruplaşması baş verdi. Belə tayfa birləşmələrindən biri də özbək tayfa ittifaqı idi. **Özbəklər Aral gölünün və Sır-Dərya çayının şimalında dağınıq halda yaşayırdılar. Özbəklər 1428-ci ildə Əbülxeyri xan elan etdilər. Əbülxeyr Batı xanın qardaşı Şeybanın nəslindən idi. Buna görə özbəklərə Şeybanilər də deyilir. Əbulxeyr 1430–1431-ci illərdə Xarəzmi, sonra Sır-Dərya sahilindəki Sığnaq, Arkuk, Suzak, Ağkurqan, Özkənd qalalarını ələ keçirdi. Sığnağı özünə mərkəz etdi.**

1457-ci ildə oyratlar və kalmıklar Özbək xanlığı ərazisinə hücum etdilər. Xanlığın şəhər və kəndləri dağıdıldı, əhali qarət olundu. Yaranmış qarışıqlığa görə qazaxlar xanlığın şərq hissəsinə çəkilərək qırğızlarla birləşdilər. Əbulxeyr xan 1468-ci ildə qazax və qırğızları itaət altına almaq üçün mübarizəyə başladı. Onlarla aparılan mübarizədə Əbulxeyr xan məğlub oldu və öldürüldü. Üsyançılar onun yerinə keçmiş oğlu Heydəri də ələ keçirib öldürdülər. Mübarizəni Məhəmməd Şeybani davam etdirdi. İlk vaxtlar Teymuri hakimlər Məhəmmədə kömək edirdilər. Məhəmməd Şeybani Qazax xanının qüvvələrini məğlub etdi. Lakin qüvvəsi az olduğuna görə geri çəkildi və Daşkənd hakimi Mahmud xanın tabeliyinə keçdi. Məhəmməd ətrafındakı qüvvələrinin sayını artırdıqdan sonra Xarəzmə yürüş etdi. Şəhər və kəndləri dağıdaraq xeyli qənimətlə Otrar şəhərinə çəkildi.

**Teymurilər arasında yaranan hakimiyyət çəkişmələrindən istifadə edən Məhəmməd Şeybani 1499–1500-cü illərdə Buxara və Səmərqəndi işğal etdi. Beləliklə, 1500-cü ildə Özbək dövlətini yaradaraq hökmdarlığını elan**

**etdi.** O, bir sıra hərbi yürüşlərə çıxaraq uğurlar qazandı. 1503–1507-ci illərdə Orta Asiya və Xorasanı işğal edərək Teymurilərin hakimiyyətinə son qoydu. Məhəmməd xanın dövləti cənub-qərbdə Azərbaycan Səfəvilər dövləti ilə qonşu oldu. Buxara, Daşkənd, Ürgənc, Səmərqənd, Bəlx kimi böyük şəhərlərdə Məhəmməd xanın göstərişi ilə abadlıq işləri aparıldı. Ticarət əlaqələri xeyli genişləndirildi. Ölkədə quruculuq işlərinin genişləndiyi bir vaxtda əvvəlcə şimaldan qazaxlar Mavərənnəhr bölgəsinə hücum etdilər. Onlar şəhər və kəndləri dağıdaraq çoxlu qənimət və əsir ələ keçirərək geri çəkildilər. Buna cavab olaraq Məhəmməd xan 1509-cu ildə qazaxlara qarşı hücuma keçdi. Onlar da Qazaxıstanın cənub vilayətlərini dağıdaraq talan etdilər.

İqtisadi və strateji əhəmiyyətə malik Xorasanın özbəklərin əlinə keçməsi Səfəvilərin 1510-cu ildə Özbək dövləti üzərinə hücumuna səbəb oldu. **1510-cu il dekabrın 1-də baş vermiş döyüşdə Səfəvilər qalib gəldilər, Məhəmməd xan öldürüldü. Beləliklə, mühüm ticarət yollarının keçdiyi Xorasan vilayəti Şah İsmayılın hakimiyyəti altına keçdi.** Özbək dövlətinin məğlubiyyəti Teymurilərin fəallaşmasına səbəb oldu. Babur Mirzə Şah İsmayıldan kömək alaraq Mavərənnəhr üzərinə hücum etdi. 1512-ci ildə o, Səmərqəndi işğal etdi. 1513-cü ildə Ubeydulla xan özbək tayfa başçılarının köməyi ilə Mavərənnəhrə daxil oldu. Səfəvilərdən kömək ala bilməyən Babur öz qoşunları ilə geri çəkildi. Özbəklər yenidən Səmərqəndə daxil oldular və özbək xanlarının hakimiyyəti bərpa olundu. Ubeydulla xanın hakimiyyəti dövründə Səfəvilərə qarşı müharibələr aparıldı. Ubeydulla xan 1526-cı ildə Tus şəhərini, sonrakı il Astarabadı tutdu. 1527-1528-ci illərdə isə Heratı mühasirəyə aldı. Lakin Şah I Təhmasibin gəlişi ilə özbəklər Heratın mühasirəsindən əl çəkərək geri döndülər. Ölkə daxilində baş vermiş çıxışlarla bağlı Şah Təhmasib geri qayıtmalı oldu. Bundan istifadə edən Ubeydulla xan Məşhədi, sonra isə Heratı tutdu. Daxili sabitliyi təmin

etdikdən sonra 1530-cu ildə Şah Təhmasib özbəklərə qarşı hücuma keçdi. Ubeydulla xan işğal olunmuş yerlərdən geri çəkildi. 1535-1536-cı illərdə Ubeydulla xan Heratı yenidən tutsa da, burada qala bilmədi. Bu dəfə Şah Təhmasib özbəklərə ağır zərbə vuraraq onların Xorasandan uzaqlaşdırılmasına nail oldu. Lakin Ubeydulla xanın bütün cəhdlərinə baxmayaraq Səfəvilərə qalib gəlmək ona nəsib olmadı. Ubeydulla xan Xorasana sahib olmasa da, ölkə daxilində feodal özbaşnalığına son qoya bildi. 1539-cu ildə Ubeydulla xanın ölümündən sonra özbəklər arasında hakimiyyət uğrunda mübarizə daha da gücləndi. Əyalət hakimləri müstəqil olmağa çalışdılar. **Uzun sürən mübarizələrdən sonra Abdulla xan hakimiyyətə gəldi. Abdulla xan bütün Mavərənnəhr bölgəsini vahid bir hakimiyyət altında birləşdirə bildi.** Müstəqilliyə can atan hakimlər cəzalandırıldı.

Abdulla xanın hakimiyyəti illərində (1560-1598) ölkədə nisbi sakitlik yarandı, feodal ara müharibələrinə son qoyuldu. Özbək dövlətinin nüfuzu xeyli gücləndi. Abdullah xanın vaxtında şəhər və kəndlərdə abadlıq işləri aparıldı. Onun təşəbbüsü ilə bir çox ölkələrlə ticarət əlaqələri yaradılmışdı. Bütün bunlar ölkənin iqtisadi və mədəni yüksəlişinə səbəb oldu. 1587-ci ildə Abdulla xan Heratı, sonra isə Məşhədi tutdu. Səfəvi dövlətini şərqdən özbək, qərbdən isə Osmanlı qüvvələri sıxışdırırdı. Səfəvi dövləti daxilində isə əmirlər arasında çəkişmələr gedirdi. Şah Abbas ölkə daxilində baş qaldıran əmirləri sakitləşdirib, Osmanlı dövləti ilə sülh müqaviləsi bağladıqdan sonra əsas diqqətini özbəkləri Xorasandan uzaqlaşdırmağa yönəltdi. XVI əsrin sonlarına doğru Şah Abbas fəal xarici siyasət yeritməyə başladı. 1598-ci ilin yazında Şah Abbas Özbək dövlətini məğlubiyyətə uğradaraq Xorasanı yenidən Səfəvilər dövlətinə birləşdirdi. Abdulla xan Səfəvi hökmdarı Şah Abbasa məğlub olduqdan sonra ölkədə feodal ara müharibələri gücləndi. Ölkədə daxili çəkişmələrin davam etdiyi bir vaxtda 1598-ci ildə Abdullah xan vəfat etdi. Onun

yerinə böyük oğlu Əbdülməmun hakimiyyətə gəldi. Onun hakimiyyəti bir neçə ay çəkdi və o, düşmənləri tərəfindən öldürüldü. Beləliklə, Şeybanilər sülaləsinin hakimiyyəti sona çatdı. Həştərxan sülaləsinin nümayəndəsi Baqi Məhəmməd hakimiyyətə gəldi. Belə ki, Şeybanilər ilə Həştərxan sülaləsi arasında nikah diplomatiyası vasitəsilə qohumluq əlaqələri yaradılmışdı. Bu sülalə Həştərxan xanlığının ruslar tərəfindən işğalından sonra Mavərənnəhrə gəlmişdi. Baqi Məhəmmədin dövründə ölkənin şimalına qazaxların hücumu başladı. Qazax xanı Təvəkkül böyük bir qüvvə ilə hücuma keçərək Səmərqəndi işğal etdi. Qazax qoşunları Buxara üzərinə hücuma keçdilər, lakin özbəklər Təvəkkül xanın qüvvələrinin Buxaraya daxil olmasına imkan vermədilər. Beləliklə, qazaxlar geri çəkilməli oldular. 1605-ci ildə hakimiyyətə Vəli Məhəmməd gəldi, lakin çox keçmədi ki, ölkədə ona qarşı güclü narazılıq yarandı. Onun ən yaxın adamları belə ona qarşı çıxdılar. İri feodallar 1611-ci ildə İmamqulu xanı hakimiyyətə gətirdilər. 1612-ci ildə o, qazaxlar üzərinə hücuma keçərək Daşkəndi ala bildi. İmamqulu xanın dövründə ölkədə bir müddət sakitlik yarandı. XVII əsrdən başlayaraq Orta Asiyada xırda xanlıqlar yarandı və bu xanlıqlar XVIII əsrdən başlayaraq Rusiyanın işğalçılıq planlarında mühüm yer tutdu.

### 4.Qazax xanlığı

Qazaxıstan ərazisində hələ qədim dövrdə dövlət qurumları mövcud olmuşdur. E.ə III-II əsrlərdə bu ərazidə türkdilli usunların tayfa birliyi yaranmışdı. Erkən orta əsrlərdə bu ərazilərdə Göytürk Xaqanlığı və Karluk dövləti mövcud olmuşdu. X əsrdən monqol işğallarına qədər bu ərazidə Qaraxanilər dövləti, monqol işğallarından sonra isə Cağatay və Qızıl Orda dövlətləri yaranmışdı. Qızıl Orda dövləti dağıldıqdan sonra Qazaxıstan ərazisində iqtisadiyyat inkişaf etməyə, dağıdılmış şəhərlər, kəndlər bərpa olunmağa başladı.

Böyük yaşayış məskənlərində sənətkarlığın və ticarətin inkişafı üçün şərait yarandı.

XV əsrin ikinci yarısında Qazaxıstan ərazisində xanlıqlar yaranmağa başladı. Bu dövrdə yaranan xanlıqlar yerli etnik inkişaf üzərində qurulmuşdu. XV əsrin ortalarında Özbək xanlığı Sır-Dəryadan şimalda olan Qazaxıstanın bir hissəsini də əhatə edirdi. Buraya Ağkurqan, Suzak, Sığnaq və Sır-Dərya ətrafı şəhərlər də daxil idi. Qazax və qırğızlarla aparılan döyüşlərdə Əbulxeyr xan öldürüldü. Mavərənnəhrdə hakimiyyət uğrunda feodal ara müharibələri yenidən başladı. Bundan istifadə edən Canıbəy Mavərənnəhrdə möhkəmlənməyə çalışdı. Lakin o, hakimiyyəti ələ ala bilmədi və 1480-ci ildə öldü. **Qazax Barunduq xan Qazaxıstanın şərq rayonlarını ələ keçirdi və xanlığı yaratdı. Canıbəyin oğlu Qasım Balxaş gölü rayonunda xanlıq yaratmışdı.** Bu dövrdə Orta Asiya şəhərləri uğrunda xanlar arasında mübarizələr davam edirdi. XV əsrin 80-90-cı illərində Barunduq xanla Məhəmməd xan arasında Sır-Dərya ətrafı şəhərlər uğrunda müharibələr aparılırdı. Məhəmməd xan Qazax torpaqlarını qarət etdikdən sonra Sığnağa qayıtdı. Sonrakı illərdə Məhəmməd xan ilə Qazax xanları arasında müharibələrə ara verildi. Məhəmməd xan Teymurilərə qarşı mübarizə aparmalı oldu. **XVI əsrin əvvəllərində Qasım xan Yeddisu ərazisini xanlığına daxil etdi. Qısa müddətdə xanlığın ərazisi xeyli genişləndi.** Qazax dəstələri Mavərənnəhrə hücum edərək şəhər və kəndləri dağıtdılar. Buna cavab olaraq Məhəmməd xan 1509-cu ildə Qazaxıstanın cənub hissəsinə yürüş etdi. Bu yürüş nəticəsində Qazaxıstanın cənub bölgələri xeyli ziyan çəkdi. Məhəmməd xanın ölümündən sonra Qazax xanlığı ilə aparılan müharibələr müvəqqəti olaraq dayandırıldı. Belə ki, Şeybanilər ölkə daxili çıxışların yatırılması ilə məşğul idilər.

Qasım xan öldükdən sonra 1523-cü ildə onun yerini Tahir xan tutdu. Tahir xan atası Qasım xanın siyasətini davam

etdirərək Qazaxıstanda vahid siyasi birləşmə yaratmağa çalışırdı. O, bir sıra müharibələr aparsa da istəyinə nail ola bilmədi. Özbəklər və qazaxlar arasında müharibələrin baş verməsinə baxmayaraq bu xalqlar arasında iqtisadi və mədəni əlaqələr kəsilməmişdi. Xüsusilə Qazaxıstanın cənub vilayətləri ilə Orta Asiyanın şimal əyalətləri arasında sıx əlaqələr olmuşdu.

XVI əsrin 50-ci illərində Qazax xanı Haqqnəzər Orta Asiya şəhərləri ilə ticarət əlaqələrinin genişlənməsinə şərait yaradırdı. Hətta o, Özbək xanı Abdulla ilə birlikdə Daşkənd hakimi Baba sultana qarşı hərbi əməliyyatlarda iştirak etdi. Lakin Haqqnəzər xan Baba sultanın adamları tərəfindən öldürüldü. Qazax xanı Təvəkkülün hakimiyyəti illərində özbəklərlə münasibətlər yenidən gərginləşdi. Təvəkkül xan Orta Asiya şəhərlərini işğal etmək istəyirdi. Təvəkkül xan Səmərqənd şəhərini ələ keçirsə də, Buxara şəhəri uğrunda döyüşdə məğlub oldu. Qazax xanlarının Orta Asiya şəhərlərini ələ keçirmək cəhdləri nəticəsiz qaldı.

XVII-XVIII əsrlərin əvvəllərində Qazaxıstanda feodal münasibətləri xeyli genişləndi. Ölkədə əkinçilik, sənətkarlıq, maldarlıq inkişaf edirdi. Qonşu ölkələrlə ticarət əlaqələri yaradılmışdı. Ölkədə şəhərlərin, iri yaşayış məskənlərinin sayı artırdı.

Qazaxıstan üç hissədən ibarət idi: Yeddisu, Mərkəzi Qazaxıstan, Qərbi Qazaxıstan. Yeddisu Qazaxıstanın ən qədim mərkəzlərindən biri olmuşdu. XVI əsrdə xalq bu yerləri Böyük juz (Yeddisu), Orta juz (Mərkəzi Qazaxıstan), Kiçik juz (Qərbi Qazaxıstan) adlandırmağa başladı. 1694-cü ildə Qazax xanlığı ilə Rusiya dövləti arasındakı qarşılıqlı əlaqələri nizamlamaq üçün Tauk xanın yanına rus elçiləri gəlmişdilər. XVIII əsrdə Orta Asiya və Qazaxıstanla Rusiya arasında mövcud olan iqtisadi və diplomatik əlaqələr daha da genişlənmişdi. Ruslar 1716-cı ildən başlayaraq 1720-ci ilə qədər Qazaxıstan ərazisində bir sıra qalaların təməlini qoydular. I Pyotr XVIII

əsrin 20-ci illərində Qazaxıstanda siyasi və iqtisadi təsirini genişləndirməyə çalışırdı. Ondan sonrakı rus çarları da bu siyasəti davam etdirirdilər. Beləliklə, XVIII əsrin 30-cu illərində Qazaxıstan ərazisinin bir hissəsi -Kiçik juz və Orta juz Rusiyanın təbəəliyini qəbul etmişdi.

## 5.Baburlu dövləti

Erkən orta əsrlərdə türk tayfalarının Hindistana yürüşləri başlamış və tarixin müxtəlif dövrlərində Şimali və Mərkəzi Hindistanı işğal etmişlər. XI əsrin əvvəllərində Qəznəvi hökmdarı Sultan Mahmud Hindistanın şimalını işğal etmiş və bu yerlərdə türk əhalisinin məskunlaşması ilə yanaşı islam dininin yayılması da genişləndi.

**Hindistanda ilk böyük türk dövləti 1206-cı ildə Qütbəddin Aybək tərəfindən yaradılmışdı.** Hindistanda Zahirəddin Baburun yaratdığı türk dövləti isə uzunömürlü və güclü bir dövlət olmuşdur. XV əsrin sonunda Teymurun nəvələrindən olan Babur özbəklər tərəfindən məğlub edildikdən sonra Kabulu alaraq öz qüvvələri ilə Əfqanıstanda yerləşmiş oldu. **1507-ci ildə o, özünü şah elan etdi**. Babur Teymurun yeganə varisi olduğunu bildirdi. Atalarının yolunu tutaraq buradan Hindistana doğru yürüşlər etdi. **1519-1524-cü illərdə Babur Pəncab, Sind, Bəlucistan və Lahoru işğal etdi. 1526-cı ildə Dehli sultanı İbrahimi məğlub edərək Dehli və Aqranı aldı. Beləliklə, türk tarixində mühüm yeri olan Əfqanıstan və Şimali Hindistanı əhatə edən, paytaxtı Aqra şəhəri olan böyük bir imperiya quruldu.** Babur özünün və əsgərlərinin türk olması ilə fəxr edirdi. O, çox böyük ədib və şair idi. Orta Asiya türkcəsini rəsmi dövlət dili elan etmişdi. Orta Asiya türkcəsində yazdığı "Baburnamə" əsərində Babur gəzib gördüyü yerləri bütün özünəməxsusluğu ilə təsvir etmişdi. Bu əsərdə Babur şah öz həyatı haqqında da məlumat

vermişdi. Əkbər şahın hakimiyyəti illərində fars, sonra isə ingilis dilinə tərcümə edilərək nəşr edilmişdi.

Babur şah 1529-cu ilin sonlarına doğru xəstələndi və yaxın adamlarını yanına çağıraraq oğlu Humayunu vəliəhd seçdiyini bildirir. 1530-cu ildə vəfat etdi, öz vəsiyyətinə görə Kabildə dəfn olundu. 1646-cı ildə Cahan şah Baburun qəbri üzərində böyük bir türbə tikdirdi.

**Babur şahdan sonra hakimiyyətə oğlu Humayun gəldi, lakin onun hakimiyyətə gəlişini qardaşları yaxşı qarşılamadı və onlar arasında hakimiyyət mübarizəsi başladı.** O, qardaşları ilə mübarizə apardığı bir vaxtda daxili feodal ara müharibələri gücləndi. Belə bir vaxtda qardaşlar hakimiyyət mübarizəsindən əl çəksələr də, onlar arasında birlik yaratmaq mümkün olmadı.

Səfəvi imperiyası cənub-şərqdən Baburlu dövləti ilə həmsərhəd idi. **Avropa dövlətlərinin Hind okeanı sahillərində müstəmləkəçilik siyasəti və Ubeydulla xanın Xorasanla yanaşı Əfqanıstana yürüşləri bu iki dövləti bir-birinə yaxınlaşdırırdı.** Səfəvi şahı I Təhmasib türk Baburlu dövlətinin durumunu diqqətlə izləyirdi. 1544-cü ildə Əfqan hakimi Şirxan Aqra üzərinə hücum etdi. Belə ağır bir vaxtda qardaşlarından kömək ala bilməyən Humayun şah ailəsi ilə birlikdə Səfəvilərə sığındı. Şah Təhmasib onu hökmdara layiq qarşıladı və Səfəvi qoşunları ilə birlikdə Hindistana yola saldı. Səfəvi qoşunları Şirxanın qüvvələrini dağıtdılar və Humayun Təhmasib şahın köməyi ilə yenidən öz hakimiyyətinə sahib oldu. Bu köməyə görə hər iki ölkə üçün hərbi-strateji baxımdan əhəmiyyətli olan Qəndəharı Səfəvilərə verdi. Humayun şahın dövründə ölkədə daxili siyasi vəziyyət ağır olsa da yaranmış təhlükələrdən dövləti qoruya bildi. O, oğlu Əkbəri vəliəhd təyin etmişdi. 1556-cı ildə Humayun şah vəfat etdi. O, atası qədər qüdrətli olmasa da onun kimi yaxşı şair idi.

**1556-cı ildə Baburlu dövlətinin başına Əkbər keçdi. O, yaşca kiçik olduğu üçün dövləti böyük nüfuza malik olan**

**atabəyi Bayram idarə edirdi. Əkbər şah 20 yaşında olarkən atabəyi Bayramı idarəçilikdən uzaqlaşdırdı.** O, ölkədə gedən feodal ara müharibələrinin qarşısını ala bildi. Parçalanmaların qarşısını alaraq dövlətin bütövlüyünü bərpa edə bildi. Onun dövründə sarayda hindlilərin təsiri də artdı. Hindlilər dövlət idarə orqanlarına və ordu sıralarına cəlb olundular. Türklərlə hindlilər arasında bərabərlik təmin edildikdən sonra ölkədə gərginlik azaldı. **Əkbər şah 1605-ci ildə öldü və hakimiyyətə oğlu Cahangir gəldi. Onun hakimiyyəti illərində ölkədə narazılıq gücləndi, tez-tez çevrilişə cəhdlər olunurdu.** Zəif iradəli Cahangir şahın oğlanları ilə də münasibətləri yaxşı deyildi. Onun dövründə 1613-cü ildə ingilislər Quçeratda limanlardan birində özlərinin yerləşəcəyi baza açdılar. İngiltərənin bir körpü kimi istifadə etdiyi bu liman zaman keçdikcə bütün ölkənin ələ keçirilməsini təmin etmiş oldu.

**1628-ci ildə Cahangir şahın ölümündən sonra oğlu Xürrəm "Cahan şah" adı ilə hakimiyyəti ələ aldı.** O, dövləti gücləndirmək üçün mühüm vəzifələrdə olan yaxınlarını öldürtdürdü və Əfqan əmirlərinin üsyanlarını yatıra bildi. O, ordunun möhkəmlənməsi və ayrı-ayrı feodalları öz tərəfinə çəkmək üçün də tədbirlər gördü. Onun bu tədbirləri sayəsində dövlət qismən gücləndi. Müstəqilliyə can atan bölgələri mərkəzi hakimiyyətə tabe edə bildi. **Cahan şahın hakimiyyəti illərində imperiya siyasət, iqtisadiyyat, memarlıq və başqa sahələrdə öz parlaq dövrünü yaşadı. Onun dəvəti ilə İstanbuldan gələn memarlar dünyanın ən gözəl, ən möhtəşəm türbəsi olan Tac Mahalı tikdilər.**



Cahan şahın təşəbbüsü ilə abidənin tikintisinə 1631-ci ildə başlanılmış və 1652-ci ildə başa çatdırılmışdır. Dünyanın heç bir memarlıq əsəri Tac Mahal qədər gözəl və məşhur deyildir. **1658-ci ildə Cahan şah xəstələndi, belə bir vəziyyətdən istifadə edən Övrəngiz atasını taxtdan salaraq hakimiyyəti ələ aldı. O, I Aləmgir adı ilə hakimiyyətdə oldu.** I Aləmgirin hakimiyyəti illərində ölkə ərazisi xeyli genişləndi və Hindistan tamamilə türklərin hakimiyyəti altına keçdi. O, yaxşı bir dövlət başçısı idi. I Aləmgir türk və müsəlman dünyası ilə yaxşı əlaqələr yaratmışdı. Xalqdan alınan vergiləri azaltmış, ölkə daxilində əmin-amanlığı təmin etmişdi.

Bütün bunlara baxmayaraq onun hakimiyyəti dövründə Hindistan ilə ticarətdə ingilislərdən sonra hollandlara da bəzi imtiyazlar verilmişdi. Bu isə Hind okeanında ingilislərin və hollandların mövqelərini xeyli möhkəmləndirdi.

**I Aləmgir 1707-ci ildə öldü. Ölkədə hakimiyyət mübarizələri yenidən başladı. Hakimiyyət uğrunda mübarizələr və feodal ara müharibələri dövləti zəiflətdi. Belə bir vaxtda I Bahadır hakimiyyəti ələ ala bildi.** Ölkə daxili qarışıqlıqlardan istifadə edən əfqanlar müstəqilliklərini elan etdilər. Əfqanlar hətta Səfəvi dövlətinin cənub-şərq torpaqlarını işğal edərək ölkənin içərilərinə daxil oldular. Nadir xan 1728-1729-cu illərdə əfqan qüvvələrini nəinki ölkənin içərilərindən, eyni zamanda Xorasandan da uzaqlaşdıra bildi. Nadir xan Səfəvilərin itirilmiş torpaqlarını qaytardıqdan sonra 1736-cı ildə Səfəvilər sülaləsinin hakimiyyətinə son verərək özünü şah elan etdi. Nadir şah 1739-cu ildə Şimali Hindistana yürüş etdi. İran qoşunları bir sıra şəhərləri işğal edərək çoxlu qənimət ələ keçirdilər. İran dövləti daxilində baş vermiş üsyanlarla bağlı Nadir şah geri qayıtmalı oldu. Hindistanda Baburlu sülaləsinin nümayəndələri hakimiyyətdə olsalar da, əslində dövləti Nadir şahın təyin etdiyi canişinlər idarə edirdi. 1747-ci ildə Nadir şahın ölümündən sonra Əhməd şah Əfqan dövlətinin müstəqilliyinə nail oldu. 1748-ci ildə Əhməd şah Hindistana hücum etdi və Sind, Pəncab, Kəşmir əyalətlərini işğal etdi. Artıq Baburlu dövləti xeyli zəifləyib, ərazisi kiçilmişdi. **1760-cı ildə hakimiyyətə gələn II Şah Aləm ingilislərin yerli əhalini istismar etmələrinə qarşı mübarizə apardı.** II Şah Əlam 1764-cü ildə ingilislərə məğlub olaraq hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyət ingilis məmurlarının əlinə keçdi. Artıq Hindistan xırda knyazlıqlara parçalanmışdı və onlar ingilislərə qarşı mübarizə aparırdılar. XIX əsrin ortalarında isə Hindistan bütünlüklə İngiltərənin müstəmləkəsinə çevrildi.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan tarixi. B., 1993.
2. Azərbaycan tarixi. B., 1994.
3. Azərbaycan tarixi. B., 1996.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989.
5. Azərbaycan ədəbi dili tarixi. B., 1991.
6. Allahverdiyev S., Haqverdiyev Ə. Türk dünyası xalqlarının tarixi. B., 1996.
7. Bahəddin Ögel. Böyük Hun imperiyası. I-II h. B., 1992.
8. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. B., 1985.
9. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. B., 1989.
10. Budaqov B.Ə. Türk uluslarının yer yaddaşı. B., 1994.
11. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. B., 1993.
12. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. B., 1993.
13. Əlisa Şükürlü. Qədim türk yazılı abidələrinin dili. B., 1993.
14. Fazil Qaraoğlu. Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları. B., 2007.
15. Faruq Sümər. Oğuzlar. B., 1992.
16. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. B., 1983.
17. Fərzəliyev Ş. Azərbaycan və Osmanlı imperiyası. B., 1993.
18. Qeybullayev Q.Ə. Qədim türklər və Ermənistan. B., 1992.
19. Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. B., 1994.
20. Qeybullayev Q.Ə. Azərbaycanlıların etnik tarixinə dair. B., 1994.
21. Qumilyov L.N. Qədim türklər. B., 1993.

22. Qüdrətov D.H. Türk xalqlarının tarixi. B., 2000.
23. Mahmudlu Y.M. Azərbaycan diplomatiyası. B., 1996.
24. Muxtarova Ə.İ. Uyğur xaqanlığı. /Tarix və onun problemləri. / B., 1995, №4.
25. Muxtarova Ə.İ. Qədim türk etnosu – avarlar haqqında. /Tarix və onun problemləri. B., 1997, №1.
26. Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi. B., 2002.
27. Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). B., 1994.
28. Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər. Əlavələrlə yeni nəşri). B., 2002.
29. Məmmədov İ.M. Hunlar. B., 1993.
30. Məmmədov A. Oğuz səltənəti. B., 1992.
31. Məmmədov Y. Orxon-Yenisey yazılı abidələri. B., 1993.
32. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə. B., 1978.
33. Rəfiq Özdək. Türkün qızıl kitabı. I-II-III kitablar. B., 1996; B., 1997.
34. SSRİ tarixi. I hissə. B., 1978.
35. Vəli Həbiboğlu. Qədim türklərin dünya görüşü. B., 1996.
36. Vəli Həbiboğlu. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. I kitab. B., 1995.
37. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. B., 1993.
38. Yusifov Y.B. Qədim Şərq tarixi. B., 1993.
39. Zeynalov F. Türkologiyanın əsasları. B., 1981.
40. Ziya Göyalp. Türkçülüyün əsasları. B., 1991.

## Türk dilində


1. Aliyarov Süleyman. Kurddan türeyiş efsanesinin tarihi coğrafiyasına dair. Türk Dünyası Araşdırmaları, sayı 65. İstanbul, 1990.
2. Ahmet Zeki Toqan. Ümumi Türk tarihine giriş. İstanbul, 1946.
3. Enver Könükçü. Kuşan və Akhunlar tarihi. Ankara, 1973.
4. Əbdülqadir Donuk. Əski türk dövlətlərində inzibati hərbi rütbə və terminlər. B., 1999.
5. Kemal Anadol. Orta Asiya türk devletleri tarihi. İstanbul, 1996.
6. Kumkalı Tahir. Tarihten günümüze türk-rus ilişkileri. İstanbul, 1997.
7. Osman Çətin. Anadoluda islamiyyətin yayılması. İstanbul, 1990.
8. Uzunçarşılı İ.H. Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletleri. Ankara, 1969.


## Rus dilində


1. Артамонов М.И. История Хазар. Ленинград, 1962.
2. Асадов Ф.М. Арабские источники о тюрках в раннем средневековье. Б., 1998.
3. Абрамзон С.М. Киргизы и их этногенетические и историко-культурные связи. Ленинград, 1971.
4. Бартольд В.В. История культурной жизни Туркестана. Соч. т.II. М., 1963.
5. Бартольд В.В. История турецко-монгольских народов. Соч. т.V. М., 1968.
6. Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинов. М., 1986.

7. Викторова Л.Л. Монголы. Происхождение народа и истоки культуры. М., 1980.
8. Восточный Туркестан в древности и раннем средневековье. М., 1982.
9. Воробьева Н.И. Казанские татары. Казань, 1953.
10. Гумилёв Л.Н. Эфталиты и их соседи. М., 1960.
11. Гумилёв Л.Н. Древние тюрки. М., 1967.
12. Гумилёв Л.Н. Хунны. Средняя Азия в древние времена. М., 1968.
13. Гусейнов Р.А. Сельджукская военная организация. Ленинград, 1967.
14. Гибадулин Я.Н. Тюркский мир. Казань, 2004.
15. Джафаров Ю. Гунны и Азербайджан. Б., 1993.
16. Еремеев Д.И. Этногенез турок. М., 1970.
17. Иванов Л.Л. Очерк по истории Средней Азии. М., 1958.
18. История народов Восточной и Центральной Азии с древнейших времен до наших дней. М., 1986.
19. Кызласов Л.Р. История Тувы в средние века. М., 1984.
20. Кузеев. Этногенез башкирского народа. М., 1974.
21. Лайпанов К.Т., Мизиев И.М. О происхождении тюркских народов. Черкесск, 1993.
22. Массон В.М. Первые цивилизации. Ленинград, 1989.
23. Мурад Аджи. Средневековая история тюрков и великой степи. М., 2007.
24. Новгородова Э.А. Древняя Монголия. М., 1989.
25. Потапов Л.П. Этнический состав и происхождение алтайцев. Ленинград, 1989.
26. Радлов В.В. В Сибири. М., 1989.
27. Рахманалиев Р. Империя тюрков. Великая цивилизация. Тюркские народы в мировой истории с X в. до н.э. по XX в. н.э. М., 2009.

28. Смирнов К.Ф. Савроматы. М., 1964.
29. Трепавлов В.В. История Ногайской Орды. М., 2002.
30. Фахруддинов Р.Г. Очерки по истории Волжской Булгарии. М., 1984.
31. Фёдоров Я.А., Фёдоров Г.Е. Ранние турки на Северном Кавказе. М., 1977.
32. Шаниязов К.Ш. К этнической истории узбекского народа. Ташкент, 1974.
33. Эдуард Паркер. Татары. История возникновения великого народа. М., 2009.
34. Юсифов Ю.Б. Киммеры, скифы и саки в древнем Азербайджане. Тбилиси, 1988.

**İnternet resursları**

1. ru.wikipedia.org/wiki/Тюркские_языки
2. www.tatar-hi**story**.**narod**.ru/simbioz.htm
3. www.kaznpu.kz/doc/20090218094438.doc
4. catalog.aport.ru/rus/themes.aspx?id
5. itart.academset.kz
6. gumilevica.kulichki.net/
7. perm-asha.chat.ru/mongol_
8. www.humanities.edu.ru

**Nəşriyyatın müdiri** **Kamil Hüseynov**

**Baş redaktor** **İsmət Səfərov**

**Redaktor** **İsabə Hüseynova**

**Korrektor** **Rəhilə İbrahimova**

**Komputer operatoru** **Çinarə Xalacova**

**Dizayner** **Vüsalə Axundova**

## Ramin Qurbanov

## Türk xalqlarının tarixi

-----------------

## Dərs vəsaiti

**Çapa imzalanıb: 12.07.2010 Kağız formatı: 60x84 1/16**
**Həcmi: 10 ç.v. Sifariş: 160. Say: 500**

---

**"İqtisad Universiteti" nəşriyyatı**
**AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6**

---